REYHAN HƏBİBLİ

# NİTQİN ELMİ ÜSLUBU

(jurnalistika təmayülü)

Ali məktəblərin hazırlıq şöbələrində təhsil alan əcnəbi tələbələr üçün dərs vəsaiti

A. ərbaycan Respublikası Təhsil Nazirinin 06.02.2013-cü il tarixli, 201 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmlşdir.

- 14122 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – 2013

81.2Az-5273 + 83.+15 Азе/Т+6,N17+3
H 50

**Elmi redaktor:** *prof.S.Ə.Abdullayeva*

**Rəyçilər:** *dos.Y.Ə.Məmmədli*

*dos.S.İ.Əliyeva*

*dos R.A.Qasımova*

**REYHAN HƏBİBLİ**
**"Nitqin elmi üslubu"** (jurnalistika təmayülü). Dərs vəsaiti.
"Təhsil" EİM. Bakı, 2013. 208 s.

*Nitqin elmi üslubu (jurnalistika təmayülü) üzrə dərs vəsaiti hazırlıq şöbələri üçün Azərbaycan dilinə dair tədris kompleksinin bir hissəsidir. Vəsaitin məqsədi – əcnəbi tələbələri «Jurnalistika» ixtisası üzrə mühazirələrin dinlənilməsinə hazırlamaq, elmi üslub materialı əsasında tələbələrdə bilik və bacarıqları formalaşdırmaqdır. Sintaktik strukturlar, ümumelmi və xüsusi leksik minimum əcnəbi tələbələrdə «Jurnalistika» ixtisası üzrə monoloji ifadə vərdişlərini inkişaf etdirməyə imkan verir.*

ISBN 978-9952-8210-8-9

© Reyhan Həbibli, 2013.

# ÖN SÖZ

İxtisas materialı əsasında xarici dilə düzgün və sərbəst yiyələnmə vərdişlərinin formalaşmasının bəzi məsələləri bu gün də mürəkkəb və ziddiyyətli olaraq qalır. Burada materialın metodik cəhətdən necə təşkil olunması, dil təliminin daha rasional və effektiv olması üçün hansı tapşırıqlar sisteminin təklifi, elmi dili öyrənməkdə aktiv və passiv qrammatika, eləcə də lüğət tərkibinin sərhədlərinin, elmi dilin şifahi və yazılı formalarının nisbətinin müəyyənləşdirilməsi problem olaraq qalır.

Nitqin elmi üslubunun öyrənilməsi Azərbaycan dilinin xarici dil kimi tədrisi metodikasının ehtiyaclarından irəli gəlir. Ali məktəblərin hazırlıq şöbələrində «Nitqin elmi üslubu» fənninin tədrisi mühüm əhəmiyyət kəsb edir. Bu fənn əcnəbi tələbələri seçdikləri ixtisas üzrə sistematik kursu mənimsəməyə hazırlamaq vəzifəsini yerinə yetirir. Əcnəbi tələbələr üçün Azərbaycan dilini öyrənmək təhsil almaq, professional hazırlıq keçmək, seçilən ixtisasa yiyələnmək vasitəsidir, çünki onlar seminarlarda, praktik məşğələlərdə fəal iştirak etməli, imtahan verməli, kurs və buraxılış işləri yazmalı, xüsusi ədəbiyyat oxumalı, mühazirə dinləməli, ixtisas mövzuları və ona yaxın fənlər üzrə söhbətlər aparmalıdır. Bu göstərilənlər «Nitqin elmi üslubu» fənninin bütövlükdə tədris sistemində yerini müəyyən edir.

Bu dərs vəsaiti ali məktəblərin hazırlıq şöbələrində təhsil alan əcnəbi jurnalist-tələbələr üçün nəzərdə tutu-

lub. Onun məqsədi nitqin elmi üslubunun tələbələrin gələcək ixtisas profilinə uyğun materiallar əsasında öyrədilməsidir. Vəsaitin vəzifələri bunlardır: nitqin elmi üslubu üçün xarakterik olan zəruri ümumelmi və xüsusi leksika minimumunu və sintaktik strukturları mənimsətmək; tələbələri ixtisas üzrə elmi ədəbiyyatın mütaliəsinə və mühazirələrin dinlənilməsinə hazırlamaq; elmi üslub bazasında monoloji nitq vərdişlərini inkişaf etdirmək; jurnalist-tələbələrin passiv lüğət ehtiyatını genişləndirmək.

Vəsaitin leksik və qrammatik materialı mövcud tədris-pedaqoji və elmi ədəbiyyatı nəzərə alaraq seçilmişdir. Hər paraqrafın baza mətni, çalışmaları var. Təsvir-izah xarakteri daşıyan mətnlər öyrənilən dil və nitq materialının möhkəmləndirilməsinə xidmət edir. Çalışmalar Azərbaycan dili dərslərində öyrənilmiş qrammatik materiala əsaslanır və oxunmuş mətnin başa düşülməsinə istiqamətlənib. Mətn və çalışmaların terminlərlə zənginliyini və onların əcnəbi tələbələr tərəfindən qavrama çətinliklərini nəzərə alaraq müvafiq materialın seçimində bəzi leksik və dil çətinliklərini aradan qaldırmağa çalışmışıq.

Mətnlərin və tapşırıqlar sisteminin məqsədi jurnalistika üzrə ümumelmi və xüsusi leksik minimumu təqdim etmək, mətnlərin əsas məntiqi-kompozisiya elementlərini, tip və strukturunu mənimsətmək, tələbələrin gələcək ixtisas predmeti kimi jurnalistika haqqında məlumatlarını genişləndirməkdir.

Vəsaitdəki çalışmalar dilin linqvistik, psixoloji, didaktik əsasları üzərində qurulmuşdur. Çalışmaları iki qismə ayırmaq olar: a) qrammatik xarakter daşıyanlar; b) nitq inkişafına, elmi dilin mənimsənilməsinə xidmət



edənlər. Hər iki qisimdən olan çalışmaların tərtibində nitq inkişafı ilə yanaşı, elmilik, müasirlik və ideyalılıq prinsipləri də əsas götürülür. Bunlar da dil təliminin keyfiyyətini yüksəltməyə geniş imkanlar açır.

## §1. Jurnalist yazısının xüsusiyyətləri

Jurnalist yazısı üç başlıca tələbə cavab verməlidir: dəqiqlik, aydınlıq və qısalıq (lakoniklik). Başqa sözlə, jurnalist fikri dəqiq formalaşdırıb oxucuya aydın və qısa şəkildə çatdırmalıdır.

**Dəqiqlik** jurnalistin beynində formalaşan fikrin (informasiyanın) orijinala, yəni gerçəkliyə, fakta maksimum uyğunluğu, **aydınlıq** müəyyən vasitələrlə (söz, məntiqi vurğu, illüstrasiya, tərtibat elementləri və s. ilə) ifadə olunmuş fikri oxucunun düzgün, asan və tez qavramasına nail olunması, **qısalıq** isə hər fikir vahidinə uyğun konkret dil vahidləri seçilməsi, artıq söz, ifadə, hətta şəkilçilərdən, ayrı-ayrı hissəciklərdən qaçılmasıdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| jurnalist | mətbuat işçisi, jurnalistika ilə məşğul olan ədəbi işçi |
| jurnalistika | yaradıcılıq sənəti, elm sahəsi |
| jurnal | kütləvi mətbuat növü |
| tələb | bir şeyi qəti şəkildə istəmə |
| dəqiq | 1) doğru-düzgün; 2) işində diqqətli olan |
| aydın | işıqlı, açıq, təmiz, aşkar, məlum |
| qısa | uzun sürməyən, uzaqlaşmayan, müxtəsər |
| lakonik | qısa, yığcam, azsözlü |
| lakoniklik | fikrin yığcam, aydın ifadə edilməsi |
| formalaşdırmaq | müəyyən forma vermək, müəyyən şəklə salmaq; təşkil etmək |



| | |
|---|---|
| oxucu | kitab və s. oxuyan |
| çatdırmaq | 1) hər hansı bir vasitə və yolla yetişdirmək; 2) bildirmək, məlumat vermək; 3) gecikməmək |
| informasiya | məlumatların məcmusu |
| mətbuat | 1) çap işləri ilə məşğul olan sahə; 2) qəzet, jurnal |
| orijinal | 1) şəkil, yazı və s. əsli; 2) tərcümə olmayan; 3) başqalarına oxşamayan |
| gerçəklik | 1) həqiqət, reallıq; 2) doğruluq |
| fakt | 1) həqiqətən olmuş hadisə, əhvalat; 2) gerçəklik, reallıq |
| maksimum | ən çox, ən böyük |
| uyğunluq | uyğun gəlmə, münasiblik |
| vasitə | üsul, yol |
| məntiqi vurğu | cümlədə mənaca əsas sözün yüksələn intonasiya ilə tələffüzü |
| illüstrasiya | kitab və ya jurnallarda mətnlə bağlı şəkillər |
| tərtibat | tərtib olunmuş bir şeyin xarici görünüşü |
| element | tamın, bütövün tərkib hissəsi |
| asan | çətinlik yaratmayan, yüngül |
| qavramaq | anlamaq, başa düşmək |
| nail olmaq | əldə etmək, çatmaq |
| konkret | tam, dəqiq, aydın, müəyyən |
| vahid | 1) tək, bir; 2) ən kiçik ölçü vahidi |
| hissəcik | bir şeyin ən kiçik parçası |

***Çalışma 2. Toplu və cəm isimləri tapın.***

«Jurnalist» sözü fransızcadan alınıb «Jur» - gün; «jurnal» - «gündəlik», «jurnalist» - «gündəlikçi», yəni cari (indiki, hazırkı) hadisələr barədə informasiyanı müx-

təlif kütləvi kanallarla (mətbuat, radio, televiziya) ictimaiyyətə çatdıran şəxs deməkdir. Aparıcı dövri nəşr olan qəzetin də adı dünya dillərinin çoxunda «gün», «zaman», «yenilik» anlayışları ilə bağlıdır.

*Çalışma 3. Köçürün. Saitlərin yanaşı işləndiyi sözləri tapın, tələffüzünə diqqət edin.*

**Jurnalistika** (journalism) kütləvi xəbərləmə vasitəsidir. Burada sosial əhəmiyyət daşıyan aktual informasiya toplanır və işlənir. Jurnalistika bu informasiyanın mətbuat, radio və televiziya vasitəsilə yayılmasını təmin edir. O, ictimai rəyin formalaşmasına və inkişafına təsir edən ən qüdrətli amillərdəndir.

*Çalışma 4. Mücərrəd isimləri tapın.*

Nitq (jurnalisti anlamında mətn) fikirlə dilin vəhdətindən yaranır. **«Jurnalistin nitq mədəniyyəti»** dedikdə bu sahə ilə məşğul olan adamın fikri dil vasitəsilə dəqiq, aydın, ifadəli və qısa şəkildə çatdırmaq bacarığı nəzərdə tutulur.

*Çalışma 5. Nöqtələrin yerinə cəm şəkilçilərini qoyun.*

Ədəbi dilin xarakterik cəhət...indən biri də onun müxtəlif üslub...a malik olmasıdır. İctimai və siyasi məsələ...in geniş xalq kütləsinin anlayacağı şəkildə izah edilməsi **publisistik üslub** adlanır. Bu üsluba kütləvi üslub, kütləvi dil də deyilir. Buraya təbliğat məzmunlu, adi məlumat xarakterli və tənqidi məqalə...in, yazılı məruzə...in, xülasə...in və s. dili daxildir.



*Çalışma 6. Dodaqlanan sait ahəngi olan sözləri tapın.*

İctimai-publisistik üslubun əmələ gəlməsində mətbuatın xüsusi rolu vardır. Buna görə də bu üslubu çox zaman **mətbuat üslubu** da adlandırırlar. Bu üslub iki yerə bölünür: 1) qəzet üslubu; 2) jurnal üslubu. Lakin qəzetdə mənası gec başa düşülən sözlərə, tərkiblərə yer verilmir. Ancaq jurnalda yeni terminlər, tərkiblər, qısaltmalar və s. çox işlədilir.

*Çalışma 7. k samitinin tələffüzünə diqqət edin.*

Fikrin elmi şəkildə ifadə olunması **elmi üslub** adlanır. Elmi üslubda obrazlılıq, emosionallıq olmur. Buraya bütün elmi və metodik əsərlərin dili daxildir. Bu üslubda mükəmməl elmi əsərlər yaradılır. Elmi üslubda fikir elmi şəkildə izah olunur, terminlər çox işlənir, söz həqiqi mənada işlənir, xüsusi ifadələrdən, müxtəlif işarələrdən, mürəkkəb sintaktik konstruksiyalardan, qədim yunan və latın əlifbalarından istifadə olunur.

*Çalışma 8. Söz birləşmələri düzəldin.*

| | |
|---|---|
| müxtəlif | üslubu |
| üslubi | hadisə |
| fəaliyyət | üslub |
| danışıq | sistem |
| fərdi | fikirlər |
| tarixi | sahələri |

*Çalışma 9. Terminləri öyrənin.*

jurnalist, nitq, dil, nitq mədəniyyəti, üslub, elmi üslub, publisistik üslub, mətbuat üslubu, jurnalistika, mətbuat, informasiya

## §2. Publisistikada material

Jurnalistikada «material» dedikdə bizi əhatə edən fiziki cisimlər, hadisələr yox, həmin cisimlər və hadisələr haqqında bilik, məlumat, fakt, informasiya nəzərdə tutulur. Jurnalist yazısının əsasını gerçək faktlar, sənədlər, xronika təşkil edir. Publisistikada yalnız obyektiv, dürüst informasiyadan istifadə olunur. Jurnalist materialı bu və ya başqa real şəxs, hadisə, proses haqqında, həmin şəxs, hadisə və proseslərə cəmiyyətin münasibəti, insanların dünyagörüşü, ehtiyacı, maraqları, arzuları barədə informasiyadan ibarətdir və bu informasiyanı o, müxtəlif qaynaqlardan əldə edir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| material | 1) müəyyən bir iş üçün gərək olan ləvazimat; 2) məlumat, vəsait, sənəd, yazılar |
| əhatə etmək | hər tərəfi tutmaq |
| fiziki | 1) fizikaya aid olan; 2) cismani |
| cisim | 1) maddə, şey; 2) bədən, vücud |
| hadisə | əhvalat, macəra |
| nəzərdə tutmaq | fikrində tutmaq, haqqında düşünmək |
| fakt | 1) həqiqətən olmuş hadisə, əhvalat; 2) gerçəklik, reallıq |
| sənəd | bir şeyi təsdiq edən, bir şeyə hüququ sübut edən rəsmi kağız |
| xronika | hadisələrin hər il qeydə alınması |
| təşkil etmək | düzəltmək, təsis etmək, yaratmaq, qaydaya salmaq, əmələ gətirmək |
| publisistika | müasir aktual mövzuda yazılmış ictimai-siyasi əsərləri birləşdirən ədəbi janr |



| | |
|---|---|
| obyektiv | şüurdan kənarda və ondan asılı olmayaraq mövcud olan |
| dürüst | 1) sağlam; 2) doğru, səhvsiz; 3) tamamilə, bütün |
| istifadə etmək | faydalanmaq |
| proses | hadisənin gedişi |
| cəmiyyət | həyat şəraiti ümumiliyi əsasında birləşmiş insan toplusu; təşkilat |
| ehtiyac | 1) tələbat; 2) yoxsulluq |
| maraq | 1) bir şeyi bilmək, öyrənmək həvəsi, arzusu; 2) narahat olmaq |
| təhqiqat | 1) həqiqəti meydana çıxarma; 2) yoxlama |
| qaynaq | mənbə, mənşə |
| əldə etmək | qazanmaq |
| tənzimləmək | qaydaya salmaq |
| qərəz | 1) məqsəd, məram; 2) gizli niyyət, ədavət |
| ekspert | mübahisəli məsələləri həll edən mütəxəssis və ya komissiya |
| efir | dünyanı əhatə edən fəza, radio dalğalarının, televiziya və radio verilişlərinin yayıldığı hava boşluğu |
| müvəqqəti | daimi olmayan, yalnız müəyyən müddət üçün |

***Çalışma 2. Qoşasamitli sözləri tapın.***

Jurnalistin vizual nitq mədəniyyəti iki hissədən – fikrin dəqiqliyindən və fikrin ifadə vasitələrinin dəqiqliyindən ibarətdir. Bunların hər ikisi «son məhsul»da – mətndə təcəssüm tapır. Həm fikrin, həm də onun ifadə vasitələrinin düzəliş əməliyyatı mətn üzərində gedir.

*Çalışma 3. Əvəzlikləri tapın və növünü müəyyən edin.*

Hazır mətndə məntiqi səhvlərin düzəldilməsi prosesi iki mərhələdən ibarətdir: 1. Səhvin aşkarlanması; 2. Onun düzəldilməsi. Bu prosesi həm yazan adamın özü, həm də mətbuat əməkdaşı (bədii redaktor) gerçəkləşdirə bilər. Lakin jurnalist səhvini özü düzəltməlidir. Ona görə də o, mətnin müəyyən hissəsini (cümləni, abzası və s.), yaxud hamısını yazandan sonra professional oxucuya çevrilməli, buraxdığı səhvləri özü aşkar edib düzəltməyi bacarmalıdır.

***Çalışma 4. Suallara cavab verin.***

1. Material nədir? 2. Jurnalist yazısının əsasını nə təşkil edir? 3. Publisistikada hansı informasiyadan istifadə olunur? 4. Jurnalist materialında nə əks olunur?

***Çalışma 5. ə saitinin tələffüzünə diqqət edin.***

*Jurnalist etikası* kütləvi informasiya vasitələri işçiləri üçün nəzərdə tutulmuş etik normalar toplusudur. Bu normalara: a) jurnalistin davranışı və mənəvi siması; b) haqqında yazdığı və ünsiyyətdə olduğu adamlara dəqiq və qərəzsiz münasibəti; c) peşə etikasını gözləməsi və həmkarlarına münasibəti; ç) oxucu (tamaşaçı və dinləyici) rəyinə hörmətlə yanaşması və s. daxildir.

***Çalışma 6. Qara hərflərlə verilmiş sözləri izah edin.***

*Jurnalist təhqiqatı* aktual mövzunun, **hadisənin**, yaxud vacib bir problemin **əsas** mahiyyətinin soyuqqanlılıqla, **obyektiv**, hərtərəfli araşdırılmasıdır. Bu zaman şərait və material **ətraflı** öyrənilir, «nəyə görə» və «niyə»



suallarına cavab verilir. Jurnalist araşdırma zamanı efirə dəvət etdiyi ekspertlərin **müstəqil, qərəzsiz** və nüfuz sahibi olmasına xüsusi diqqət yetirməlidir.

***Çalışma 7. Köçürün, sözləri hecalara bölün. Açıq hecaların altından bir, qapalı hecaların altından iki xətt çəkin.***

*Jurnalistika azadlığı* demokratik cəmiyyətdə məsələlər qaldırmaq, daha kəskin sosial ziddiyyətləri müzakirə etmək, dövlət və hökumət orqanlarının, müxtəlif müəssisələrin fəaliyyətini (bu hərəkətlər cəmiyyətin maraqlarına təhlükə yaratdıqda) tənqid etmək azadlıqlarıdır.

***Çalışma 8. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.***

*Jurnalistin ictimai işi* haqqı ödənilməyən, könüllülük əsasında həyata keçirilən işdir. Sosial faydalı olub ... peşə hazırlığı tələb etməyən müvəqqəti fəaliyyətdir. *Jurnalist monoloqu* studiyada ... materialın göstərilməsi ilə əlaqədar ya şərh, ya da daha ... ssenari formasının elementidir. *Jurnalist mövqeyi* təqdim etdiyi fakt və rəylərdə jurnalistin mötəbərliyə və ... can atn ısıdır.

**Sözlər:** *dolğunluğa, hər hansı bir, xüsusi, mürəkkəb*

***Çalışma 9. Terminləri öyrənin.***

jurnalistika azadlığı, jurnalistin ictimai işi, jurnalist mövqeyi, jurnalist təhqiqatı, jurnalist etikası, jurnalistin vizual nitq mədəniyyəti, material, fakt, sənəd, xronika, publisistika, ekspert, efir, jurnalist monoloqu

## §3. Publisistikada fakt

Fakt jurnalist yazısının – publisistikanın sənədli əsasıdır. Həqiqəti dəqiq əks etdirən faktları aşkara çıxarıb yazıda istifadə etmək üçün gerçəkliyi dərindən bilmək, bu və ya başqa faktın niyə məhz o cür olduğunu anlamaq lazımdır. Dəqiq fakt toplamaqdan və onu düzgün dəyərləndirməkdən ötrü jurnalistin güclü müşahidə qabiliyyəti olmalıdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| sənədli | sənədə uyğun olan, qanuni |
| əsas | 1) özül, bünövrə; 2) başlıca, mühüm |
| həqiqət | 1) olmuş hadisə; 2) bir şeyin əsli; 3) doğru |
| əks etdirmək | göstərmək |
| aşkara çıxarmaq | tapmaq |
| intonasiya | səs tonunun hərəkəti |
| istifadə etmək | faydalanmaq |
| varmaq | gəlib çatmaq; dalmaq, qərq olmaq |
| məhz | yalnız, buna görə də |
| dəyərləndirmək | qiymətləndirmək |
| qabardılmaq | qabarıq hala salınmaq, şişirdilmək |
| müşahidə | diqqətlə baxma |
| qabiliyyət | bacarıq |
| empirik | praktik |

***Çalışma 2. Suallara cavab verin.***

1. Fakt nədir? 2. Yazıda faktdan istifadə etmək üçün nə etmək lazımdır? 3. Dəqiq fakt toplamaq üçün jurnalistdə nə olmalıdır?



***Çalışma 3. İncə sait ahəngi olan sözləri tapın.***

Fakt həqiqətən olmuş, baş vermiş mövcudluq, gerçəkliyin müəyyən empirik anlamı, obyektiv məlumatlar, reallıqda baş vermişləri əks etdirən sənədlər, insan və onun işləri barədə bilgilər, müxtəlif rəqəmlərdir.

***Çalışma 4. Açıq sait ahənginin pozulduğu sözləri göstərin.***

Yazılardakı faktlar iki səbəbdən qeyri-dəqiq ola bilər: ya jurnalistin müşahidə qabiliyyəti zəifdir, ya da o, faktları qəsdən, kiminsə sifarişi ilə təhrif edir. Hər iki hal bu müqəddəs adı daşıyanlar üçün bağışlanılmaz səhvdir və belələrinin həmin adı daşımağa haqqı yoxdur.

***Çalışma 5. Hal şəkilçilərinin altından xətt çəkin.***

Jurnalist topladığı faktların mahiyyətini, mənasını başa düşməli, onların sosial təbiətini, keçmişini, indisini və gələcəyini görməyi bacarmalıdır. Bunu edə bilirsə, o, faktdan mövzuya keçir, gələcək üçün mühüm proqnozlar verir.

***Çalışma 6. Konkret isimləri tapın.***

Jurnalist cümlədəki sözlərdən birinə xüsusi anlam vermək, oxucunun, dinləyicinin və tamaşçının diqqətini həmin sözə yönəltmək istəyirsə, onu məntiqi vurğu ilə seçməlidir. Bəzən məntiqi vurğunun yerinin dəyişməsi bütövlükdə cümlənin mənasının dəyişməsinə səbəb olur.

***Çalışma 7. Mətni oxuyun. Nöqtələrin yerinə ə yoxsa e saiti yazılmalıdır?***

Audio (şifahi) nitqd... hansı sözün qabardılmasını n...z...r... çarpdırmaq asandır. Danışan t...r...f ç...tinlik ç...km...d...n m...ntiqi vurğunu hansı sözün üstün...

saldığını intonasiyanın köm...yi il... dinl...yiciy... çatdıra bilir.

***Çalışma 8. k samitinin tələffüzünə diqqət edin.***

Vizual (yazılı) nitqdə intonasiyanı və onun çalarlarını əks etdirən xüsusi işarələr yoxdur. Yazan adamdan fərqli olaraq oxuyan adam cümlənin istənilən sözünü məntiqi vurğu altına sala bilər. Təbii ki, əksər hallarda birinci tərəfin fikri ikinci tərəfə təhrif olunmuş şəkildə çatar.

***Çalışma 9. Terminləri öyrənin.***

vizual, audio, vizual nitq, şifahi nitq, audio nitq, məntiqi vurğu, fakt, ritm



## §4. Jurnalistikada fikrin ifadə formaları

Fikrin iki ifadə forması var: şifahi və yazılı. Mətbuatın, kinonun, radionun, televiziyanın kütləviləşməsindən sonra bunlara «vizual nitq» (VN), «audionitq» (AN) və «audiovizual nitq» (AVN) adlanan daha üç forma əlavə olunmuşdur. Şifahi və yazılı nitqdə fikir yalnız sözlərin köməyi ilə ifadə olunur. VN-də informasiya sözlərin, illüstrasiyaların və tərtibat elementlərinin, AN-də sözlərin və səs effektlərinin, AVN-də isə sözlərin, görüntünün və yardımçı səslərin vasitəsilə auditoriyaya çatdırılır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| şifahi | yazı ilə deyil, dil ilə; ağızdan |
| yazılı | 1) üstündə bir şey yazılmış; 2) yazılmış |
| kino | ekranda göstərilən incəsənət əsəri |
| radio | informasiyanın müəyyən məsafəyə elektromaqnit dalğaları vasitəsilə verilməsi üsulu |
| televiziya | hərəkət edən təsvirlərin elektrik və ya radiorabitə vasitəsilə uzaq məsafəyə verilməsi |
| kütləviləşmək | kütlənin malı olmaq |
| kütlə | böyük dəstə, camaat, adamlar qrupu |
| auditoriya | 1) ali məktəblərdə dərs otağı; 2) mühazirə dinləyənlər toplusu |
| görüntü | şeyin, adamın zahiri şəkli |
| diksiya | sözlərin, hecaların, səslərin tələffüz tərzi |
| pauza | fasilə |
| rakurs | baxım nöqtəsi, bucağı |

14/22
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZIDENT KİTABXANASI

| | |
|---|---|
| montaj | quraşdırma |
| jest | 1) əl-qol hərəkəti; 2) nəzərə çarpdırmaq üçün görülən iş, edilən hərəkət |

*Çalışma 2. Suallara cavab verin.*

1. Fikrin hansı ifadə formaları var? 2. Şifahi və yazılı nitqdə fikir necə ifadə edilir? 3. Audio, vizual, audiovizual nitqdə fikir necə çatdırılır?

*Çalışma 3. Söz birləşmələrini seçin.*

Jurnalistikada vizual nitqin tərkib hissəsi olan dilə (qəzet, jurnal, kitab dilinə) sözlərin, illüstrasiyaların və qəzet tərtibi elementlərinin, audionitqin tərkib hissəsi olan dilə (radio dilinə) sözlərin (diksiya, intonasiya və pauza da daxil olmaqla), musiqinin (verilişlərin fon musiqisi nəzərdə tutulur) və səs effektlərinin, audiovizual nitqin tərkib hissəsi olan dilə (televiziya və kino dilinə) isə sözlərin (audiodildəki çalarlar və jestlər də daxil olmaqla), görüntünün (plan, rakurs, montaj və s. daxil olmaqla), musiqinin və yardımçı səslərin kontrapunktu kimi baxılır.

*Çalışma 4. Nöqtələrin yerinə lazım olan saiti qoyun.*

**Kontrapunkt** musiqi t...rminidir. Bir n...çə müstəqil m...lodiyanın, səsin ...yni vaxtda ...şidilməsi ilə ahəng bütövlüyü yaratmaq d...məkdir. VN, AN və AVN-də «kontrapunkt» dedikdə buradakı dil anlayışına daxil olan komponentlər arasında əlverişli funksiya bölgüsü nəzərdə tutulur. Həmin komponentlər bir-birini təkrarlamamalı, hərəsi məzmunun bir tərəfini açmaqla kompleks yaratmalıdır.



*Çalışma 5. İllüstrasiya anlayışını öyrənin.*

**İllüstrasiya** qəzetdə, kitabda hər hansı bir mətni daha da aydınlaşdıran, onu tamamlayan, vizual təsəvvür yaradan foto, şəkil, cədvəl, qrafik, sxem, xəritə və s. tipli təsvirlərdir. Bəzən hər hansı bir əsərdə təbliğ olunan fikir gizlidirsə, bu, illüstrasiya vasitəsilə aydınlaşdırılır, təsvirlərlə tamamlanır.

*Çalışma 6. Nöqtələrin yerinə hal şəkilçilərini qoyun.*

**Səs effektləri** danışığ... (nitq...) və musiqi... aid olmayan səsdir. Studiya... çəkiliş zamanı çox vaxt nəzərdə tutulan çəkiliş yeri... təbii küyləri... canlandırmaqdan ötrü istifadə olunur. Hadisə... kadr arxası... qalan inkişafı haqqında təsəvvür yaratmaq üçün həm pavilyon, həm də natura çəkilişləri... səs effektləri... geniş istifadə edilir. Partlayışlar..., avtomobil qəzaları..., təyyarə uçuşları... və s. olaylar kadrarxası səs effektləri... köməyi ilə canlandırmaq mümkündür.

*Çalışma 7. Mənsubiyyət şəkilçilərini göstərin.*

*Audiovizual landşaft* televiziya və radio yayımının təşkili zamanı cəmiyyətin bütün təbəqələrinin marağının nəzərə alınmasıdır. Rəsmi sənədlərdə bu ifadəni tez-tez işlədən Avropa Şurası Parlament Assambleyasının ekspertləri belə hesab edirlər ki, landşaft rəngarəng olmalı və buraya ictimai xidmət sektoru, kommersiya sektoru, eləcə də lokal, yaxud regional komponent daxil edilməlidir.

*Çalışma 8. Terminləri öyrənin.*

kino, radio, televiziya, vizual nitq, audionitq, audiovizual nitq, audiovizual landşaft, səs effektləri, kontrapunkt, illüstrasiya, diksiya, pauza, rakurs, montaj, jest

## §5. Jurnalistin nitq mədəniyyəti

«Jurnalistin nitq mədəniyyəti» anlayışına üç aspektdən yanaşmaq lazımdır: a) vizual nitq mədəniyyəti; b) audionitq mədəniyyəti; c) audiovizual nitq mədəniyyəti. **«Vizual nitq mədəniyyəti»** dedikdə qəzet, jurnal, kitab publisistikası (buraya xəbərdən tutmuş felyetona və pamfletə qədər bütün janrlar daxildir), **«audionitq mədəniyyəti»** dedikdə səsli publisistikanı (radio janrlarını), **«audiovizual nitq mədəniyyəti»** dedikdə isə kino və televiziya publisistikasını formalaşdıran şəxslərin yaradıcılıq mədəniyyəti nəzərdə tutulur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| aspekt | əşya, hadisə və anlayışlara münasibət |
| yanaşmaq | yanına gəlmək, yaxınlaşmaq |
| felyeton | satirik və ya yumoristik məqalə, yazı |
| pamflet | müəyyən bir adam, yaxud hadisə münasibətilə tənqidi publisistik əsər |
| janr | ədəbiyyat və incəsənətə aid əsərlər növü |
| yaradıcılıq | əvvəllər mövcud olmayan, keyfiyyətcə yeni bir şey meydana gətirən fəaliyyət |
| nəzərdə tutmaq | fikrində tutmaq, haqqında düşünmək |
| söykənmək | 1) bədənini bir şeyə dayamaq; 2) arxalanmaq, etibar etmək; 3) əsaslanmaq |
| mütəxəssis | 1) ixtisası olan, ixtisaslı işçi; 2) hazırlıqlı, bilikli, savadlı |
| kommunikasiya | 1) ünsiyyət; 2) rabitə, əlaqə |



***Çalışma 2. Sözlərdə vurğunun yerini müəyyən edin.***

Nitq mədəniyyəti fikri beyində formalaşdırmaq və dil vasitəsilə ifadə etmək mədəniyyətidir. Mətbuat (vizual publisistika) üslubunda fikir (informasiya) sənədlərə, gerçək hadisələrə söykənir. Yazıçıdan fərqli olaraq jurnalist (publisist) həyatı, onun bir parçasını gerçəkliyə (orijinala) ən yaxın şəkildə, yəni dəqiq əks etdirməyə borcludur.

***Çalışma 3. Səhvləri düzəldin.***

Nitq mədəniyyəti ekran və efirde ədəbi dil normalarına, orfoepiya (tələffüz) qaydalarına əməl olunması, nitkin ədəbi dil normalarına uyqunluğu, dilin ifadə vasitələrinnən nitkmn məksət və məzmununa uyqun şəkildə istifadə etməy bacarığıdır. O, dil səviyələrinin normalaşdırılması, dil hadisə və praseslərinin inkişaf xətdini, üslubiyyat məsələlərini araştıran dilçiliy şöbəsidir.

***Çalışma 4. Mötərizədəki sözləri lazım olan formada işlədin.***

Faktların düzgün (seçilmək), məntiqi vurğunun yerinin düzgün (müəyyənləşdirilmək), cümlələrdəki sözlər arasında məna əlaqələrinin dəqiq (qurulmaq), məntiq qanunlarına (əməl olunmaq) mədəniyyəti və s. nitq mədəniyyətinin məntiqi əsaslarını təşkil edir.

***Çalışma 5. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

Nitq mədəniy...ətinin linqvistik-publisistik əsaslarına il...in mərhələdə beyində formalaşmış düz...ün fi...ri linqvistik vahidlərin, illüstrasiyaların və tərtibat element-

lərinin kömə...i ilə düz...ün ifadə edə bilmə... mədəniy...əti daxildir.

***Çalışma 6. Nöqtələrin yerinə hal şəkilçilərini qoyun.***

Vizual nitq mədəniyyəti... birinci şərti müəllif fikri... real gerçəkli... (fakt...) və seçilmiş ifadə vasitələri... (sözlər..., illüstrasiyalar... və tərtibat elementləri...) müəllif fikri... uyğunluğu... nail olmaqdır. Mütəxəssislər bu... fakt... dəqiqliyi və kommunikasiya... dəqiqliyi kimi izah edirlər.

***Çalışma 7. Rəsmi üslub haqqında məlumatı öyrənin.***

Cəmiyyətdə rəsmi münasibətləri bildirmək üçün yazılan dövlət sənədlərinin üslubu **rəsmi üslub** adlanır. Buna rəsmi dil də deyilir. Buraya bütün dövlət sənədlərinin – protokol, akt, nota, əmr, qərar, fərman, bəyanat, qətnamə və s. dili daxildir. Rəsmi üslubda yazılan sənədlərdə hər bir məsələ aydın və qısa izah edilir, artıq sözlərə, təkrarlara yol verilmir, dəqiq terminlər seçilir, xüsusi ifadələrdən istifadə edilir.

***Çalışma 8. Terminləri öyrənin.***

nitq mədəniyyəti, felyeton, pamflet, janr, kommunikasiya, vizual publisistika, informasiya, vizual nitq mədəniyyəti, rəsmi üslub, audionitq mədəniyyəti, audivizual nitq mədəniyyəti, jurnalistin nitq mədəniyyəti



## §6. Məntiqi vurğunun vizual ifadə üsulları

Yazılı nitqdə məntiqi vurğu çox vacib amillərdən biridir və onun vizual ifadə üsullarını tapmaq lazımdır. Mütəxəssislər onlardan üçünü göstərirlər: a) mövqe üsulu; b) sözartırma üsulu; c) tərtibat üsulu. **Mövqe üsulu** budur ki, məntiqi vurğu lazımi sözü vurğulu mövqeyə, yəni cümlənin sağ tərəfinə gətirməklə ifadə olunur. **Sözartırma üsulu** tələb edir ki, gücləndirici sözlər əlavə etməklə vacib olan söz seçilsin. **Tərtibat üsulu** lazım olan sözün şriftlərinin fərqləndirilməsi, yəni kursiv, qara şriftlərdən istifadə olunması, hərflərin seyrəldilməsi, sözdəki bütün hərflərin böyük yazılması və s. nəzərdə tutur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| mütəxəssis | hazırlıqlı, bilikli, ixtisası olan |
| sözartırma | söz əlavə edilməsi |
| mövqe | 1) yer; 2) birinin cəmiyyətdə, ictimai həyatda yeri, rolu |
| lazımi | lazımlı, gərəkli, yararlı |
| tərtibat | tərtib olunmuş bir şeyin xarici görünüşü; sıralama |
| ifadə olunmaq | söylənmək, deyilmək |
| gücləndirici | elektrik, səs və s. gərginliyini artıran cihaz |
| şrift | müxtəlif ölçüdə mətbəə hərfləri |
| fərqləndirmək | fərqli cəhətinə görə başqalarından ayırmaq |
| kursiv | maili mətbəə hərfləri, maili yazı |
| seyrəldilmək | bir-birindən aralı düşmək; azaldılmaq |
| maili | əyilmiş |
| riayət etmək | əməl etmək, gözləmək |

*Çalışma 2. Cümlələri tamamlayın.*

Vizual nitq mədəniyyətinin məntiqi əsaslarında tez-tez yaranan başqa bir problem sözlər arasında məna əlaqəsinin pozulması, yəni cümlədə sözlərin düzgün .... Publisistikada söz sırasını qrammatikanın sabit qaydalarına tam tabe etdirmək həmişə .... Çünki jurnalist öz yazısını son dərəcə dinamik olan, bu günün ritmi ilə şərtlənən xüsusi model əsasında .... Həm məntiqi vurğu, həm söz sırası, həm də bir sıra başqa amillər məhz bu dinamikliyin tələblərinə ... .

**Sözlər:** *faydalı olmur, uyğunlaşdırılır, sıralanmamasıdır, qurur*

***Çalışma 3. Aşağıdakı sözlərə cümlə qurun.***

mədəniyyət, informasiya, dil, jurnal, mətbuat

***Çalışma 4. Nöqtələrin yerinə lazım olan şəkilçiləri qoyun.***

*Nitq* televiziya (TV), kino və radio... əsas ifadə vasitə...indən biridir. O, insanlar... digər adam...la ünsiyyətin...dən, bu və ya digər dilin vasitəsilə onun öz fikirlər...ni ifadə etmə...ndən və başqalarına çatdırma...ndan ibarət fəaliyyətidir. Nitq həm informasiya, həm çağırış-müraciət, həm də dinləyici... təhrik etmə və s. ifadəsi üçün dilin müxtəlif vasitələri... işlədilməsi, dildən istifadə etmək prosesi....

***Çalışma 5. Altından xətt çəkilmiş sözlərə əks mənalı sözlər tapın.***

*Nitqin anlaşıqlılığı* dinləyicilərin nitq vasitəsilə ifadə olunan fikri qavramasıdır. Danışan adam izah etdiyi



məzmunu özü mükəmməl və tam aydın dərk etməli, sözləri düzgün yerində işlətməyi, tələffüz qaydalarına, ahəngə riayət etməyi bacarmalıdır. Danışanın cümlələri mümkün qədər qısa, aydın, məntiqi olmalıdır. Ekran-efirdə çıxış edənlər öz nitqlərində yersiz sözlər, çətin ifadələr işlətməməlidir.

***Çalışma 6. Bədii üslub haqqında məlumatı öyrənin.***

Fikrin bədii ifadə və təsvir vasitələri ilə ifadə olunmasına *bədii üslub* deyilir. Bədii üslubun iki forması vardır: nəzm üslubu və nəsr üslubu. Bədii üslub öz xüsusiyyətləri ilə olduqca obrazlı, emosional, ekspressivdir. Hazırda Azərbaycan ədəbi dilinin başqa üslublarına nisbətən xalq danışıq dilinə daha yaxındır.

***Çalışma 7. Terminləri öyrənin.***

məntiqi vurğu, bədii üslub, nəzm üslubu, nəsr üslubu, sözartırma, vizual nitq mədəniyyəti, mövqe üslubu, tərtibat üslubu

## §7. Radio

Radio kütləvi informasiya vasitələrinin bir növüdür. Radionu 1884-cü ildə italyan mühəndisi G.Markoni və bir il sonra rus alimi A.S.Popov ixtira etmişlər. O, rabitə, radio, TV verilişləri, radioteleqraf, radiolokasiya və s. məqsədlər üçün havada maqnit dalğalarının ötürülməsi və qəbul edilməsi üsuludur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| radiolokasiya | havada, su və yer üzərindəki obyektləri tapmaq, onların yerini obyektlərin buraxdığı şüalarla müəyyənləşdirmə üsulu |
| ixtira etmək | yeni bir şey yaratmaq, düzəltmək |
| maqnit | bəzi cisimləri özünə tərəf çəkmək, yaxud itələmək xassəsinə malik cisim |
| veriliş | elektrik verilişləri sistemi |
| ötürülmək | 1) yola salınmaq; 2) buraxılmaq; 3) göndərilmək |
| məhdudlaşdırılmaq | müəyyən bir çərçivəyə alınmaq |
| mətbu | çap olunmuş, nəşr edilmiş |
| tiraj | buraxılmış çap nəşrlərinin sayı |
| nəşr | 1) çap edib yayma; 2) çap edilmiş kitab, jurnal |
| maneə | çətinlik |
| təbliğat | bir nəzəriyyəni, ideyanı yayma |
| təşviqat | geniş xalq kütlələrinə təsir göstərmək məqsədi güdən şifahi və ya yazılı fəaliyyət |
| şüalanma | radioaktiv elementlərin şüaburaxma əlaməti |



| | |
|---|---|
| şifahi | yazı ilə deyil, dil ilə |
| siqnal | 1) şərti səs və ya işıq işarəsi; 2) xəbərdarlıq, məlumat |
| tezlik | 1) tez vaxt, az zaman; 2) itilik, sürət |
| diapazon | həcm, əhatə, ölçü |
| təmkin | ciddilik, özünü itirməmə |

***Çalışma 2. Suallara cavab verin.***

1. Radio nədir? 2. Onu kim ixtira edib? 3. Radiodan hansı məqsədlə istifadə olunur?

***Çalışma 3. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

*Kütləvi informasiya* a...tarılması, əldə olunması, hazırla...ması, ötürülm...si, ist...hsalı və yayımı qanunvericiliklə məhdu...laşdırılmayan, ümumi istifad... üçün nəzərdə tutulmuş mətbu, audio, audioviz...al (AV) x...bər və di...ər məlumatlar...ır. *Kütləvi informasiya vasitələri* (KİV) qəz...t, jurnal, sənədli kino, radio və televiziyadan ibarət sist...mdir. Bütün bunlar g...niş o...ucu, dinləyici və tamaşaçı üçün nəzərdə tutulduğuna görə KİV adını almış...ır.

***Çalışma 4. Mənsubiyyət şəkilçilərini tapın.***

*Radio mərkəzi* radio rabitəsi və radio verilişləri üçün texniki vasitələr və tikililər kompleksidir. Təyinatına görə qəbuledici, verici və qəbuledici-verici radio mərkəzləri var. Radio maneələrini azaltmaq üçün qəbuledici və verici radio mərkəzləri bir-birindən və sənaye müəssisələrindən uzaqda yerləşdirilir.

*Çalışma 5. Dodaq ahənginin pozulduğu sözləri tapın.*

Geniş dinləyici kütləsi üçün nəzərdə tutulan operativ informasiya və kütləvi təbliğat, təşviqat vasitələrindən biri *radio verilişləri* adlanır. İctimai-siyasi, informasiya, bədii-publisistika radio verilişlərinin əsas istiqamətləri, məlumat - radio buraxılışı, radioqəzet, radiojurnal isə kütləvi formalarıdır.

***Çalışma 6. İsmi xəbərləri tapın, hansı sözlərdən düzəldiyini izah edin.***

1. *Radiojurnal* məzmunca bir-biri ilə bağlı olmayan ayrı-ayrı süjetlərin (söhbətlərin) məcmusundan ibarət radio verilişidir. 2. *Radioqəzet* efirə verilən xəbərlər toplusudur. 3. *Radiokanal* radioötürücü, radiorabitə xətləri və radioqəbuledicidən ibarət rabitə kanalıdır. 4. *Radioqəbuledici* radio siqnallarını və ya təbii radioşüalanmaları qəbul edən antenalı qurğudur. 5. *Radiostansiya* radio dalğaları vasitəsilə informasiyanın verilməsi və ya qəbulu üçün qurğular kompleksidir.

*Çalışma 7. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.*

1. *Radio dili* radionun malik olduğu ifadə ... (söz, səs effektləri, musiqi) məcmusudur. O, müasir (şifahi) ... dilin özünəməxsus fonetik, leksik, sintaktik xüsusiyyətləri olan, yalnız kütləvi kommunikasiyanın bu ... xas olan dildir. 2. Müxtəlif vasitələrin köməyi ilə ... ötürülməsi və qəbulu *rabitə* adlanır. 3. *Radio rabitəsi* ... radio şüalandırılması və qəbulu vasitəsilə həyata keçirilən rabitədir. 4. *Rabitə kanalı* informasiyanı ötürmək üçün ... qurğular yığımıdır. 5. Səs ... qəbulediciyə kabellə deyil, yüksək



tezlikli diapazondan dalğalarla göndərən mikrofona *radiomikrofon* deyilir.

**Sözlər:** *ədəbi, siqnalını, dalğalarının, vasitələrinin, xüsusi, informasiyanın*

***Çalışma 8. Mötərizədə qara hərflərlə verilmiş sözləri lazım olan formada yazın.***

*Radio sənəti* radionun texniki (**vasitələr**) inkişafı ilə əlaqədar yaranmış dram sənəti növüdür. Radio sənətində (**aktyor**) danışıq (**səs**) və müxtəlif səs (**çalarlar**) (həyatdakı real səslər, xüsusi cihazların və elektron aparatlarının köməyi ilə yaradılan süni səslər, müxtəlif akustik effektlər, pauzalar) mühüm əhəmiyyət kəsb edir. Burada aktyordan yumşaq, təmkinli, dərin psixoloji səs (**oyun**) tələb olunur.

***Çalışma 9. Terminləri öyrənin.***

radio dili, rabitə, radio rabitəsi, radiostansiya, rabitə kanalı, radiomikrofon, radio sənəti, radiostansiya, radioqəbuledici, radiojurnal, radioqəzet, radiokanal, radio verilişləri, kütləvi informasiya, kütləvi informasiya vasitələri

## §8. Televiziya

Təsvirin elektrik və ya radiorabitə vasitəsilə uzaq məsafəyə verilməsi **televiziya** (TV) adlanır. Televiziya elm, texnika və mədəniyyət sahəsidir. Televiziya informasiyanın (siyasi, mədəni, elmi, tədris və s.) yayılmasında ən kütləvi vasitələrdəndir. Televiziya həmçinin elmi idarəetmədə, texnikada, təbabətdə, istehsalatda, kosmosda və s. geniş tətbiq olunur. O kinoteatr, estrada və s. xüsusiyyətlərini özündə birləşdirir, ədəbiyyat və musiqi ilə sıx bağlıdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| rabitə | bağlılıq |
| məsafə | iki yer, iki nöqtə arasındakı uzaqlıq |
| elektron | maddənin mənfi elektrik yükü olan ən kiçik zərrəciyi; alüminiumla maqnitin ərintisi |
| qurğu | texniki avadanlıq |
| veriliş | elektrik verilişi sistemləri |
| ardıcıl | arası kəsilmədən, bir-birinin ardınca |
| kütləvi | çox adamın iştirakı olan; kütləyə xas olan; kütlə üçün |
| vasitə | üsul, yol |
| idarəetmə | idarəçilik, rəhbərlik |
| təbabət | tibb |
| istehsalat | 1) sənaye müəssisəsi, fabrik, zavod, 2) istehsal olunan şeylər, məhsullar |
| kompozisiya | 1) ədəbiyyat və incəsənət əsərlərinin quruluşu; onların hissələri arasında qarşılıqlı əlaqə; 2) musiqi əsəri |



| | |
|---|---|
| avtomatik | 1) öz-özünə işləyən; 2) qeyri-iradi |
| diapazon | həcm, əhatə, ölçü |
| tezlik | 1) tez vaxt, az zaman; 2) hərəkətin tez-tez olma dərəcəsini bildirən kəmiyyət, itilik, sürət |
| zolaq | bir endə olan uzun xətt |
| stasionar | 1) daim, həmişə bir yerdə olan idarə, müəssisə; 2) sabit, hərəkətsiz |
| avadanlıq | ev şeyləri |

***Çalışma 2. Suallara cavab verin.***

1. Televiziya nədir? 2. Televiziya harada tətbiq olunur? 3. Televiziya necə sənət növüdür?

***Çalışma 3. İsmi xəbərləri tapın.***

1. *Telealmanax* müxtəlif müəlliflərin ən yeni bədii əsərlərinin toplusundan ibarət olan ekran əsəridir. 2. *Telefilm* TV-də istehsal edilən müxtəlif janrlı və kompozisiyalı filmlərdir. 3. *Telekommunikasiya* hər hansı siqnalın, səsin və təsvirin ötürülməsi və qəbul edilməsi, ən müasir informasiya, ünsiyyət və rabitə vasitələri sistemidir. 4. *Teleradio verilişləri* teleradio yayımı üçün hazırlanan, informasiya proqramlar toplusudur. 5. *Telenovella* Latın Amerikası ölkələrinin populyar proqramları üçün səciyyəvi olan və ABŞ-dakı «sabun opera»sına bənzər janrdır.

***Çalışma 4. Mötərizədəki sözləri lazım olan formada yazın.***

1. *Teleşoppinq* teleelektron reklam (elanlar) və xidmətlərinin köməyi ilə (mallar) seçilməsi, sifarişi və alınmasıdır. 2. *Teletayp* yazı (makina) tipli klaviaturası olan və mənbədən ötürülən mətni avtomatik çap edən teleqraf

aparatıdır. 3. Metrlik və desimetrlik dalğalar diapazonunda müəyyən edilmiş tezliklər (zolaq) *televiziya kanalı* adlanır.

***Çalışma 5. Nöqtələrin yerinə lazım olan sözləri qoyun.***

*Televiziya antenası* təsvir və onu müşayiət edən səsin, eləcə də radiosiqnalların verilməsi (verici) və qəbulu (qəbuledici) ... qurğudur. O, metrlik və desimetrlik diapazonlarda ... Televiziya antenasının ötürücü və qəbuledici (fərdi və kollektiv) kimi ... mövcuddur.

**Sözlər:** *növləri, üçün, istifadə olunur*

***Çalışma 6. Samit ahəngi olan sözləri tapın.***

*Televizor* – televiziya verilişləri proqramlarının təsvir və səs müşayiət siqnallarını eyni zamanda qəbul edən, gücləndirən, yenidən təsvirə və səsə çevirən radioqəbuledicidir. Siqnallar TV antenası ilə televizorun girişinə verilir. Televizorlar ağ-qara və rəngli, stasionar və daşınan olur.

***Çalışma 7. Saitlərin yanaşı işləndiyi sözləri tapın. Tələffüzə diqqət edin.***

*Televiziya qülləsi,* yuxarı hissəsində TV, radio verilişi, radioteleqraf və radiorele rabitəsi antenaları yerləşdirilən şaquli qurğudur. Qüllə metal, dəmir-beton, yaxud qarışıq materialdan ibarət olur. Bütün kommunikasiyalar, habelə elektron avadanlığı televiziya qülləsinin daxilində yerləşir. Televiziya qülləsi nə qədər hündürdürsə, onun proqramları qəbuletmə radiusu bir o qədər genişdir.



***Çalışma 8. Terminləri öyrənin.***

televiziya, veriliş, televiziya antenası, televizor, televiziya qülləsi, telealmanax, telefilm, telekommunikasiya, teleradio verilişləri, telenovella, teleşoppinq, teletayp, televiziya kanalı

## §9. Televiziyanın növləri

**Televiziyanın növləri** TV-nin əmlaka, maliyyələşmə formasına, yayım üsuluna və yayımın əhatə dairəsinə görə təsnifatıdır. Mülkiyyət forması və maliyyələşmə üsuluna görə TV-nin dövlət, bələdiyyə, kommersiya (özəl) və ictimai kimi növləri mövcuddur: 1) **dövlət TV-si** – dövlətin mülkiyyətində olan, büdcədən maliyyələşən telequrum; 2) **bələdiyyə TV-si** – yerli bələdiyyələrin pulu ilə maliyyələşən qurum; 3) **ictimai TV** – tamaşaçıların abonent ödənişi, ictimai təşkilatların fondu, müəssisələrin və ayrı-ayrı şəxslərin könüllü ianəsi, səhmdarların payı, qismən dövlət büdcəsi hesabına maliyyələşən TV; 4) **kommersiya TV-si** təsisçinin vəsaiti və reklam hesabına öz xərclərini ödəyən telekanal. Yayım (translyasiya) üsuluna görə TV-nin efir, kabel, peyk yayımı kimi növləri vardır. Fəaliyyət növünə görə isə TV-ləri yayım və istehsal (prodüser, distribütor) kimi təsnif etmək olar.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| əmlak | mülklər, var-dövlət |
| maliyyələşmə | pulla təmin edilmə |
| yayım | 1) yaymaq işi; 2) səsin uzaq məsafələrə verilməsi; 3) bu üsulla verilən konsert, iclas və s. translyasiya |
| əhatə | dövrələnmə, hər tərəfi tutma |
| təsnifat | şeylərin və ya anlayışların ümumi əlamətə görə siniflərə, qruplara bölünməsi |
| mülkiyyət | 1) birisinə məxsus əmlak, şey; 2) yiyəlik, sahiblik |



| | |
|---|---|
| bələdiyyə | şəhər idarəsi |
| büdcə | dövlətin, onun idarə və müəssisələrinin illik gəlir və çıxar cədvəli |
| tamaşaçı | 1) teatr, kino, sirk və s. tamaşaya, yaxud televiziya verilişlərinə baxan adam; 2) seyrçi |
| abonent | abonementdən istifadə hüququ olan şəxs |
| könüllü | məcburi olmayan, öz istəyi ilə |
| ianə | xeyriyyə məqsədilə verilən və toplanılan pul |
| səhmdar | ticarət, sənaye və s. müəssisələrdə payı olan şəxs |
| pay | 1) bir şeyin bölündüyü hissələrdən hər biri; 2) hədiyyə |
| təsisçi | əsasını qoyan adam |
| vəsait | vasitələr |
| xərc | işlənən, sərf olunan pul |
| translyasiya | səs, musiqi, təsvir və s. radio, televiziya və ya məftil vasitəsilə uzaqlara verilməsi |
| efir | hava, səma, göy |
| kabel | elektrik enerjisini, səs siqnallarını nəql etmək üçün məftil |
| prodüser | filmlərin quruluşunu verən, kinostudiya rəhbəri |
| distribütor | bölüşdürən, paylayan |
| parabolik | parabola şəklində olan |
| xəbərləmə | xəbər vermə |
| maarifçilik | savad, bilik, mədəniyyəti yayma |

***2. Suallara cavab verin.***

1. Televiziyanın növləri dedikdə nə başa düşürsünüz? 2. Televiziyanın hansı növləri var? 3. Yayım üsuluna görə TV-nin növləri hansılardır? 4. Fəaliyyət növünə görə TV-lər necə təsnif edilir?

***Çalışma 3. k samitinin tələffüzünə diqqət edin.***

*Kabel televiziyası* (KTV) proqramı, informasiyanı mərkəzi stansiyadan fərdi abonentlərə kabel vasitəsilə çatdıran TV sistemidir. KTV efir TV-sindən abunəçilərin fərdi tələblərini ödəmək baxımından fərqlənir. KTV-də istənilən yayım stansiyası (o cümlədən peyk vasitəsilə yayımlanan), qəbuledici stansiya və kabel-televizoru iştirak edir.

***Çalışma 4. Vurğu düşən hecaları göstərin.***

TV siqnalının Yerin süni peyki vasitəsilə ötürülməsi və qəbul olunması sisteminə *peyk televiziyası* deyilir. *Peyk televiziya yayımı* TV proqramlarının peyk vasitəsilə yayımlanmasıdır. Bu proses üç fərqli şəkildə özünü göstərir: 1) CATV – peykdən gələn siqnal böyük çanaq antenası tərəfindən alınaraq kabel ilə evlərə ötürülür; 2) SMATV – iri peyk antenası ilə bir binanın mənzillərinə və ya bir neçə evli məhəlləyə paylanır; 3) DBS – peyk yayımı evlərdəki müstəqil parabolik antenalar vasitəsilə alınır.

***Çalışma 5. Nöqtələrin yerinə uyğun gələn şəkilçiləri qoyun.***

*Televiziya qəbuledicisi* təsviri səs müşayiəti ilə göstərən universal qurğu.... Metrlik və desimetrlik diapazon...da rəngli və ağ-qara verilişlər... qəbul...nu təmin edir. Televiziya qəbuledicisi müxtəlif mənbələr... gələn videosiqnallar... qəbul etmək xüsusiyyəti... malikdir.

***Çalışma 6. Azərbaycan dilinin fonetik xüsusiyyətlərinə uyğun gəlməyən sözləri tapın.***

*Televiziya verilişləri* TV yayımı üçün hazırlanan məlumat və digər materiallar toplusudur. Bu verilişlər kütləvi xəbərləşmə, maarifçilik, əyləndirmə vasitələrindən biridir. Televiziya verilişləri ictimai rəyin formalaşmasına təsir göstərən vasitə kimi də nəzərdən keçirilir.

***Çalışma 7. Yiyəlik hal şəkilçili sözləri göstərin.***

*İnteraktiv televiziya* əlavə TV xidmət sistemidir. Bu, abonentin tələbi ilə mətnli, qrafik və digər informasiyaların yayımıdır. Bu cür verilişlər abonentin ev televizorunun, yaxud displeyinin ekranına çıxarılır. Belə qarşılıqlı əlaqə telefon və ya xüsusi kabel xətləri ilə həyata keçirilir. Abonentlər hətta evdən çıxmadan belə, istədikləri ərzağı mağazadan ala, seçki kampaniyalarında iştirak edə bilirlər. İnteraktiv televiziya sistemlərinə «Kyub» (ABŞ), «Vyudevta» (Böyük Britaniya), «Telidon» (Kanada) kimi TV nümunələrni göstərmək olar.

***Çalışma 7. Terminləri öyrənin.***

televiziya, dövlət TV-si, bələdiyyə TV-si, ictimai TV, kommersiya TV-si, efir TV-si, kabel TV-si, peyk TV-si, televiziya qəbuledicisi, televiziya verilişləri, interaktiv televiziya

## §10. Televiziyanın növləri (davamı)

***Çalışma 1. İsmi xəbərləri tapın və izah edin.***

*Kassa televiziyası,* zövqünə görə müştəriləri idman, kino, teatr, musiqi və s. proqramlarla təmin edən pullu TV yayımıdır. Bu termin teatr və kino sahəsində həm də kassa uğuru, çoxlu pul toplanması mənasına malikdir. Kassa televiziyası telebiznesə və abunə proqramlarında iştiraka cəlb edilən təşkilatlara sərfəlidir.

***Çalışma 2. Qara hərflərlə verilmiş sözlərin mənasını izah edin.***

*Holoqrafik televiziya* holoqram vasitəsilə **canlandırılan təsvirin daha** dolğun və tutumlu **əks etdirilməsinə** imkan verən ən perspektivli istiqamətlərdən biridir. Holoqrafik televiziya holoqramla canlandırılan təsvir obyektinin optik analoqudur. Bu, həmin təsvirin **müxtəlif** istiqamətlərdən görüntü effektinin daha **mükəmməl** alınmasına imkan verir.

***Çalışma 3. Səhvləri düzəldin.***

*Özəl televiziya* qeyri-dövlət TV kurumudur. Onun əsas məksədi müxtelif mövzularda verilişler hazırlayıp efire verməy, auditoriya toplamağ, reklam cəlp etməy, pul qazanmaxdır. Özəl televiziyanı hükuqi və ya fiziki şəxsdər təsis edir. Bəzi ölkelərdə özəl televiziya iştimayi TV-nin də funksiyasını yerinə yetirir.



***Çalışma 4. Cingiltili samitlərin altından bir, kar samitlərin altından iki xətt çəkin.***

*Partizan televiziyası* şəbəkə və kabel TV-lərinə münasibətdə alternativ statuslu və videokasetlə işləyən stansiyanın məcazi adıdır. Bəzi mütəxəssislərin fikrincə, partizan televiziyası genişmiqyaslı telesistemlərin mərkəzdən səpələnməsinə və məişət videosuna keçməyə kömək edir.

***Çalışma 5. Söz birləşmələrini seçin.***

*Sərhədsiz televiziya* TV verilişlərinin beynəlxalq müqavilələr (razılaşmalar) əsasında başqa ölkənin (ölkələrin) ərazisində yayımlanmasıdır. 1988-ci ilin əvvəlində Avropa parlamentinin hazırladığı və ümumi bazarın iştirakçısı olan bütün ölkələrə teleproqramlardan istifadə etməyə imkan verən proqramdır. Sərhədsiz televiziya sistemində yalnız ABŞ-dan proqramların idxalı məhdudlaşdırılır.

***Çalışma 6. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.***

*Stereoskop*[l] *televiziya* tamaşaçıda ... müşahidəsi zamanı dərinlik və geniş həcm təəssüratı yaradan TV sistemləridir. Bu televiziyada ... bir obyektin təsviri bir-birindən ... məsafədə yerləşmiş iki mövqedən verilir. Nəticədə ... stereocütünü təşkil edən iki təsvir alınır. Qəbul zamanı ... stereocütün təsvirləri gözlərə ayrı-ayrılıqda (sol gözə sol təsvir, sağ gözə sağ təsvir) təsir edir.

**Sözlər:** *obyektin, eyni, təsvirlərin, tamaşaçıya, müəyyən*

***Çalışma 7. Coğrafi anlayış bildirən sözləri seçin.***

*Sualtı televiziya* müxtəlif dəniz-okean tədqiqatları zamanı tətbiq olunan TV sistemidir. Bu cür tədqiqatlara batan gəmilərin və müxtəlif əşyaların axtarışı, sahil ərazilərində dəniz dibi şelfinin çəkilişi, sualtı flora və faunanın öyrənilməsi, tikilən və istismarda olan sualtı qurğulara nəzarət və s. daxildir.

***Çalışma 8. Yerlik halda olan sözləri tapın.***

Müasir TV texnikası iki əsas istiqamətdə inkişaf edir. Bunlardan biri yayım TV-si, ikincisi isə *tətbiqi TV* adlanır. Tətbiqi televiziya dedikdə, xalq təsərrüfatında, idarəetmə sistemində, elmi tədqiqatlarda, kosmik rabitədə, hərbi işlərdə və s. istifadə olunan TV üsulları və vasitələri məcmusu başa düşülür.

***Çalışma 9. Qoşasamitli sözləri tapın.***

*1. Keyfiyyət televiziyası* ciddi, dərrakəli tamaşaçı üçün nəzərdə tutulan, son dərəcə dəqiq jurnalistikanın növlərindən biridir. *2. Proyeksiya televiziyası* təsviri geniş ekranda əks etdirən TV formasıdır. 3. Şəbəkəyə daxil olmayan, məsələn, müəssisələrdə ixtisaslaşdırılmış, yaxud təhsil müəssisələrində təhsil yönümlü müstəqil yerli TV *şəbəkədənkənar televiziya* adlanır.

***Çalışma 10. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| həyata keçirilmək | yerinə yetirilmək, tətbiq edilmək |
| abonent | abunəçi, abunə yazılan adam |
| nümunə | örnək, model, çeşid, misal |
| abunə | abonement haqqını ödəməklə kütləvi informasiya vasitələrinə əvvəlcədən yazılma |



| | |
|---|---|
| sərfəli | xeyirli, faydalı, əlverişli |
| dolğun | 1) dolmuş, şişmiş; 2) dolu; 3) gur, qüvvətli, güclü; 4) yetişmiş; 5) mənalı, zəngin məzmunlu, dərin; 6) tam, çox; 7) kövrəlmiş |
| tutumlu | müəyyən miqdarda şey tuta bilən; həcmli |
| hüquqi şəxs | idarə, müəssisə və ya təşkilat |
| fiziki şəxs | fərdi vətəndaş |
| təsis etmək | əsasını, təməlini qoymaq, yaratmaq |
| şəbəkə | 1) tor, hörgü, ornament; 2) yolların, rabitə xətlərinin, kanalların, oxşar idarə və müəssisələrin və s. məcmusu |
| səpələnmək | 1) dağılmaq, ora-bura tökülmək; 2) çilənmək |
| təəssürat yaratmaq | əşya və hadisələrin insan şüurunda iz buraxması, ona təsir etməsi |
| tətbiq olunmaq | həyata keçirilmək, işlədilmək |
| şelf | materikin (qurunun) su altında 200 metrə qədər dərinlikdə olan hissəsi |
| xalq təsərrüfatı | istehsala xidmət edən, istehsalı təşkil edən, onun üçün olan hər şey |
| dərrakəli | ağıllı, düşüncəli |
| ixtisaslaşdırılmış | yalnız müəyyən sahəyə xidmət etmək üçün uyğunlaşdırılmış, hazırlanmış, düzəldilmiş |
| yönüm | istiqamət |

***Çalışma 11. Terminləri öyrənin.***

kassa televiziyası, holoqrafik televiziya, özəl televiziya, partizan televiziyası, sərhədsiz televiziya, stereoskopik televiziya, sualtı televiziya, tətbiqi televiziya, keyfiyyət televiziyası, proyeksiya televiziyası, şəbəkədənkənar televiziya

## §11. İctimai televiziya

İctimai televiziya müstəqil TV-dir. Onun verilişlərində bütün cəmiyyətin və sosial təbəqələrin mənafeyi, mövcud fikir və əqidə plüralizmi əks olunur. Onun yayımı ölkənin bütün ərazisinə yayılır. İctimai televiziya universallıq, obyektivlik və qərəzsizlik prinsiplərinə əsaslanır, heç kəsdən, heç bir siyasi qüvvədən və heç bir maliyyə qurumundan asılı deyil. Demokratik idarəetmə üsuluna malik İctimai televiziya tamaşaçılardan yığılan abonent pulu hesabına maliyyələşir. Lakin dövlət büdcəsi, yaxud qarışıq maliyyə sistemi ilə işləyən ictimai televiziyalar da mövcuddur. İctimai televiziya xalqı maarifləndirən, cəmiyyətdə demokratiyanı inkişaf etdirən mühüm təsisat hesab olunur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| mənafe | 1) fayda, xeyir; 2) birinin xeyrinə olan şey |
| əqidə | 1) etiqad, məslək; 2) fikir |
| plüralizm | müxtəlif rəylərin, fikirlərin mövcudluğu |
| əks olunmaq | göstərilmək |
| yayım | 1) yaymaq işi;2) səsin tel və ya radio ilə uzaq məsafələrə verilməsi; 3) bu üsulla verilən konsert və s.-nin translyasiyası |
| universallıq | hərtərəfli məlumatı olma |
| qərəzsizlik | pis fikir olmama |
| əsaslanmaq | bir şeyi əsas götürmək |
| idarəetmə | rəhbərlik, başçılıq |
| tamaşaçı | 1) teatr, kino, sirk və s. baxan adam; 2) bir işə kənardan baxan |



| | |
|---|---|
| abonent | abonementdən istifadə hüququ olan şəxs |
| maliyyələşmək | pulla təmin olunmaq |
| büdcə | dövlətin, idarə və müəssisələrin illik gəlir və çıxar cədvəli |
| maarifləndirmək | elm, bilik vermək |
| təsisat | yaradılmış müəssisələr, idarələr; ictimai idarə |
| hesab olunmaq | sayılmaq, bilinmək |
| cərəyan etmək | 1) keçmək, axmaq, hərəkət etmək; 2) baş vermək, olmaq |
| kollektiv | ümumi məqsəd və ya iş üçün birləşmiş adamlar toplusu |
| kəsb etmək | 1) çalışıb qazanmaq; 2) öyrənmək, qazanmaq |
| müzakirə | əsər, məruzə, iş və s. barədə fikir mübadiləsi |
| auditoriya | 1) mühazirə, məruzə dinləmək, iclas keçirmək üçün zal, otaq; 2) mühazirə, məruzə, nitq və s. dinləyənlər |
| qismən | bir qədər, bir az |
| rəy | bir şey haqqında fikir; bir əsər, tamaşa və s. haqqında yazı |
| tövsiyə | məsləhət, tapşırıq |
| tələb | 1) bir şeyi istəmək; 2) ınadlı xahiş, arzu, istək; 3) norma |
| sorğu | sual, sual etmək, verilən sual |
| səmərə | fayda, xeyir |
| strategiya | 1) müharibə planı; 2) ictimai mübarizəyə rəhbərlik etmə |
| istehlakçı | alıcı |

***Çalışma 2. Suallara cavab verin.***

1. İctimai televiziya nə deməkdir? 2. O, hansı prinsiplərə əsaslanır? 3. Bu televiziya necə maliyyələşir? 4. Onun əhəmiyyəti nədir?

***Çalışma 3. «İctimai» sözünün mənasını öyrənin.***

*İctimai* – insan cəmiyyətinə aid olan; cəmiyyətdə insanların həyat və münasibəti ilə bağlı olan, cəmiyyətdə cərəyan edən, törəyən, cəmiyyətin həyatına aid olan; hamıya, bütün cəmiyyətə məxsus olan; kollektiv, ümumi.

***Çalışma 4. Qara hərflərlə verilmiş sözləri izah edin.***

*İctimai jurnalistika* ölkə **vətəndaşları** ilə birlikdə cəmiyyət üçün mühüm **əhəmiyyət** kəsb edən problemlərin **aşkarlanması** və bu problemlərin həlli yollarını birgə axtarıb tapmaqdır. Bu **məqsədlə** qəzet, radiostansiya və TV kanalları **müzakirələr** və **təkliflər** üçün geniş meydan açır.

***Çalışma 5. Səhvləri düzəldin.***

1. *İctimai baxış* hər hansı ekran əsərinə kütlevi, ,əni mütəxəssisdərin, ictimaiyyət nümayəndəlerinin işdirakı ilə baxıştır. 2. *İctimai yayım* hər cəhəttən müstəkil, özünün dəgiq prinsipləri olan, dövlətin də qismen maliyyələşdirdiyi, ancak fəaliyyətinə və verilişdərinin məzmununa heç cür qarışmadığı yayım növüdür. 3. *Kütləvi kommunikasiya* sosial əhəmiyyəti olan informasiyanın texniki vasitələrin (mətbuat, TV, radio, kino) köməyi ilə çoxsaylı auditoriyaya çattırılması prasesidir.



***Çalışma 6. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.***

*İctimai rəydə* insanların ... hadisələrinə, partiyaların fəaliyyətinə münasibəti əksini tapır. İctimai rəy tövsiyə və tələblər ... ifadə olunur, ayrıca adamın və qrupun ... bəyənmək şəklində təzahür edir. TV-də və KİV-in ... sahələrində seçki kampaniyaları ərəfəsində təbliğat üsulu kimi istifadə edilir.

**Sözlər:** *formasında, başqa, həyat, davranışını*

***Çalışma 7. Mənsubiyyət şəkilçilərini göstərin.***

*İctimai rəy sorğusu* radio və TV-nin auditoriyaya təsirinin məzmunu və nəticələridir. Sorğuların köməyi ilə təhlillər aparılır, seçki kampaniyalarında və digər ictimai məqsədlərə görə KİV-dən istifadə etməklə elektron-informasiya biznesinin səmərəsinin artırılması taktikası və strategiyası işlənib hazırlanır.

***Çalışma 8. Mürəkkəb sözləri tapın.***

KİV kanalları ilə yayılan informasiyanın bütün istehlakçıları – qəzet, jurnal, kitab oxucuları, radiodinləyicilər, teletamaşaçılar, diskotekalara gələnlər, musiqi-mahnı əsərlərinin, audiokitabların, eləcə də kompüterlər üçün rəngarəng proqramların, səs və videoyazısı olan valların, disklərin alıcılarına *kütləvi auditoriya* deyilir.

***Çalışma 9. Terminləri öyrənin.***

ictimai televiziya, ictimai jurnalistika, ictimai rəy, ictimai rəy sorğusu, ictimai baxış, ictimai yayım, kütləvi kommunikasiya, kütləvi auditoriya

## §12. Kommersiya televiziyası

Kommersiya televiziyası reklam sifarişçilərinə TV vaxtının satılmasından əldə olunan gəlir hesabına maliyyələşən özəl TV sistemidir. Kommersiya prinsipi ilə işləyir. Reklam pullu informasiya yayımları vasitəsilə həyata keçirilən qeyri-şəxsi kommunikasiya formasıdır. Müasir dövrdə reklamın əsas vasitələri mətbuat (qəzet, jurnal, afişa, bülleten və s.), radio, TV, kinematoqraf, vitrin, lövhə işıq elanları, əmtəə bağlamaları, əmtəə və firma nişanları və s.-dir. Reklamın son məqsədi bazar və azad rəqabət şəraitində mal və xidmətlərin satışını genişləndirməkdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| kommersiya | alver, ticarət |
| sifarişçi | sifariş verən, iş tapan |
| əldə olunmaq | qazanılmaq |
| gəlir | qazanc |
| lövhə | 1) yazı taxtası; 2) idarə və s. adı yazılan taxta, metal; 3) şəkil, tablo |
| əmtəə | əmək məhsulu, mal |
| rəqabət | eyni məqsədə çatmaq üçün adamlar arasında mübarizə |
| mal | 1) iribuynuzlu ev heyvanı; 2) var-dövlət, sərvət |
| fəaliyyət göstərmək | işləmək |
| maraq | bir şeyə diqqət, həvəs, arzu |
| prizma | həndəsi cisim |
| çıxış etmək | iclas və s.-də durub danışmaq, nitq söyləmək, yarışlarda iştirak, ifa etmə, öz tələbini bildirmə |



| | |
|---|---|
| ödəmək | 1) qaytarmaq, vermək; 2) çatmaq, bəs etmək; 3) yerinə yetirmək |
| yönəltmək | istiqamət vermək, göstərmək |
| məşhurlaşdırmaq | məşhur etmək, tanıtmaq |
| nail olmaq | əldə etmək, çatmaq |
| cazibədar | lətafətli, məlahətli |
| çarx | təkər |
| mənimsəmək | 1) bir işi öyrənmək; 2) başqasının malına yiyələnmək; 3) başa düşərək yadda saxlamaq |
| yayıcı | bir şeyi yayan |
| daşınmaz | daşınması mümkün olmayan |

***Çalışma 2. Hal şəkilçilərini tapın.***

*Kommersiya KİV-i* kommersiya məqsədilə fəaliyyət göstərən qəzet, jurnal, radio və TV-dir. Kommersiya tipi bu informasiya vasitələrinin müstəqil olmasına, yalnız ictimai maraq prizmasından çıxış etməsinə şərait yaradır. Lakin dövlət və ictimai KİV-dən fərqli olaraq kommersiya KİV-də ictimai maraq doğuran məsələlərə, o cümlədən maarifçilik elementlərinə az yer verilir.

***Çalışma 3. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

*Kommersiya informasiyası, «kommerşl»* sifariş...inin pulunu ödədi...i və radioda, ya...ud TV-də mahnımusi...i mətnləri ilə hazırlanmış parla... anonslar formasında translyasi...a olunan reklamdır. Bunlar auditoriyanın diq...ətini məhsullara, formalara, xidm...t sahəl...rinə yönəldir.

*Çalışma 4. Söz birləşmələrini tapın.*

*Reklam* alıcıları cəlb etmək üçün hər hansı bir mal haqqında mətbuat, TVR ilə geniş kütləyə xəbər vermə, malların məşhurlaşdırılmasıdır. Uğurlu satışa nail olmaq üçün məhsullar və xidmətlər haqqında cazibədar informasiyadır. Mətbuat, TV və radio üçün reklam maliyyə köməyi, ticarət-iqtisadi və ictimai həyatın digər sahələri ilə daxili əlaqələrdir. Reklam kütləvi auditoriyanın psixologiyasının, düşüncəsinin, həyat tərzinin formalaşmasına yardım edir.

***Çalışma 5. k samitinin tələffüzünə diqqət edin.***

1. *Reklam çarxı* dəfələrlə ekranda nümayiş etdirilmək üçün nəzərdə tutulan, ayrıca kasetə yazılan reklam, yaxud reklamlar blokudur. 2. *Reklam etmək* bir şeyi, yaxud bir şəxsi çox tərifləməkdir. 3. *Reklam kampaniyası* mal və xidmətlər bazarı yaratmaq, bazarı genişləndirmək məqsədilə qabaqcadan düşünülmüş reklam aksiyalarıdır.

***Çalışma 6. Yiyəlik hal şəkilçilərini göstərin.***

*Reklam fasiləsi* radio və TV verilişlərini kəsən, auditoriyanın diqqətini kommersiya informasiyasına cəlb edən qısa müddətdir. Lakin filmlərin, konsertlərin, oyunların və digər janrların tam mənimsənilməsinin pozulması reklam fasilələrinə və reklam yayıcılarının fəaliyyətinə mənfi münasibət yaradır.

***Çalışma 7. Sözləri hecalara ayırın.***

Daşınmaz əmlakın və malların alınıb-satılması, göndərilməsi, həmçinin müəyyən xidmətlərin efir vasitəsilə



təklif olunmasını əks etdirən vizual elan formasına *telebirja* deyilir. Telebirja teleticarətin bir formasıdır.

***Çalışma 8. Terminləri öyrənin.***

kommersiya televiziyası, kommersiya KİV-i, kommersiya informasiyası, kommerşl, reklam, reklam çarxı, reklam kampaniyası, reklam fasiləsi, telebirja

## §13. Kommersiya televiziyası (davamı)

***Çalışma 1. Altından xətt çəkilmiş şəkilçiləri təyin edin.***

Reklam anonslarını müşayiət edən və təkrarlanan qısa musiqi çağırışı *cinql* adlanır. Radiostansiyaların çağırışlarını da cinql adlandırırlar. «Antikommerşl» tipli *antireklam* insanların sağlamlığı üçün təhlükəli olan malları (tütün məmulatı, alkoqollu içkilər və s.) tərifləyən reklama qarşı yönələn və ictimaiyyətin diqqətini cəlb edən informasiyadır.

***Çalışma 2. İsmi xəbərləri tapın və izah edin.***

*Ekoloji reklam* – reklamda yeni istiqamətdir. Bu, təbiətin və ətraf mühitin mühafizəsi çağırışına xidmət edən sosial reklamdır. *Gizli reklam* – reklam məqsədi güdən görüntülər, subtitr, süjet və s.-dir. *Dekada* – reklam tədbirlərinin təşkili üçün geniş istifadə olunan formalardan biridir.

***Çalışma 3. Qara hərflərlə verilmiş sözləri kök və şəkilçiyə ayırın.***

*Müştərək reklam* məhsulun imicini **yüksəltməyə** xidmət edir. Bu cür reklamı istehsalçı şirkət və **satış** üzrə (diler), yaxud eyni məhsulun istehsalı və satışı ilə məşğul olan bir neçə şirkət birlikdə **maliyyələşdirir**. **İstehsalçının** nüfuzunu yüksəldən reklama isə *prestij reklamı* deyilir.



***Çalışma 4. Nöqtələrin yerinə bu sözləri qoyun: tez-tez, populyar, qısa.***

*Videorolik* ... reklam filmidir. Videoroliklər çoxlu sayda ... dəyişən ritmtik kadrlardan ibarət olur. Onlar əksər hallarda ... TV verilişlərinə daxil edilir.

***Çalışma 5. Rəqəmləri sözlə yazın.***

*Reklam vaxtı* reklam məlumatı üçün ayrılan vaxtdır. TV-nin xarakterindən (kommersiya, dövlət, ictimai) asılı olaraq reklam vaxtı müxtəlif ölçüdə olur. Məsələn, Qərbin bəzi teleşəbəkələri reklama hər saat ərzində 6 dəqiqə (filmlərin nümayişi zamanı saatda 7 dəq.) vaxt ayırır. Gündüz saatlarında isə reklama 12 dəqiqə ayrılır. Yerli telestansiyalar reklam üçün axşam proqramlarında saatda 12, gündüz proqramlarında isə saatda 18 dəqiqə vaxt ayıra bilər.

***Çalışma 6. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| anons | qabaqcadan verilən elan, afişa |
| müşayiət edən | yanınca gedən, ötürən, qoruyan |
| çağırış | çağırma, səsləmə, müraciət |
| tərifləyən | tərif edən, mədh edən |
| yönələn | istiqamətlənən, yanaşan |
| cəlb edən | özünə tərəf çəkən, maraqlı |
| ətraf mühit | təbii şərait |
| mühafizə | qoruma |
| məqsəd güdmək | məqsədi olmaq |
| tədbir | 1) üsul, vasitə; 2) hazırlıq |
| müştərək | ümumi, birgə, kollektiv |
| imic | rəmz, simvol |
| xidmət etmək | iş görmək, çalışmaq |
| istehsalçı | istehsal edən, hazırlayan adam |
| maliyyələşdirmək | pulunu ödəmək |

| | |
|---|---|
| nüfuz | hörmət, etibar, təsir |
| ritmik | ritmə tabe olan, ahəngli |
| kadr | kino və ya fotolentdə ayrı-ayrı şəkil |
| əksər | ən çox, lap çox, ümumiyyətlə |
| asılı olaraq | şərtlənərək, tabe olaraq |
| nümayiş | 1) kütləvi yürüş; 2) bir şeyin göstərilməsi |

*Çalışma 7. Terminləri öyrənin.*

cinql, antireklam, ekoloji reklam, dekada, gizli reklam, müştərək reklam, prestij reklamı, videorolik, reklam vaxtı



## §14. Rəqəmli televiziya

Rəqəmli televiziya rəqəmli texnologiya əsasında işləyən sistem, teleavadanlıqdır. Rəqəmli texnologiya ilə yayım aparan şirkətlər bir peyk retranslyatoru kanalında dörd proqramın (hər biri 8 Mbit/san.) rəqəmli kodlaşdırılmasını həyata keçirə bilir. Müasir rəqəmli televiziya sistemləri radioyayım şirkətlərinə bir peyk kanalında 16 proqram yayımlamağa imkan verir.

*Çalışma 1. Sözlərin mənasını öyrənin.*

| | |
|---|---|
| avadanlıq | 1) ev şeyləri; 2) ləvazimat |
| retranslyator | radio və ya televiziya verilişlərini qəbul edib uzaqlara ötürən qurğu |
| imkan vermək | bir işi həyata keçirmək üçün əlverişli şərait yaratmaq, yol vermək |
| sabit | 1) hərəkətsiz, dəyişməyən; 2) möhkəm |
| prosessor | kompüterin əsas hissəsi |
| itki | 1) itirilmiş şey; 2) ölüm; 3) ziyan, zərər |
| yığcam | qısaca; kiçik |
| effekt | 1) nəyinsə nəticəsi; 2) təəssürat |
| sıxışdırma | sıxmaq, incitmək |
| səhifələmə | 1) səhifələri çevirmək; 2) mətni səhifələrə ayırmaq; 3) mətnin səhifələrini sıra ilə nömrələmək |
| albom | 1) rəsm çəkmək üçün dəftər; 2) şəkil, sxemin və s.-nin çap olunmuş toplusu |
| abreviasiya | sözün qısaldılması |
| diapozitiv | proyeksiya fənəri vasitəsilə göstərilmək üçün şüşə və s. üzərinə salınmış şəkil |

| | |
|---|---|
| nəzərdə tutulmaq | fikirdə tutulmaq |
| nəzərə çarpmaq | maraq oyatmaq, diqqəti cəlb etmək |

***Çalışma 2. Qeyri-müəyyən yiyəlik halda olan sözləri tapın.***

Üzərinə səs siqnallarının yazıldığı lent kasetinə *rəqəmli səs lenti* deyilir. Ölçüsünə görə adi audio kasetlərdən kiçikdir. İki DAT formatı vardır. Biri sabit başlıqda (stationary head), digəri isə çevirən başlıqda (rotary head) işləyir. Sabit başlıqda işləyən S-DAT-lar lenti saniyədə 4,75 sm sürətlə çevirir. Yazma başlığı 22 ayrı hissəyə bölünmüşdür.

***Çalışma 3. Mənsubiyyət şəkilçilərini tapın.***

1. Taymerin operativ proqramlaşdırılması üçün tətbiq olunan rəqəmli hesablayıcı qurğuya *rəqəmli skaner* deyilir. 2. *Rəqəmli videoprosessor* videosiqnalın işlənməsinin rəqəmli qurğusudur. 3. *Rəqəmli videoyayım* multimedianın: video, audio və məlumatların rəqəmli ötürülməsinin ümumi beynəlxalq standartıdır.

***Çalışma 4. Açıq sait ahəngi pozulmuş sözləri tapın.***

1. İnformasiya siqnalının yazılış kanalında rəqəmli formaya keçməsi, yaxud informasiyanın bir rəqəmli formadan digərinə keçərək kodlaşması *rəqəmli yazılış* adlanır. 2. *Rəqəmli yayım* rəqəmli siqnalların radio vasitəsilə yayılmasıdır. 3. *Rəqəmli kompressiya* saxlanılan informasiyanın itkisinə yol vermədən məlumatın yığcam rəqəmli formaya keçirilməsi üsuludur.

***Çalışma 5. Nöqtələrin yerinə lazım olan sözləri qoyun.***

*Rəqəmli xüsusi effektlər* xüsusi effekt generatorlarının (XEG) ... yaradılan effektlərdir. XEG sıxışdırma



siqnallarını yaratmaq üçün ... metodlardan istifadə edir. Geniş yayılmış effekt ... arasında «səhifələmə» və s. (məsələn, ekrandakı görüntülər albom vərəqləri kimi səhifələnir, sanki təqvim yarpaqları kimi qopur və s.) effektləri göstərmək ....

**Sözlər:** *rəqəmli, olar, köməyi ilə, fiqurları, xüsusi*

***Çalışma 6. Mötərizədəki sözləri lazım olan formada işlədin.***

*Telefaks* qrafik və mətnli (informasiya) elektron-rabitə xətti ilə verilməsi qaydasıdır. Termin **telephone** və **facsimile** (sözlər) abrevasiyasından əmələ gəlib. Bu gün «faks» termini təkcə (əlaqə) həyata keçirən rabitə xətti və (cihaz) bildirmək üçün deyil, həm də bu rabitə abonentinin (nömrəsi) bildirmək üçün istifadə olunur.

***Çalışma 7. Qara hərflərlə verilmiş sözləri izah edin.***

1. *Rəqəmli diapozitiv* rəqəmli videodiskə yazılmış statistik, **hərəkətsiz** təsvirdir. 2. *Rəqəmli kamera* videosıranın bilavasitə rəqəmli formada yazılışı üçün cihazdır. 3. İşgüzar sənədli **əlaqələr** üçün nəzərdə tutulan abonent **teleqraflaşmasının** beynəlxalq şəbəkəsinə *teleks* deyilir. 4. *Teleqəzet* teleekranda göstərilən qəzet **informasiyasıdır**. 5. *Teleobyektiv* uzaqda olan predmet və **obyektlərin** şəklini **iri** planda çəkmək üçün işlədilən foto və ya kinoaparat obyektləridir.

***Çalışma 8. İsmi xəbərləri tapın.***

1. *Telepromter* xüsusi ekran (tablo) olan telesuflyor qurğusudur. 2. *Telesuflyor* TV-də hər hansı məlumatın, çıxışın mətnini nəzərə çarpmadan oxumaq üçün xüsusi qurğudur. 3. *Teleproqramların cədvəli* verilişlərin proqramdakı yeri, günü, saatı və tematikası haqqında (siyasi, iqtisadi, idman, musiqi,

film və s.) informasiya verən cədvəldir. 4. *Teletekst* yüksək sürətli informasiya sistemidir.

***Çalışma 11. Terminləri öyrənin.***

rəqəmli televiziya, rəqəmli səs lenti, rəqəmli skaner, rəqəmli videoprosessor, rəqəmli videoyayım, rəqəmli yazılış, rəqəmli yayım, rəqəmli kompressiya, rəqəmli xüsusi effektlər, telefaks, rəqəmli diapozitiv, rəqəmli kamera, teleks, teleqəzet, teleobyektiv, telepromter, telesuflyor, teleproqramların cədvəli, teletekst



## §15. Teleradio yayımı

AV proqramların müəyyən məsafəyə ilkin ötürülməsinə **teleradio yayımı** deyilir. Bu proqramlar elektromaqnit dalğaları ilə, açıq və kodlaşdırılmış formada peyk, kabel və ya digər yerüstü texniki qurğularla geniş yayımlanır və istənilən sayda qəbul edilir. Bu anlayışa digər yayımçıların retranslyasiya etdikləri proqramlar da daxildir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| vasitə | üsul, yol, alət |
| çatdırılmaq | 1) göndərilən ünvana, yerə, şəxsə, sahibinə verilmək; bildirilmək, məlumat vermək; 2) gecikdirilməmək, yetişdirə bilmək |
| ötürücü | ötürən, yola salan, müşayiət edən, yanınca gedən |
| tezlik | 1) az zaman, tez; 2) hərəkətin tez-tez olma dərəcəsini bildirən kəmiyyət; sürət |
| zolaq | 1) enli xətt; 2) bir şeyin uzanan hissəsi; zona, sahə |
| keyfiyyət | 1) fərqləndirici xüsusiyyət; 2) dəyərlik, yararlıq dərəcəsi |
| təsvir | 1) şəkil, rəsm; 2) bir adam, şey haqqında danışma |
| ardıcıl | 1) arası kəsilmədən, bir-birinin ardınca; 2) qanunauyğun, məntiqi |
| ifa etmək | 1) yerinə yetirmək; 2) çalmaq, oxumaq, göstərmək |
| hüquqi şəxs | idarə, müəssisə və ya təşkilat |

| | |
|---|---|
| səlahiyyət | ixtiyarı, hüququ olma |
| həyata keçirmək | yerinə yetirmək, tətbiq etmək |
| cədvəl | müəyən qaydada yığılmış hər hansı məlumat və ya rəqəmlər siyahısı |
| düzülüş | düzülmə qaydası; tərtib |
| tənzimlənmə | nizama salınma, qaydaya salınma |
| qapalı | 1) qapanmış, bağlı; 2) örtülü; 3) işlək olmayan; 4) ucları, kənarları birləşdirilmiş; 5) gizli; 6) cəmiyyətdən ayrılmış |
| müəllif | bədii, elmi və s. əsər yazan, tərtib edən adam; layihə yaradan adam |
| vaxtaşırı | müəyyən vaxtlarda, müntəzəm surətdə |
| haqq | 1) doğru, düz, düzgün, həqiqi; 2) hüquq, ixtiyar; 3) görülən iş üçün verilməli pul |
| səciyyə | 1) fərqləndirici xüsusiyyət; xarakter; 2) xasiyyət, təbiət |
| ödəniş | 1) ödənmə; 2) yerinə yetirilmə |
| tələbat | tələb, tələb etmə, tələb olunan şeylər |
| hüdud | 1) sərhəd; 2) hədd, ölçü |
| peyk | planet və ya ulduzun ətrafında fırla an göy cismi |
| mövcud olmaq | var olmaq |
| fərdi | 1) yalnız bir fərdə (şəxsə) aid olan; 2) şəxsi; 3) xüsusi |
| birbaşa | bilavasitə, düz, arası kəsilmədən, durmadan |
| ünvanlı | adlı |
| maarifçilik | maarifi, mədəniyyəti, bilikləri yayma |
| işgüzar | 1) bacarıqlı, işbacaran, işdə təcrübəsi olan; zəhmətsevən; 2) iş üçün faydası olan; ciddi |



***Çalışma 2. Söz birləşmələrini seçin.***

1. *Yayım* müxtəlif məzmunda yayım verilişlərinin təşkili, hazırlanması, geniş dinləyici və tamaşaçı auditoriyasına çatdırılmasıdır. 2. Verilişləri yaymaq üçün TV və radio ötürücüsünün istifadə etdiyi tezlik zolağı *yayım kanalı* adlanır. 3. *Yayım keyfiyyəti* TV yayımlarının keyfiyyətinə dair müəyyən edilmiş standart tələblərə cavab verən təsvirdir. 4. *Yayım proqramı* konkret zaman daxilində ardıcıl ifa edilən yayım verilişləri kompleksidir.

***Çalışma 3. Mənsubiyyət şəkilçilərini göstərin.***

*Yayımçı* xüsusi razılıq (lisenziya) əsasında TV və ya radio yayımını gerçəkləşdirən hüquqi şəxsdir. Onun qanunla müəyyən edilmiş qaydada teleradio proqramları (verilişləri) hazırlamaq və yayımlamaq səlahiyyəti vardır. Yayımçı yayımın üçüncü şəxs vasitəsilə həyata keçirilməsini təmin edir.

***Çalışma 4. Hal şəkilçilərinin altından xətt çəkin.***

*Yayım cədvəli* yayımçının konkret dövr üçün efir siyasətinin əsas istiqamətlərini göstərən cədvəldir. Bu cədvəl proqramların efir vaxtının dü ülüşünü, tənzimlənməsini əks etdirir. Yayım cədvəlində TV və radio verilişlərinin siyahısı, ardıcıllığı, həftələr və günlər üzrə efir vaxtı, həcmi və s. göstərilir. Həmin cədvəl yayım şirkətləri üçün daxili sənəd sayılır və qapalı saxlanılır.

***Çalışma 5. Qalın sait ahəngi olan sözləri tapın.***

1. *Yayım haqqı* radioda və ya TV-də bir musiqi nömrəsinin səsləndirilməsi üçün musiqinin müəllifinə vaxtaşırı ödənilən qonorardır. 2. TV və radio yayımlarına, yaxud

əlavə informasiya yayımına, qanuna əsasən verilən xüsusi razılıq *yayım lisenziyası* adlanır. 3. *Yayım siqnalı* teleradio proqramlarını ötürərkən və qəbul edərkən səciyyəsini dəyişən elektromaqnit dalğasıdır. 4. *Yayımdan istifadə üçün ödəniş* teleproqramların, yaxud filmin efirdə göstərilməsi hüququna görə ödəniş deməkdir.

***Çalışma 6. Qara hərflərlə verilmiş sözləri hallandırın.***

1. TV və **radio** verilişlərinin yayımı ilə məşğul olan teleradio şirkəti *yayım təşkilatı* adlanır. 2. Fərdi qəbul şəraitinin **ərazi** hüdudlarına *yayım zonası* deyilir. 3. *Vasitəli televiziya yayımı* yerüstü antenadan peykə, oradan isə birbaşa tamaşaçıların ev antenasına ötürülən yayım növüdür. 4. *Yayım stansiyası* informasiya tələbatını təmin edən kommunikasiya vasitələri kompleksidir.

***Çalışma 7. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.***

*Yayım şəbəkəsi* yayım proqramlarının ... ərazılərə verilməsi üçün istifadə edilən ... vasitələrdən ibarət şəbəkədir. Yayım ... şəbəkənin texniki vasitələri müəyyənləşdirir. *Yayımın fərdi qəbulu* ötürücü qurğulardan TV və ya radio proqramlarının birbaşa qəbuludur. Bu qəbul retranslyasiya ... olmadan baş verir.

**Sözlər:** *texniki, müəyyən, hüququ, sistemini*

***Çalışma 8. Tərcümə edin.***

*Ünvanlı yayım* dinləyici və tamaşaçıların məhdud dairəsi üçün yayımlanan radio və TV proqramlarıdır. Bu proqramlar fərdi sifarişə uyğun olaraq yayımlanır, informasiyanın bu və ya digər növlərinə (əyləncəli, maarifçilik, işgüzar, idman və s.) görə müəyyən edilir.



***Çalışma 9. Terminləri öyrənin.***

yayım, yayım kanalı, yayım keyfiyyəti, yayım proqramı, yayımçı, yayım cədvəli, yayım sahəsində tədqiqat şurası, yayım haqqı, yayım lisenziyası, yayım siqnalı, yayımdan istifadə üçün ödəniş, yayım stansiyası, yayım təşkilatı, yayım zonası, vasitəli televiziya yayımı, yayım tezlikləri diapazonu, yayım şəbəkəsi, yayımın fərdi qəbulu, ünvanlı yayım

## §16. Teleradio yayımı (davamı)

***Çalışma 1. Mürəkkəb sözləri tapın.***

1. *Teleradio yayımları şəbəkəsi* radiotezliklər, TV və radioötürücü qurğular, peykötürücü və qəbuledici stansiyalar, kabel və efir-kabel şəbəkələridir. 2. Bunlar yayım lisenziyası ilə müəyyənləşdirilir. 3. Yayımçı ekran-efir məhsullarını müxtəlif tezliklərdə yaymaq üçün onlardan istifadə edir.

***Çalışma 2. Qara hərflərlə verilmiş sözləri izah edin.***

*Teleşəbəkə* **vahid** mərkəzdən təchiz edilən qəbuledici və ötürücü stansiyalar kompleksidir. O, **informasiya** materiallarını **digər** stansiyalar **vasitəsilə** müqavilə əsasında **müxtəlif rayonlar** üzrə paylayır. Bu müqavilələr onlara öz **yayım** vaxtını ictimai proqramlara təqdim etdiklərinə görə sərfəli kompensasiya almaq imkanı yaradır. Teleşəbəkə videoda çoxsaylı kanalları nizamlamaq sistemidir.

***Çalışma 3. Altından xətt çəkilmiş şəkilçilər hansı kateqoriyaya aiddir?***

1. *Telekast* TV yayımı, televerilişdir. Bu termin TV yayımı anlayışını həm TV-ni, həm də radionu əhatə edən «brokastinq» anlayışından fərqləndirməyə kömək edir. 2. *Telekonfrans* internetin inkişafı şəraitində bir-birindən uzaqda olan kommunikasiya iştirakçılarının eyni zamanlı ikitərəfli mətnli, səsli və təsvirli informasiya mübadiləsi vasitəsilə birləşdirilməsidir. 3. *Telekörpü* bir-birindən uzaq məsafədə (müxtəlif şəhərlərdə, ölkələrdə, dünyanın



ayrı-ayrı guşələrində) yerləşən tamaşaçılar arasında dialoq formasında telepeyk vasitəsilə əlaqədir.

***Çalışma 4. 3-cü tapşırıqda qeyri-müəyyən yiyəlik halda olan sözləri tapın.***

***Çalışma 5. Mötərizədəki sözləri lazım olan formada yazın.***

*Telejurnal* TV-nin çoxfunksiyalı, çoxprofilli, çoxjanrlı və çevik struktura malik olan yayım (forması). O, əsasən, informasiya xarakterli problemlər üzrə, rəngarəng (epizodlar) tərtib edilən proqram formasıdır. (Bura) aparıcı, (proqram) «sifəti» kimi çıxış edir. Telejurnal tematik də ola bilər.

***Çalışma 6. Hal şəkilçilərini göstərin.***

*Teleradio təşkilatı* hər hansı ölkənin qanunvericiliyinə uyğun şəkildə qeydiyyatdan keçən, teleradio proqramları (verilişləri) istehsal etmək və yayımlamaq səlahiyyəti olan, yaxud bu səlahiyyəti üçüncü şəxs vasitəsilə həyata keçirən fiziki və ya hüquqi şəxsdir.

***Çalışma 7. Səhvləri düzəldin.***

*Televiziya və radio fəaliyyəti haqqında qanun* elə bir sənəddir ki, TV və radio yayımçısının, vətəndaşdarı operatif məlumatlandırmasına, ekran-efirdə konstitusiya ilə vətəndaşlara verilən söz, mətbuad və məlumat azatlıklarının gerçəkləşdirilməsinə, insannarın öz mövke, istəy və fikirrərini sərbəs ifadə etmələrinə təminat verir.

***Çalışma 8. Terminləri öyrənin.***

teleradio yayımları şəbəkəsi, teleradio yayımı, teleşəbəkə, telekast, telekonfrans, telekörpü, telejurnal, teleradio təşkilatı, televiziya və radio fəaliyyəti haqqında qanun

***Çalışma 9. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| elektromaqnit | elektrik cərəyanının keçdiyi cihaz |
| kodlaşdırılmış | kod şəklində yazdırılmış |
| retranslyasiya | radio və ya televiziya verilişlərinin qəbul edilib uzaqlara ötürülməsi |
| şəbəkə | 1) qəfəs, tor, ornament; 2) müxtəlif istiqamətlərdə yolların, rabitə xətlərinin, kanalların məcmusu; 3) müəyyən bir ərazidəki oxşar idarələrin, müəssisələrin məcmusu |
| lisenziya | mal aparmaq və ya gətirmək üçün verilən rəsmi icazə |
| peyk | planet və ya ulduzun ətrafında fırlanan göy cismi |
| paylanmaq | hərəyə öz payı verilmək; bölüşdürülmək |
| təchiz edilmək | lazım olan şeyləri almaq, təmin edilmək |
| sərfəli | xeyirli, faydalı |
| kompensasiya | əvəzini vermə |
| nizamlanmaq | qaydaya salınmaq |
| mübadilə | dəyişmə |
| guşə | 1) künc, bucaq; 2) hissə, tərəf; 3) sakit yer |
| profil | 1) sifətin yandan görünüşü; 2) təsərrüfatı, ixtisası, sənəti səciyyələndirən əsas xüsusiyyətlərin məcmusu |
| rəngarəng | müxtəlif rəngli; cürbəcür, müxtəlif |
| epizod | 1) əhvalat, hadisə; 2) bədii əsərin bir parçası, hissəsi |
| qeydiyyat | yazılma, yazma |
| yayımlamaq | yaymaq |
| səlahiyyət | bir işi görməyə hüququ olma |
| operativ | 1) hərbi əməliyyata aid olan; 2) işin gedişini qaydaya salan |



## §17. Proqram

Ekran və efirə gedən verilişlər toplusuna **proqram** deyilir. Proqram müəyyən bədii ideya prinsipində hazırlanmış verilişlər sırasıdır. Proqram yayım cədvəli ilə müəyyən edilmiş vaxtda dövri olaraq efirə çıxır. Hər hansı proqramın populyarlığında yaradıcılıq amilləri ilə yanaşı, onun dövriliyi, efirə müntəzəm çıxması amili də mühüm rol oynayır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| dövri | 1) dövri hərəkət; 2) müəyyən vaxtlarda çıxan; 3) müəyyən vaxtlarda (dövrlərdə) baş verən |
| amil | səbəb, vasitə |
| müntəzəm | düzgün, ardıcıl, sistemli, daimi |
| rol oynamaq | əhəmiyyəti olmaq, təsiri olmaq |
| ardıcıllıq | bir-birinin ardınca gəlmə, arası kəsilmədən davam etmə |
| nəzərdə tutmaq | fikrində tutmaq |
| həcm | ölçü, böyüklük, miqdar, tutum |
| qabaqcadan | qabaqdan, əvvəldən, irəlicədən |
| razılığa gəlmək | razı olmaq |
| lisenziya | rəsmi icazə sənədi |
| sifariş etmək | bir şey hazırlamağı, gətirməyi tapşırmaq |
| müvafiq | uyğun, münasib, yaraşan, əlverişli |
| mülkiyyət | 1) birisinə məxsus əmlak, şey və s.; 2) mənsubiyyət, aidlik |
| dövriyyə | hər hansı bir işin, prosesin təkrar edən dövrü |

| | |
|---|---|
| analitik | analiz tətbiq edən |
| şərait yaratmaq | imkan yaratmaq |
| məhəl qoymamaq | maraqlanmamaq, saymamaq |
| tabe olmaq | birinin iradəsi ilə hərəkət etməyə məcbur olmaq, razı olmaq, itaət etmək |

***Çalışma 2. Qoşa samitli sözləri tapın.***

*Proqramlaşdırma dedikdə,* efirə gedəcək TV və radio verilişlərinin müəyyən müddət üçün ardıcıllıqla tərtib edilməsi nəzərdə tutulur. Proqramlaşdırma bu verilişlərin efir vaxtının (gün, saat) və həcminin qabaqcadan müəyyənləşdirilməsidir. *Proqram rejissoru* konkret efir günündə verilişlərin proqram üzrə ardıcıllıqla efirə getməsini izləyən buraxılış rejissoru və ya videorejissordur.

***Çalışma 3. Qara hərflərlə verilmiş felləri şühudi keçmiş zamanda təsrif edin.***

İri teleşəbəkələrin yerli stansiyalarla konkret proqram **hazırlamaq** barədə razılığa gəlməsi *proqramların lisenziyalaşdırılmasıdır.* Teleşəbəkə, proqramları sifariş etməklə standart razılaşmaya müvafiq olaraq buraxılışı iki dəfə efirə **ötürmək** imkanı qazanır. Həm də bu zaman proqramı hazırlayan şirkət mülkiyyət hüququnu qoruyub **saxlayır**.

***Çalışma 4. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.***

Proqramın ... olan şirkət verilişi xarici ... da sata bilər. Lakin teleşəbəkə bu proqramın ... telestansiyalarda ... göstərilməsini gözləməlidir. Buna görə də ayrı-ayrı ... stansiyalar proqramı müəyyən vaxtda ... vermək üçün yalnız ... göstəriş lisenziyası ala bilər.



**Sözlər:** *yerli, təkrar, sahibi, müstəqil, təşkilatlara, tam, efirə*

***Çalışma 5. İsimləşmiş məsdərləri göstərin.***

*Proqramdan istifadə* etmə dedikdə, proqramı təkrar hazırlama, yayma (proqram nüsxələrini şəxslərin qeyri-müəyyən dairəsinə təqdim etmə) və proqramın dövriyyəyə salınması üzrə digər hərəkətlər başa düşülür. Ayrı-ayrı teleşirkətlərin bütün ölkə üçün verilişlərin cədvəlini hazırlamaq barədə öz aralarında razılığa gəlməsi *proqramın birgə tərtib edilməsi* adlanır.

***Çalışma 6. Sözlərin vurğusunu müəyyənləşdirin.***

*Verilişlərin xronometrajı – «tayminq»*, yayım proqramları üçün vaxtın seçilməsi və hesablanması deməkdir. Bir sıra analitiklərin fikrincə, yeni elektron media vasitələri «azad tayminqlər» rejiminə keçməyə şərait yaradır. Bu vasitələr sərhədlərə, gündüzə, gecəyə və digər ənənəvi «şərti vaxt» anlayışlarına məhəl qoymur, kompüter şəbəkələri və İSP-lərin virtual məkanında «elektron vaxt»ın imkanlarına tabe olur.

***Çalışma 7. Terminləri öyrənin.***

proqram, proqramlaşdırma, proqramların lisenziyalaşdırılması, proqramdan istifadə etmə, proqramın birgə tərtib edilməsi, verilişlərin xronometrajı, tayminq, proqram rejissoru, elektron vaxt, azad tayminq

## §18. Proqram tipləri

Proqramların tipinin müəyyənləşdirilməsi kütləvi auditoriyanın maraqlar spektri nəzərə alınmaqla efir vaxtının səmərəli bölüşdürülməsidir. Əsas proqram tipləri dairəsinə bunlar daxildir: informasiya, aparıcı-analitiklərin şərhləri və hava haqqında məlumat, idman, ticarət yenilikləri ilə müşayiət olunan yerli, ümumdövlət, beynəlxalq xəbərlər proqramları; diskussiyalar, şərhlər, söhbətlərdən ibarət ictimai məsələlər proqramları; əyləncəli proqramlar; dini proqramlar; iqtisadi proseslər, biznes, marketinq məsələləri ilə bağlı proqramlar; idman, tədris proqramları və s.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| kütləvi | 1) çoxlu adamın iştirakı ilə olan; 2) kütlə üçün, çox; 3) xalq üçün edilən |
| auditoriya | 1) mühazirə, məruzə dinləmək, iclas, məşğələ və s. keçirmək üçün zal, otaq və s.; 2) mühazirə, məruzə, nitq və s. dinləyənlər |
| spektr | işıq şüaları |
| səmərəli | yaxşı nəticə verən, faydalı, xeyirli, əlverişli |
| bölüşdürülmək | 1) paylaşdırılmaq; 2) hissələrə bölünmək |
| müşayiət | yanınca getmə, ötürmə |
| marketinq | bazarın təşkili, alış-veriş |
| mass-media | kütləvi informasiya və kommunikasiya vasitələrinin məcmusu |
| əsaslanmaq | 1) özü üçün əsas götürmək, istinad etmək; 2) kök salmaq, yerini möhkəmlətmək |



| | |
|---|---|
| asudə | 1) rahat, dinc, qayğısız, arxayın; 2) işi olmama; 3) təhlükəsiz, sərbəst, azad |
| asılılıq | 1) sərbəstliyin, müstəqilliyin olmaması; 2) bir hadisənin başqa bir hadisəyə səbəb kimi münasibəti |
| əlaqələndirilmək | bir-biri ilə sıx surətdə bağlanmaq, aralarında əlaqə, rabitə, münasibət yaradılmaq, uzlaşdırılmaq |
| həvəsləndirmə | birini həvəsə gətirmək |
| calaq | qoşma, qoşulmuş şey |
| janr | 1) üslub; 2) səciyyəvi əsər növü |
| daraltmaq | 1) dar etmək; 2) azaltmaq, kiçiltmək, məhdudlaşdırmaq |
| şəbəkə | 1) tor, hörgü; ornament; 2) yolların, rabitə xətlərinin, kanalların, idarə və müəssisələrin və s. məcmusu |
| savadlı | 1) yazıb-oxumağı bacaran; 2) bilikli; yaxşı məlumatı olan |
| zəka | ağıl, zehin |
| əsilzadə | 1) zadəgan; 2) nəcib, nəcabətli, alicənab |
| zövq | 1) ləzzət, həzz; 2) gözəllik, hüzn; 3) gözəlliyi, incəliyi hiss etmə; 4) əyləncə, şadlıq |
| qabiliyyət | 1) istedad, tez mənimsəmə bacarığı; 2) bir şeyi etmək bacarığı; 3) ləyaqət |
| maarifləndirmək | elm, bilik, mədəniyyət vermək |
| dünyagörüşü | həyat, təbiət və cəmiyyət haqqında görüşlər sistemi |
| təxir | yubanma, gecikmə |
| şirnikləndirmək | bir işə həvəsləndirmək, həvəs oyatmaq |
| taktika | 1) döyüşə hazırlıq nəzəriyyəsi; 2) mübarizə aparma üsul və qaydaları |

| | |
|---|---|
| əmin etmək | inandırıb rahat etmək, tamamilə inandırmaq |
| növbəti | 1) növbədə olan, birinci, ən yaxın olan; 2) sıra ilə gedən |

***Çalışma 2. Qeyri-müəyyən yiyəlik halda olan sözləri tapın.***

*Əyləncəli proqram* müasir mass-medianın informasiya sahəsində böyük payı olan və müxtəlif oyunlara əsaslanan bədii-musiqi proqramlarıdır. Analitiklər əyləncə proqramını həm medianın asudə vaxt funksiyaları spektrinin genişləndirilməsi, həm də KİV-in reklam sponsorluğundan asılılığının güclənməsi ilə əlaqələndirirlər.

***Çalışma 3. Əvəzlikləri seçin, növünü müəyyənləşdirin.***

Reklamçılar əyləncəli proqramlardan öz kommersiya maraqları üçün istifadə edirlər. Bunun köməyi ilə onlar reklam həvəsləndirməsinin müxtəlif formalarını təşkil edirlər. Əyləncəli proqramların xəbər proqramları ilə birləşməsi prosesi də inkişaf edir. Bu proseslər nəticəsində meydana çıxan infoteynment calaq janrları KİV-in kütləvi sahəsini daraldır. Həmin janrlar əyləncəli-informasiya proqramlarının yayım şəbəkəsində mövqeyini möhkəmləndirir.

***Çalışma 4. Əlamət bildirən sözləri tapın.***

*İntellektual proqram* mədəni kütlə, yüksək savadlı adamlar üçün ciddi verilişdir. İntellekt (highbrow) sözü «zəka əsilzadəsi», incə zövqlü insan kimi tərcümə oluna bilər. İntellekt insanın əqli qabiliyyətidir. Bu anlayışın antonimi sadə, adi zövqlü adamlar üçün nəzərdə tutulan proqramdır.



***Çalışma 5. Qoşa və yanaşı saitli və samitli sözləri tapın, tələffüzünə diqqət edin.***

*Öyrədici proqramların* məqsədi auditoriyanı maarifləndirmək, onu müəyyən biliklər sistemi ilə tanış etmək, tamaşaçılarda zövq və dünyagörüşü formalaşdırmaqdır. Ən klassik öyrədici proqram müxtəlif kütləvi formalardan istifadə etməklə tamaşaçılara ayrı-ayrı sahələrə (tarix, hüquq, coğrafiya, təbabət, dil öyrətmə, ətraf mühit, təbiət, mədəniyyət və s.) dair ardıcıl bilik verən proqram sayılır.

***Çalışma 6. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.***

Öyrədici proqram teleradionun ... illərindən bu günədək ... yayım şirkətlərinin proqram siyasətində ... yer tutur. ABŞ, Kanada, Yaponiya və s. kimi ölkələrdə auditoriyanın ... bir hissəsini nəzərdə tutan və yalnız ... proqramlar yayan ixtisaslaşmış telekanallar mövcuddur.

**Sözlər:** *əsas, öyrədici, bir çox, geniş, ilk*

***Çalışma 7. Qara hərflərlə verilmiş sözlərin mənasını izah edin.***

1. *Əsas xəbər proqramı* axşam saatlarında (saat 20-dən 22-dək) göstərilən, ən çox **tamaşaçı** toplayan və günün əsas xəbərlərini çatdıran geniş informasiya proqramıdır. 2. *Başqa vaxta keçirilən veriliş* TV-nin müxtəlif səbəblərdən **təxirə salınmış** proqramıdır. Bu, əvvəllər teleşəbəkə ilə göstərilən, lakin məhz həmin stansiya ilə göstərilməyən proqramın yerli stansiya ilə **efirə çıxmasıdır.** 3. Günün hər hansı mühüm hadisəsinə həsr edilmiş **informativ** veriliş forması ***aktual*** *ekran* adlanır. 4. Aktual ekran söhbət-çıxış formasında qurulur və gü-

nün ən vacib mövzusuna **həsr edilir.** 5. Yalnız gündüz vaxtı göstərilən teleproqramlara *gündüz TV proqramları* deyilir. Bu proqramlara sabun operaları və tədris filmləri daxildir.

***Çalışma 8. Səhvləri düzəldin.***

*Şirnikləndirici verilişlər* böyüy teleşəbəkələrin və yerri stansiyaların tamaşaçı yığmax məksədilə müəyyən mövsümdə efire verdiyləri çox cazibəli proqramlardır. Reklam sifarişçilerini auditoriyanın genişdiyinə əmin etməy üçün bu verilişdər müəyyən günde efire buraxılır və bu taktika növbəti günlerde özünu doğruldur.

***Çalışma 9. Terminləri öyrənin.***

əyləncəli proqram, intellektual proqram, intellekt. öyrədici proqram, əsas xəbər proqramı, başqa vaxta keçirilən veriliş, aktual ekran. gündüz TV proqramları, xəbərlər proqramı, dini proqram, idman proqramı, tədris proqramı, şirnikləndirici verilişlər



## §19. İnformasiya

Kütləvi kommunikasiyanın vasitələri ilə yayılan ictimai məzmunlu məlumat, xəbər **informasiya** adlanır. İnformasiya əldə etmək istəyi insanlarda qədim zamanlardan mövcuddur. İnformasiya latınca «information» sözündən olub «xəbərdar etmə, anlatma, şərh etmə, aydınlaşdırma» deməkdir. İnformasiya daxili və beynəlxalq həyatın aktual yenilikləri haqqında məlumatlar məcmusudur. Publisistikanın janrları olan xəbərlər, reportajlar, hesabatlar, müsahibələr, icmallar informasiyanın əsas operativ janrlarıdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| xəbərdar | bir işdən xəbəri, məlumatı olan |
| publisistika | müasir aktual mövzuda yazılmış ictimai-siyasi əsərlərin janrı |
| reportaj | günün hadisələri haqqında mətbuatda, radio və televiziyada verilən məlumat |
| hesabat | 1) bir şey və ya iş haqqında izahat, geniş məlumat; 2) yazılı və şifahi rəsmi məlumat |
| müsahibə | iki və ya bir neçə adam arasında söhbət |
| qurum | qurmaq işi, quruluş |
| struktur | şəbəkə, qəfəs, quruluş |
| mühit | şərait |
| prinsipial | 1) prinsipə aid olan, prinsipdən çıxan; 2) prinsipli |
| zəiflətmək | gücdən salmaq, gücünü azaltmaq |
| mövqe | 1) yer; 2) insanın cəmiyyətdə, həyatda yeri, rolu, vəziyyəti |

| | |
|---|---|
| sıralanmaq | sıra ilə düzülmək |
| blank | sənəd tərtib etmək üçün vərəqə |
| həlqə | 1) çənbər, qurşaq; 2) zəncirdəki dairəvi hissələrdən hər biri |
| məhv etmək | yox etmək, puç etmək, tələf etmək, qırmaq |
| təcrid olunmaq | ayrılmaq, başqalarından ayrı saxlanmaq |
| modifikasiya | şəklini dəyişdirmə |
| surət | zahiri görünüş, şəkil, portret, təsvir |
| mübahisə | bəhs, deyişmə |
| futurologiya | gələcəyi proqnozlaşdıran elm sahəsi |
| doktrina | elmi, fəlsəfi və ya siyasi nəzəriyyə, sistem |
| tale | 1) bəxt, qismət; 2) gələcək, iqbal |
| həlledici | həll edən; başlıca, ən mühüm |
| qlobal | bütün Yer kürəsini bürüyə bilən |
| ənginlik | genişlik, vüsət, açıqlıq |
| ehkam | 1) hər hansı bir nəzəriyyənin əsas qanunu; 2) dəyişilməz qanun |
| xammal | yerdən çıxarılan və ya istehsal ed...ən material |
| sayəsində | nəticəsində, səbəbi ilə, köməyi ilə |

***Çalışma 2. Mənsubiyyət şəkilçili məsdərləri göstərin.***

*İnformasiya sistemi* müxtəlif xarakterli məlumatların sorğuya görə toplanması, saxlanması, yeniləşdirilməsi, axtarışı və verilişi üçün sistemdir. Avtomatlaşdırılmış informasiya sistemləri, əsasən, sənədli (sənədlərin axtarışı üçün) və faktoqrafik (iqtisadi və statistik informasiyaların işlənməsi üçün) olur.



***Çalışma 3. Qara hərflərlə verilmiş sözləri yaxın mənalı sözlərlə əvəz edin.***

1. *İnformasiya dolğunluğu* obyektivliyin **vacib** şərti, təqdim olunan faktların dolğunluğudur. 2. Hər hansı təşkilatda ictimaiyyətlə **əlaqə** yaradan, həmin qurumun **fəaliyyəti** barədə xəbər yayan struktura *informasiya xidməti* deyilir. 3. Verilən iş rejimini və onun **vəzifələrinin** yerinə yetirilməsi şəraitini təmin edən, **informasiyanın** qorunması, işlənməsi və ötürülməsinin texniki və proqram vasitələrinin **məcmusu** *informasiya mühiti* adlanır. 4. *İnformasiya müharibəsi* prinsipial məsələlərdə qarşı tərəfin mövqeyini zəiflətməkdir, ideoloji müharibənin tərkib hissəsidir.

***Çalışma 4. Nöqtələrin yerinə lazım olan şəkilçiləri qoyun.***

*İnformasiya proqram...ının sıralanması* informasiyanın obyektivliyini və ardıcıllığını təmin etmək məqsədilə müxtəlif məlumat mənbə...indən və həyatın müxtəlif sahə...indən alınmış material...ın proqrama salınmasıdır. Həmin material... müəyyənl...dirilmiş saat...da efirə verilir.

***Çalışma 5. İsimləri tapın və təhlil edin.***

*İnformasiya sənayesi* kütləvi mətbuatın və kütləvi mədəniyyətin kommersiyalaşdırılmasının, ən yeni texnika əsasında müxtəlif tipli informasiya məhsullarının (qəzetlər, kitablar, filmlər, kompüter oyunları) istehsalını yaradan biznesin ümumiləşdirilmiş adıdır.

*Çalışma 6. Altından xətt çəkilmiş şəkilçilər hansı hala aiddir?*

*İnformasiya vərəqəsi* firma blankında və ya adi vərəqdə çap olunmuş operativ informasiyadır. Adətən, satış yerlərində, sərgilərdə, seminar və mətbuat konfranslarında paylanmaq üçün nəzərdə tutulmuş reklam materiallarına daxil edilir.

*Çalışma 7. İsimləşmiş məsdərləri tapın.*

İnformasiyanın surətinin icazəsiz çıxarılması sahibinin icazəsi olmadan kompüterdəki faylların və disklərin sistemli sahələrinin surətlərini yaratmaqdır. Bu hərəkət kompüter sistemi və şəbəkəsinin işini pozmada, onun ayrı-ayrı həlqələrinin iş qabiliyyətini aşağı salmada, kompüter şəbəkəsi elementlərini söndürmədə ifadə olunur. Bu addım informasiyanın məhv edilməsi, təcrid olunması, modifikasiya edilməsi, onun surətinin çıxarılması, yaxud kompüterin işinin pozulması və informasiyaya qanunsuz daxil olma kimi qiymətləndirilir və qanunla cəzalandırılır.

*Çalışma 8. Mötərizələri açmaqla fellərin zamanını müəyyənləşdirin.*

*«İnformasiyalı cəmiyyət»* XX əsrin 70-80-ci illərində kompüterin kommunikasiya sahəsinə təsirinin gücləndiyi dövrdə böyük mübahisələrə səbəb olan futuroloji doktrinadır. Gələcək informasiya cəmiyyətinin cizgilərini Amerika kulturoloqu O.Toffler daha ətraflı (proqnozlaşdırmaq). Onun nəzəriyyəsinə görə, dünya sivilizasiyanın yeni, üçüncü mərhələsinə (qədəm qoymaq). Bu mərhə-



lədə dünyanın taleyində informasiyanın kütləviləşdirilmiş rabitə vasitələri həlledici (rol oynamaq), iqtisadiyyatı, mədəniyyəti, düşüncə tərzini, həyatın bütün sahələrini (dəyişmək).

*Çalışma 9. Mücərrəd isimləri tapın.*

Kompüterlə daimi ünsiyyət adamları (qaydalardan, standartlardan, ehkamlardan asılı olmayaraq) informasiyanın qlobalənginliklərində düzgün istiqamətlənməyə öyrədir. Sivilizasiyanın «üçüncü dalğa» dövründə ən əsas xammal informasiya sayılacaq. İnformasiya sayəsində daha böyük əhəmiyyət kəsb edən yeni sivilizasiya təhsili yenidən quracaq, kommunikasiya vasitələrini yeniləşdirəcək.

*Çalışma 10. Terminləri öyrənin.*

informasiya, informasiya dolğunluğu, informasiya sistemi, informasiya xidməti, informasiya mühiti, informasiya müharibəsi, informasiya proqramlarının sıralanması, informasiya sənayesi, informasiya vərəqəsi, informasiyanın surətinin icazəsiz çıxarılması, informasiyalı cəmiyyət

## §20. İnformasiya (davamı)

İnformasiya mənbələri rəsmi və qeyri-rəsmi ola bilər. İnformasiyanın 90 faizini jurnalist görüş və söhbətlərdən alır. Qanuna əsasən jurnalist müxtəlif müəssisələrə və orqanlara sorğu göndərə bilər. Amma mənbənin adını o, sirr kimi saxlamaq imkanına malikdir.

Əgər bir informasiya agentliyinin materialları digər informasiya orqanında yayılarsa, onda mütləq həmin orqana istinad olunmalıdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| qəsdən | bilərək, müəyyən məqsədlə |
| ictimaiyyət | cəmiyyət |
| çaşdırma | heyrətləndirmə, təəccübləndirmə |
| mahiyyət | daxili məzmun, əsil məna |
| ört-basdır etmək | gizlətmək |
| fikir azdırmaq | çaşdırmaq |
| verbal | şifahi, imzasız |
| təqdim etmək | 1) vermək; 2) tanış etmək |
| mimika | üz əzələlərinin hərəkəti |
| jest | əl-qol hərəkəti |
| tərz | üsul, qayda |
| etibarlı | inanılacaq, həqiqi, hörmətli |
| mötəbər | etibarlı, inanılan, hörmətli |
| şübhə doğurmamaq | şübhələndirməmək |
| dəqiqləşdirilmək | qəti müəyyənləşdirilmək |
| qeyd | qısa yazı |
| işarələnmək | işarə qoyulmaq |
| təsvir | 1) şəkil, rəsm; 2) danışma; 3) ifadə etmə |



| | |
|---|---|
| mənbə | 1) qaynaq, bulaq, çeşmə; 2) başlanğıcı təşkil edən şey |
| müəssisə | təşkilat, idarə |
| sorğu | sual, sual etmə, verilən sual |
| istinad etmək | 1) arxalanmaq; 2) öz fikirlərini sübut etmək üçün əsas götürmək |

***Çalışma 2. Altından xətt çəkilmiş şəkilçiləri müəyyən edin.***

Qəsdən yalan məlumat vermə *dezinformasiya* adlanır. Bu ictimaiyyəti yalan informasiya ilə çaşdırmadır. Dezinformasiya hər hansı hadisənin mahiyyətini ört-basdır etmək, ictimai fikri azdırmaq məqsədilə verilir.

***Çalışma 3. Mənsubiyyət şəkilçilərini göstərin.***

*Verbal informasiya* ekranda yalnız sözlə, nitq vasitəsilə verilir. Verbal informasiya həm ekranda danışan adamın nitqində, həm də kadrarxası mətnlərdə (diktor, yaxud aparıcı mətni) təqdim edilir. *Qeyri-verbal informasiya* təsvirlə, digər işarələrlə, danışan adamın mimika və jestləri, intonasiyası, danışıq tərzi və s. ilə verilən informasiyadır.

***Çalışma 4. Cümlələri tamamlayı. .***

Adətən, tamaşaçı və dinləyici məlumatın haradan alındığını bilmək .... Etibarlı mənbələrdən alınan informasiya *mötəbər informasiya* .... Onun məzmunu və mahiyyəti şübhə ....

**Sözlər:** *sayılır, doğurmur, istəyir*

***Çalışma 5. Feli sifətləri tapın.***

Sonradan alınmış əlavə məlumat *postfaktum* adlanır. O, sonradan dəqiqləşdirilir və verilən informasiyaya əla-

və edilir. *Postkriptum* isə yazılmış və imzalanmış məqalənin, məktubun sonuna əlavə olunan qeyddir. Adətən, latın hərfləri (P.S.) ilə işarələnir.

***Çalışma 6. Söz birləşmələri düzəldin.***

| | |
|---|---|
| dövlət | sistemi |
| kommersiya | proqram |
| əyləncəli | antenası |
| nitq | televiziyası |
| televiziya | mədəniyyəti |

***Çalışma 7. Terminləri öyrənin.***

dezinformasiya, verbal informasiya, qeyri-verbal informasiya, mötəbər informasiya, postfaktum, postkriptum



## §21. İnformasiya agentlikləri

Dünyanın hər hansı bir yerində baş verən hadisədən xəbər tutmaq üçün ən qısa yol xəbər agentlikləridir. Dünya ölkələrində baş verən hadisələr xəbər agentliklərinin gözü ilə izlənməkdədir. Bu baxımdan jurnalistlər daha çox informasiya agentliklərində işləməyə üstünlük verirlər. Onların bu səbəbdən informasiya agentliklərinin elektron şəbəkəsi və dünya informasiya təşkilatları ilə əməkdaşlıq məsələlərini öyrənmələri son dərəcə vacibdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| baş verən | əmələ gələn, meydana gələn, olan |
| xəbər tutmaq | soruşub bilmək, məlumat almaq |
| izlənmək | təqib olunmaq |
| üstünlük vermək | birini seçmək, bəyənmək |
| şəbəkə | tor |
| əməkdaşlıq | işləmə, çalışma |
| fəaliyyət göstərmək | işləmək |
| adlandırılmaq | ad verilmək |
| səhiyyə | tibb |
| ətraf mühit | təbii şərait |
| fasiləsiz | fasilə olmadan, arası kəsilmədən |
| dəqiq | 1) düz, düzgün; 2) diqqətli |
| aparıcı | irəlidə gedən, əsas, ən mühüm |
| yeganə | bir, tək, vahid |
| əlaqə saxlamaq | münasibəti olmaq, yaxın olmaq |
| qarşılıqlı | hər iki tərəfə aid olan |
| əməkdaşlıq etmək | birinə kömək etmək, işləmək |
| analitik | analizə aid olan |
| icmal | qısa məlumat |

| | |
|---|---|
| energetika | enerji növlərinin istehsalı haqqında sahə |
| qanunvericilik | qanun vermə işi |
| blok | birləşmə |
| təqdim olunmaq | verilmək, tanış edilmək |
| məhsul | düzəldilən şey |
| dövri | müəyyən vaxtda çıxan, təkrar olan |
| bülleten | hadisə haqqında qısa məlumat |
| özəl | xüsusi |
| buraxılış | 1) buraxma; 2) əsərin bir hissəsi |
| nəşr olunmaq | çap olunmaq, yayılmaq |
| abunəçi | abunə yazılan adam |
| keyfiyyət | fərqli xüsusiyyət, əlamət |
| ibarət | düzəlmiş, tərtib olunmuş |
| ekspert | mütəxəssis, komissiya |
| təmin etmək | lazım olan bütün şeyləri vermək |
| törətmək | əmələ gətirmək, yaratmaq, meydana gətirmək, doğurmaq |
| təsis | əsasını, təməlini qoyma, qurma, yaratma |

***Çalışma 2. Zaman şəkilçilərini göstərin.***

İnformasiya teleqraf agentliklərinin əsas məqsədi insanları xəbərlərlə təmin etməkdir. Belə agentliklər Avropada XIX əsrin 20-ci illərində təşkil edilmişdi. Rusiyada isə 1866-cı ildə Rus Teleqraf Agentliyi yarandı. 1904-cü ildə imperator II Nikolayın əmri ilə «ictimai maraq törədən» məlumatların yayılması üçün informasiya agentliyi təsis olundu.

İlk dəfə Azərbaycan Demokratik Respublikasında informasiya agentliyi – AzərTAc yaranmışdır. Hazırda Azərbaycanda çoxsaylı informasiya agentliyi vardır.



***Çalışma 3. Səhvləri düzəldin.***

Azərbycanda informasiya agentliyinin tarixi AzərTAc-ın (Azərbaycan Dövlət Teleqraf Agentliyinin) yaranması ilə başlıyır. 1920-nci il martın 1-də Azərbaycan Demokratik Respublikası hökuməti tərəfinnən yaradılmış AzərTAc sonralar müxtəlif adlarla faliyət göstərmişdir: Azərbaycan Teleqraf Agentliyi, Azərinform və s. 1995-nci il martın 3-ündən Dövlət Teleqraf Agentliyi, 2000-nci il yanvarın 17-sindən Azərbaycan Dövlət Teleqraf Agentliyi adlandırılmışdır. O, rəsmi dövlət xəbərrəri, iştimayi-siyasi, iqtisadi mövzularda, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ətraf mühit və s. hakkında Azərbaycan, Rus, İngilis, Alman, Fransız, Ərəb dillərində fasiləsiz, dəqiq və operativ informasiya yayır.

***Çalışma 4. Altından xətt çəkilmiş sözlərdə hansı qaydaları görmək olar?***

Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc respublikanın aparıcı informasiya agentliyi, yerli və xarici KİV üçün yeganə rəsmi dövlət informasiya mənbəyidir. AzərTAc 90-dan artıq xəbər agentliyi ilə əlaqə saxlayır. O, Anadolu agentliyi (Türkiyə), İTAR-TASS (Rusiya), Sinxua (Çin), Ukrinform (Ukrayna), ANSA (İtaliya), BTA (Bolqarıstan), MENA (Misir), İRNA (İran), KYODO (Yaponiya) və s. agentliklərlə qarşılıqlı əməkdaşlıq edir.

***Çalışma 5. Mötərizələri açın, felləri düzgün formada yazın.***

«Turan» - keçmiş SSRİ-də ilk müstəqil informasiya agentliklərindən biridir. 1990-cı ilin mayında yaradılıb. Agentlik xəbərlər, Azərbaycanla bağlı analitik məqalələr

və icmallar (hazırlamaq). İnformasiya məhsulları siyasət, iqtisadiyyat, energetika, maliyyə, kommunikasiya, qanunvericilik, din, mədəniyyət, idman, fotomateriallardan ibarət bloklar şəklində (təqdim olunmaq). «Turan»ın informasiya məhsulları Azərbaycan, İngilis və Rus dillərində (buraxılmaq). Agentlik xəbərləri onlayn rejimində, həm də dövri şəkildə bülletenlər formasında (yaymaq).

*Çalışma 6. Hal şəkilçilərini göstərin.*

«Trend News» Agentliyi 1995-ci ildə yaradılmış özəl beynəlxalq informasiya agentliyidir. «Trend News»-un onlayn-xəbərlər buraxılışları İngilis, Rus, Fars və Ərəb dillərində nəşr olunur və www.trendaz.com vebportalında yerləşdirilir. «Trend News» abunəçilərə yüksək keyfiyyətli video və foto materialları, həftənin, ayın, ilin əsas siyasi, iqtisadi hadisələrindən ibarət analitik məhsullar və agentliyin ekspertlərinin iqtisadi məqalələrini təqdim edir.

*Çalışma 7. Suallara cavab verin.*

1. İnformasiya agentliklərinin məqsədi nədir? 2. Avropada agentliklər nə vaxt təşkil olunub? 3. Rusiyada teleqraf agentliyi nə zaman yaranıb? 5. AzərTAc nə vaxt yaranıb? 6. O hansı agentliklərlə əlaqə saxlayır? 7. «Turan» agentliyi xəbərləri hansı formada yayır? 8. «Trend News» abunəçilərə hansı materialları təqdim edir?

*Çalışma 8. Terminləri öyrənin.*

informasiya, informasiya agentliyi, informasiya məhsulları, onlayn rejimi, bülleten



## §22. İnformasiya agentlikləri (davamı)

*Çalışma 1. Qalın sait ahəngli sözlər hansılardır?*

«Olaylar» informasiya agentliyi 1995-ci il aprel ayının 24-də yaradılıb. Olaylar.az Azərbaycan dilində onlayn xəbər saytıdır. Saytda «Olaylar» agentliyinin və «Olaylar» qəzetinin xəbərləri, siyasət, sosial, mədəniyyət, şou-biznes, idman, kriminal, din və digər mövzularda araşdırma yazıları, analitik təhlillər yerləşdirilir.

*Çalışma 2. Mürəkkəb sözləri tapın.*

«Azadinform» informasiya agentliyi 1999-cu il yanvarın 1-dən fəaliyyət göstərir. Onun yaradılmasında məqsəd beynəlxalq aləmdə, regionda, xüsusən də respublikada baş verən ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni hadisələri operativ, qərəzsiz və obyektiv şəkildə ictimaiyyətə çatdırmaqdır. Agentliyin xəbərləri həm Azərbaycan, həm də Rus dilində e-poçt vasitəsilə KİV-ə, hökumət və qeyri-hökumət təşkilatlarına, diplomatik nümayəndəliklərə, Azərbaycanın xarici ölkələrdəki səfirliklərinə göndərilir.

*Çalışmu 3. Feli sifətləri seçin və izah edin.*

«Azəri Press Agentliyi» (APA) Azərbaycanda fəaliyyət göstərən müstəqil informasiya agentliklərindən biridir. Agentlik 2004-cü ildə yaradılıb, onlayn xəbər xidməti göstərir. APA özəl və beynəlxalq arenada tanınmış informasiya agentliyidir. Şirkətin tərkibində «APA-News», «APA-Economics», «APA-Sport», «APA-Photo» bölmələri fəaliyyət göstərir. Agentlik gündəlik xəbərlər, video görüntülər, bank renkinqləri, həftəlik və aylıq

təhlillər, proqnozlar, xüsusi fotobank təqdim edir. Xəbərlər Azərbaycan, Rus, İngilis, Fransız, Ərəb dillərində yayımlanır. Regionun ən böyük media şirkətlərindən olan «APA» Azərbaycanın ən çox istinad edilən və oxunan agentliyidir.

***Çalışma 4. Xüsusi isimləri tapın.***

«Səs informasiya agentliyi» (SİA) 2008-ci il iyulun 23-də fəaliyyətə başlayıb. Agentlik Azərbaycan, İngilis, Rus dillərində xəbər xidməti göstərməkdədir. «SİA» Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan, Baltikyanı ölkələr, Moldova, Avropa dövlətləri və ABŞ-ın aparıcı kütləvi informasiya vasitələri, telekanallar, elektron yayım quruluşları və mətbuat orqanları ilə əməkdaşlıq əlaqələri qurub.

***Çalışma 5. İsimləri təhlil edin.***

«Salam News» informasiya agentliyi 2010-cu il martın 1-dən fəaliyyətə başlayıb. Açıq rejimli internetdə Rus, Azərbaycan və Türk dillərində xəbərlər yerləşdirilir. Agentliyin saytında infoqrafika bölməsi fəaliyyət göstərir. Agentliyin kollektivi – peşəkar reportyorlar, tərcüməçilər və redaktor heyəti hər gün Azərbaycanda və xaricdə olan hadisələr barədə operativ və obyektiv mənzərə təqdim edir.

***Çalışma 6. Nöqtələrin yerinə lazım olan şəkilçini yazın.***

Mərkəz.az – Mərkəz İnformasiya Agentliyi.... Məqsədi Azərbaycanda və dünyada baş verən hadisələri əhatə etmək və operativ şəkildə oxuculara çatdırmaq.... Mərkəz.az müstəqil layihə..., heç bir qurumun və ya şəxsin lokal maraqlarına xidmət etmir.



***Çalışma 7. Sifətləri tapın.***

«Regional» İnformasiya agentliyi tam müstəqil informasiya siyasəti həyata keçirən media qurumudur. www.regional.az saytında Azərbaycanda, digər Qafqaz ölkələrində, habelə dünyada baş verən maraqlı xəbərlər oxuculara çatdırılır. Agentlikdə müxtəlif sahələrdən bəhs edən müsahibələr, təhlillər, reportajlar, müəllif yazıları işıqlandırılır. Agentlik tam obyektiv, müstəqil, şərhsiz xəbər yayır.

***Çalışma 8. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| olay | hadisə |
| kriminal | cinayət |
| araşdırma | axtarma, yoxlama, təhlil, tədqiqat |
| yerləşdirilmək | bir yerə qoyulmaq, bir yer verilmək |
| təhlil | araşdırma |
| fəaliyyət göstərmək | işləmək |
| məqsəd | niyyət, arzu |
| aləm | kainat, dünya, təbiət |
| qərəzsiz | səmimi |
| diplomatik nümayəndəlik | bir dövlətin başqa dövlətdə nümayəndəliyi |
| səfirlik | diplomatik nümayəndəlik |
| xidmət etmək, göstərmək | biri üçün iş görmək, çalışmaq |
| arena | fəaliyyət göstərilən yer |
| bölmə | hissə, şöbə |
| gündəlik | hər gün olan |
| renkinq | rütbələmə, dərəcələmə |
| proqnoz | fikir söyləmə |
| yayımlanmaq | yayılmaq, verilmək |
| istinad edilən | kömək sayılan, əsas götürülən |
| fəaliyyətə başlamaq | işə başlamaq |

| | |
|---|---|
| peşəkar | sənətkar |
| reportyor | informasiya agentliyi işçisi |
| heyət | adamlar toplusu |
| mənzərə | ümumi görünüş |
| təqdim etmək | vermək, tanış etmək |
| əhatə etmək | 1) dörd tərəfi tutmaq; 2) qavramaq |
| çatdırmaq | 1) sahibinə vermək, bildirmək, məlumat vermək; 2) gecikməmək |
| layihə | plan, proyekt |
| qurum | qurmaq işi, quruluş, təşkilat |
| lokal | müəyyən yerə aid olan |
| maraq | həvəs, arzu, meyil |
| həyata keçirən | yerinə yetirən |
| müsahibə | söhbət |
| işıqlandırılmaq | 1) işıq verilmək; 2) aydınlaşdırılmaq, şərh edilmək |
| şərhsiz | izahsız |



## §23. Xəbər

Ölkədə və dünyada baş verən ən mühüm hadisələr haqqında yeni məlumat, yenilik **xəbər** adlanır. Xəbər ictimai əhəmiyyət kəsb edən fakt və hadisə, yeniliyin cazibə və mahiyyətini ifadə etmək, aktual hadisə barədə mətbuat, TV və radioda verilən operativ məlumatdır. İngiliscə «news» sözü xəbərlərin müxtəlif tiplərini səciyyələndirən terminoloji ifadələrdə də hakimdir – son xəbərlər, xarici ölkələrdən xəbərlər; təcili xəbərlər və s. xəbərlər anlayışı ilə bağlı terminlər dairəsi genişlənir. Bu proses informasiyanın texniki vasitələri inkişaf etdikcə və dünyanın müasir ictimai həyatında informasiya mühitinin rolu artdıqca daha da sürətlənir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| baş vermək | 1) əmələ gəlmək, meydana gəlmək, ortaya çıxmaq, olmaq; 2) başlamaq |
| kəsb etmək | 1) çalışıb qazanmaq; 2) əldə etmək, qazanmaq, öyrənmək |
| cazibə | cisimlərin bir-birini özünə cəzb etməsi xassəsi |
| mahiyyət | daxili məzmun, xüsusiyyət, əsil məna, əsas |
| səciyyələndirmək | bir şeyin səciyyəvi xüsusiyyətlərini vermək, göstərmək |
| rol | 1) artistin oynadığı surət; 2) əhəmiyyət, təsir |
| bənzəmək | 1) oxşamaq; 2) tay olmaq, bərabər olmaq, uyğunlaşmaq |

| | |
|---|---|
| miqyas | ölçü, dərəcə, dairə, məsafə ölçüsü |
| təchiz etmək | lazım olan şeyləri vermək, təmin etmək |
| məhdud | 1) əhatə olunmuş; 2) kiçik, az, cüzi; 3) məlumatı, biliyi az |
| prodüser | filmlərin quruluşunu verən |
| düzüm | düzülmə, sıralanma, tərtib qaydası |
| cavabdeh | bir iş üçün cavab verməli olan şəxs |
| pavilyon | hər hansı məqsədlər üçün tikilən kiçik yüngül tikili |
| redaksiya | 1) mətni işləmə, düzəltmə; 2) fikir, tezisin ifadəsi |
| arakəsmə | bir otağı, yeri, binanı iki yerə ayıran yüngül divar |
| avadanlıq | 1) ev şeyləri; 2) bir iş üçün lazım olan ləvazimat |
| yerləşdirmək | 1) bir yerə qoyulmaq; 2) müvəqqəti və ya daimi qalmaq, yaşamaq, yerləşmək |
| qadir | qüdrətli, böyük qüvvət sahibi olan; qüvvəsi, gücü çatan |
| əks etdirmək | göstərmək, ifadə etmək |
| ekspressiv | mənalı, təsirli, ifadəli |
| sərt | 1) bərk, möhkəm; 2) şiddətli, kəskin; 3) kobud, tünd |
| rəy | fikir, mülahizə, söz |
| xas | yalnız bir adama və ya şeyə məxsus olan |

***Çalışma 2. Tərcümə edin.***

*Xəbərlər xidməti* xəbər toplanması və onların kütləvi mətbuat orqanlarında yayılması ilə məşğul olan strukturdur. Xarakterinə görə bu cür xidmətlər xəbər agentliklərinə bənzəyir. Lakin miqyasına görə onlar öz informasiyaları ilə ayrı-ayrı rayonları, nəşriyyat, yaxud



yayım sistemlərini təchiz etməklə bir qədər məhdud fəaliyyət göstərir.

***Çalışma 3. Qara hərflərlə verilmiş sözləri kök və şəkilçilərə ayırın.***

*Xəbər prodüseri* xəbər proqramının məzmununa, süjetlərin **düzümünə**, mətnə, videotəsvirə, fotomateriallara, xronometraja, bir sözlə, **buraxılışda** hər şeyə cavabdeh olan şəxsdir. O, süjetin hansı formada (şifahi, kadrarxası mətnlə, təsvirlə, sinxron, reportaj, səs effektləri və s.) veriləcəyini müəyyən edir. Xəbər prodüseri **gündəlik** xəbər buraxılışının ümumi planının **tutulması**, qrafikadan istifadə, kadrların **yerləşdirilməsi** və s. **məsələlərlə** məşğul olur.

***Çalışma 4. Cümlələri tamamlayın.***

*Nyus-rum* xəbər otağıdır. TV-də studiya pavilyonu ilə redaksiya otağından şüşə arakəsmə ilə .... Bu məkanda kompüter stolları, telefonlar, xəbər qəbul edən digər avadanlıq .... Bəzi telestudiyalarda xəbər proqramları bu otağın fonunda .... Belə bir üsul ilk dəfə CNN-də ....

**Söz və ifadələr:** *yerləşdirilir, t. 'biq edilmişdir, ayrılır, efirə çıxır*

***Çalışma 5. Mötərizələri açın və sözləri düzgün formada işlədin.***

Böyük telestansiyalarda xəbər (mətnlər) tərtib edən şəxsə *nyusrayter* deyilir. İnformasiya toplayan nyusrayter tez-tez informasiya (agentliklər) materiallarından, yaxud telefonla verilən məlumatlardan (istifadə etmək). (Videomateriallar) isə peyk vasitəsilə alır. Nyusrayter süjetin

savadlı ssenari (plan) hazırlayır, mətni (tamamlamaq) bəzi vizual elementlər təklif edir.

***Çalışma 6. Dodaq ahəngi pozulan sözləri göstərin.***

1. *Nyusmeyker* jurnalistlərin diqqətinə layiq şəxs, yaxud hadisədir. Hərfi tərcümədə: yenilik yaratmağa qadir. 2. *Nyus-film* TV-də göstərmək üçün nəzərdə tutulan və günün ən son yeniliklərini əks etdirən videosüjetlər toplusudur. 3. Radioda musiqi proqramları arasında verilən 4-5 dəqiqəlik ekspressiv xəbər buraxılışlarına *kapsul-xəbər* deyilir. 4. Kapsul-xəbər, əsasən, ABŞ radiolarında geniş yayılmış xəbər proqramı tipidir.

***Çalışma 7. Qara hərflərlə verilmiş sözlərə əks mənalı sözlər tapın və cümlədə işlədin.***

*Sərt yeniliklər* hər hansı hadisə ilə **bağlı verilən** rəylərin spesifik ədəbi formasıdır. Bu forma üçün hadisədə **güclü yenilik** elementi və **yüksək** operativlik («bu dəqiqə baş verdi», «bax bu dəqiqə filan hadisə baş verir» və s.) əlamətləri xasdır.

***Çalışma 9. Qalın sait ahəngi olan sözləri göstərin.***

Plandankənar, sensasiya doğuracaq ən yeni hadisələr haqqında qısa xəbər *təcili xəbər* adlanır. Amerika KİV-ində seçkilərin gedişi haqqında buraxılışlar da daxil olmaqla bu janrda müxtəlif təcili xəbərlər verilir.

***Çalışma 10. Terminləri öyrənin.***

xəbər, xəbərlər xidməti, xəbər prodüseri, «xəbər biznes kimi», nyus-rum, nyusrayter, nyusmeyker, nyus-film, kapsul-xəbər, sərt yeniliklər, təcili xəbərlər



## §24. Xəbər (davamı)

***Çalışma 1. Sözləri hecalara bölün, heca növlərini müəyyənləşdirin.***

Çox böyük təsir oyadan hadisə, xəbər *sensasiya* adlanır. Dinləyici və tamaşaçıların diqqətini daha çox cəlb etmək üçün hər hansı hadisə və məlumat haqqında qeyri-adi təəssürat yaratmaqdır. Bəzən sensasiya, baş vermiş hadisənin mahiyyətindən çox, onun ekran-efir təqdimatında özünü göstərir.

***Çalışma 2. Nöqtələrin yerinə uyğun gələn şəkilçiləri qoyun.***

*Sensasiya doğuran xəbər* tamaşa...larda güclü hiss... doğuran və həmin hiss...in xarakter...dən asılı olaraq (iftixar, yaxud qəzəb) xoş və ya bəd təəssürat oyadan informasiya.... Bu, KİV-ə diqqətin cəlb olunma...na və auditoriya... genişlənmə...nə kömək etdiyinə görə telekompaniyalar öz reportaj...ına az və ya çox dərəcədə sensasiya doğuran xəbərlər daxil etm..ə çalışırlar.

***Çalışma 3. Konkret və mücərrəd isimləri seçin.***

*Şərh (kommentari)* KİV sistemində geniş ictimai maraq kəsb edən aktual siyasi, sosial-mədəni, elm, idman hadisələrinin, çıxış və sənədlərin mahiyyətini aydınlaşdıran operativ təhlildir (məs., siyasi şərh, elmi şərh, idman şərhi və s.). Burada jurnalistlərin əsas məqsədi faktları öz mülahizələri vasitəsilə dəqiqliklə ayırmaqdır. TV

şərhi kadrda aktual mövzuda analitik çıxışın növlərindən biridir.

***Çalışma 4. Cümlələri tamamlayın.***

*Reportaj* jurnalistikanın xəbər janrlarından biridir. Reportaj baş verən hadisələr haqqında dolğun, operativ .... O, hadisəni ..., onun konkret, real mənzərəsini .... Reportajda həm təsvir, həm də ümumiləşdirmə .... Onun üslubu canlı və oynaqdır. Reportaj üçün maraqlı bədii təfsilat, gözəl təsvir, müəllifin şəxsi təəssüratı ....

**Söz və ifadələr:** *təsvir edir, tələb olunur, informasiyadır, vardır, göstərir*

***Çalışma 5. Qara hərflərlə verilmiş sözlərə əks mənalı sözlər tapın.***

*Rəsmi məlumat (kommünike)* ölkənin daxili və xarici həyatında baş verən **vacib** hadisələr haqqında vətəndaşlara məlumat verən **rəsmi** sənəddir. Kommünike fransızca «communigue» sözündən olub, «rəsmi məlumat verilir» deməkdir. Rəsmi məlumatlar **qısa** və ya **genişlənmiş** formada radio və televiziyada «**yeniliklər**»də **verilir**, qəzetlərdə çap olunur.

***Çalışma 6. Söz birləşmələrini seçin.***

*Paparassi* bir çox ölkələrdə «kompromat» və məşhur adamların həyatından sensasiyalı, qalmaqallı məlumatlar axtarıb tapan fotojurnalistdir. Paparassiləri qeyri-adi görüntülər ovuna çıxmış bəd niyyətli peşə sahibləri adlandırmaq olar. Onlar çəkdikləri «qiymətli» fotoların müqabilində qəzet, jurnal, TV-lərdən yaxşı pul alırlar.



***Çalışma 7. Mötərizələri açın, sözləri lazım olan formada işlədin.***

*Reportyor* ən yeni, ən qaynar (xəbərlər) axtarıb-tapan və operativ şəkildə hazırlayıb efirə verən TV və radio müxbiridir. Qəzet, jurnal, radio, TV (redaksiyası), habelə məlumat (agentlik) həmin (təşkilatlar) lazım olan məlumatı operativ və dolğun şəkildə toplayıb xəbər verən əməkdaşıdır. Reportyor hər şeydən (xəbər tutmaq), məlumat toplayıb efirə (verməк) çalışır. (Reportyor) işinə verilən əsas tələblər aktual informasiyanı tez toplaması, operativlik, dəqiqliklə bağlıdır.

***Çalışma 8. Səhvləri düzəldin.***

Bəzən KİV-də fiziki və hükuqi şəxsdərin şərəf və ləyaqətini ləkələyən, böhtan və təhkir xaraqterli məlumatdar verilir, fikirrər təhrif olunur. Həmin şəxsin və ya nümayəndəsinin KİV-də 1 ay müddətində həkiqətə uyğun olmayan məlumatın *təkzib olunmasını*, habele üzr istənilmesini tələb etməy, məhkəməyə müraciət etməy hükuqu vardır.

***Çalışma 9. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| təsir oyatmaq | müəyyən enerjinin, gücün, hissin özünü göstərməsi |
| təəssürat yaratmaq | xarici aləmdəki əşya və hadisələrin insan şüurunda iz buraxması, ona təsiri |
| təqdimat | yazılı məlumat, müraciət |
| kəsb etmək | 1) çalışıb qazanmaq; 2) öyrənmək |
| mülahizə | fikir, rəy |
| analitik | analizə aid olan |
| dolğun | 1) dolmuş, şişmiş; 2) dolu; 3) gur, qüvvətli, güclü; 4) yetişmiş; 5) mənalı, zəngin məzmunlu, dərin; 6) tam, çox; 7) kövrəlmiş |

| | |
|---|---|
| operativ | 1) hərbi əməliyyata aid olan; 2) bir işi həyata keçirən; 3) işi düzəldən |
| oynaq | 1) oynayan, daim hərəkətdə olan; 2) şux, şən, gümrah; 3) ifadəli, təsirli, canlı |
| ümumiləşdirmə | 1) bir yerdə birləşdirmək; 2) ümumi fikir, nəticə |
| təfsilat | bir işin, hadisənin ən kiçik cəhətləri |
| kompomat | nüfuzdan salma, gözdən salma, adına ləkə gətirmə |
| qalmaqal | səs-küy, dava-dalaş, dedi-qodu |
| niyyət | məqsəd |
| görüntü | təsvir, şəkil |
| müqabilində | əvəzində, qarşılığında, qarşısında |
| xəbər tutmaq | soruşub bilmək, məlumat almaq |
| əməkdaş | 1) iş yoldaşı; 2) bir idarədə, müəssisədə çalışan şəxs |
| fiziki şəxs | fərdi vətəndaş |
| hüquqi şəxş | idarə, müəssisə və ya təşkilat |
| böhtan | iftira, birini ləkələmək |
| təhqir | adçalma, alçaltma, şərəfsiz etmə, mənliyinə toxunma |
| təkzib etmək | yalan olduğunu sübut etmək, bildirmək |
| ləkələmək | 1) ləkə salmaq: batırmaq; 2) birisinin adına, şərəfinə toxunmaq, hörmətdən salmaq |
| təhrif olunmaq | yanlış şəklə düşmə, mənası pozulma |

***Çalışma 10. Terminləri öyrənin.***

sensasiya, sensasiya doğuran xəbər, şərh, kommentari, reportaj, rəsmi məlumat, kommünike, paparassi, reportyor, təkzib



## §25. Mətbuat

Mətbuat sözü termin kimi, əsasən, dövri mətbuat mənasında işlədilir. O, kütləvi informasiya və təbliğatın əsas vasitəsidir. Mətbuat XV əsrin ortalarında Avropada meydana gəlmiş, əvvəlcə kitab tipli nəşrlərdən, XVII əsrdən başlayaraq daha çox qəzet və jurnal nəşrlərindən ibarət olmuşdur. Mətbuat elmi bilikləri yayır, maarif və mədəniyyəti inkişaf etdirir, ictimai rəyi və dünyagörüşünü formalaşdırır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| mətbuat | çap məhsulları; nəşriyyat, mətbəə işi |
| təbliğat | nəzəriyyə, ideya, biliyi və s. kütlə arasında yayma |
| vasitə | üsul, yol |
| meydana gəlmək | 1) meydana daxil olmaq; 2) ortaya çıxmaq |
| nəşr | 1) çap edib yayma; 2) dərc etmə, elan etmə; 3) çap edilmiş kitab, jurnal |
| ibarət olmaq | 1) düzəlmiş olmaq; 2) məzmununu təşkil etmək |
| yaymaq | 1) ətrafa səpələmək, dağıtmaq; 2) hamıya bildirmək; 3) paylamaq; 4) ətrafa saçmaq; 5) uzatmaq, açmaq, böyütmək |
| maarif | bilik, mədəniyyət |
| rəy | fikir, mülahizə, söz |
| dünyagörüşü | həyat, təbiət və cəmiyyət haqqında görüşlər sistemi |
| reportyor | qəzet, jurnal, radio, televiziya agentliyi işçisi |

| | |
|---|---|
| liliput | qeyri-normal, kiçikboylu adam; çox kiçik həcmli şey |
| qərara gəlmək | qərar çıxarmaq, qəbul etmək |
| sərfəli | xeyirli, faydalı, əlverişli |
| təbəqə | qat, lay |
| şayiə | yayılmış, dillərdə gəzən danışıq, söz-söhbət |
| dumanlandırmaq | 1) tüstü buraxmaq; 2) dumanlı etmək, görünməz hala salmaq; 3) üstünü örtmək |
| əhvalat | hadisə |
| qızışmaq | 1) qızmaq, istiləşmək; 2) daha da güclənmək; 3) hirslənmək |
| mübahisə | bəhs, deyişmə |
| tədbir | 1)bir şeyi əldə etmək üçün yol, vasitə, üsul; 2) təhlükədən qorunmaq üçün görülən hazırlıq |
| struktur | şəbəkə, qəfəs, quruluş |
| güdmək | 1) gizlicə birinin dalınca baxmaq; 2) qorumaq, qayğısına qalmaq |
| tənzimləmək | tənzim etmək, nizama salmaq, qaydaya salmaq |
| naşir | kitab və s. nəşr edən adam |
| suvenir | yadigar hədiyyə |
| prezentasiya | təqdimetmə, təqdimat |
| attaşe | diplomatik nümayəndəlikdə müəyyən sahə üzrə mütəxəssis kimi çalışan diplomatik işçi |
| sərəncam | əmr, göstəriş |
| korpus | 1) böyük binanın bir hissəsi; 2) iri qoşun birləşməsi; 3) bir hökumət yanındakı xarici dövlətlərin nümayəndələri |



| | |
|---|---|
| daşıyıcı | bir şeyi bir yerdən başqa yerə daşıyan maşın, qurğu |
| dolayısı ilə | düz deyil, başqa yollarla |
| məqsədəuyğun | məqsədə müvafiq olan, cavab verən, münasib |
| müvafiq | uyğun, münasib, yaraşan, uzlaşma |
| daimi | 1) uzunmüddətli; 2) həmişəlik, əbədi, sabit, dəyişməz; 3) arası kəsilməyən, həmişə davam edən |

***Çalışma 2. Altından xətt çəkilmiş şəkilçilər hansı zamana aiddir?***

İngiltərədə XVIII əsrdə jurnalistləri parlamentə buraxmırdılar. Amma reportyorlardan biri iclasların gedişindən xəbər verirdi. O, məlumatları qapıçılardan alırdı. Deputatları isə reportyor, Conatan Sviftin məşhur «Qulliver liliputlar ölkəsində» kitabındakı liliputların adı ilə təsvir edirdi. Siyasətçilər belə qərara gəldilər ki, jurnalistlərin parlamentin iclasında iştirak etmələri onlar üçün daha sərfəlidir. Deputatlardan biri jurnalistləri «4-cü təbəqə» adlandırdı. *«4-cü hakimiyyət»* ifadəsi yarandı.

***Çalışma 3. Səhvləri düzəldin.***

Yalançı, müxtəlif şayiələr yayan, ucuz sensasiya axtaran mətbuat *sarı mətbuat* adlanır. Bu mətbuatın məksədi oxucuların fikrini dumanlandırmak, onları ictimayi məsələlerin həllinnən uzaklaşdırmaktır.

1895-ci ildə Nyu-York qəzeti «Uorld» oxucu cəlb etməy məksədilə birinci səhifədə Amerika rəssamı Riçard Outkoltun çəkdiyi sarı köynəkli uşaq şəkli ilə çıxırdı. Şəklin altında bu uşağın dilinnən maraklı ifadələr, gülmeli əhvaladdar verilirdi. «Nyu-York cournal» qəzeti

də həmin şəkillə nəşr olunmağa başdadı. Hər iki qəzet arasında mübahisə qızıştı. «Nyu-York press» jurnalının redaktoru öz məqaləsində bu qəzetdəri «sarı mətbuat» adlandırdı.

***Çalışma 4. Tərcümə edin.***

*Mətbuat mərkəzi* beynəlxalq tədbirlər, konfranslar, festivallar, idman yarışları, yüksək səviyyəli səfərlər zamanı qısa müddətə yaradılan və ya hər hansı strukturda daimi fəaliyyət göstərən informasiya xidmətidir. Mətbuat mərkəzi KİV, habelə tədbir iştirakçıları və ictimaiyyət üçün informasiya hazırlayır.

***Çalışma 5. Qara hərflərlə verilmiş sözləri hallandırın.***

*Mətbuat konfransı* mətbuat, radio, TV nümayəndələrinin informasiya **almaq** məqsədilə müxtəlif strukturların nümayəndələri, hər hansı hadisə barədə **açıqlama** verən şəxslər, o cümlədən rəsmi şəxslərlə görüş formalarından biridir. Mətbuat konfransı hər hansı bir aktual ictimai-siyasi məsələ barədə mətbuat nümayəndələrinə məlumat (xəbər) **vermək** məqsədini güdür.

***Çalışma 6. Toplu isimləri tapın.***

*Mətbuat katibi* hər hansı dövlət və hökumət qurumunun, təşkilatın KİV və ictimaiyyətlə əlaqələrini tənzimləyən, KİV üçün məlumatlar hazırlayan və yayan, mətbuat konfransları və jurnalistlərlə görüşlərə aid informasiya, press-reliz və digər sənədlər hazırlanmasını təşkil edən şəxsdir. Mətbuat katibi bəzən press-attaşe funksiyasında çıxış edərək öz rəhbərinin mövqeyini açıqlaya bilər.



***Çalışma 7. Hal şəkilçilərini müəyyənləşdirin.***

*Press-reliz* mətbuat üçün məlumat, yığcam informasiya, dövlət orqanlarının, ictimai təşkilatların, mətbuat mərkəzlərinin və ya rəsmi şəxslərin mövqelərini, fikirlərini əks etdirən və KİV nümayəndələri arasında yayılması, çapı nəzərdə tutulan informativ sənəddir. Press-reliz, adətən, bir səhifədə çap edilmiş mətbuat xarakterli informasiyadan ibarət olur. Qəzet və jurnallarda (pulsuz) çap olunmaq üçün naşirlərə göndərilir, başqa reklam materialları, kiçik suvenirlərlə birlikdə mətbuat konfranslarında, simpoziumlarda, prezentasiyalarda, sərgilərdə paylanılır.

***Çalışma 8. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.***

Xarici səfirliklərdə mətbuat attaşesi, ... nümayəndəliyin yanında mətbuat məsələlərinə ..., yaxud həmin nümayəndəliyin sərəncamına göndərilən şəxsə *press-attaşe* deyilir. O, ... xadiminin (prezidentin, baş nazirin və ya ...) digər dövlətin diplomatik korpusunun yerləşdiyi ölkənin ... ilə müntəzəm əlaqə saxlayan nümayəndəsidir. Press-attaşe mətbuat ... nümayəndəsi olduğu təşkilatın, dövlət xadiminin mövqeyi, hadisələrə münasibəti barədə jurnalistlərə ..

**Sözlər:** *dövlət, jurnalistləri, diplomatik, məlumat verir, baxan, konfranslarında*

***Çalışma 9. Qara hərflərlə verilmiş sözləri kök və şəkilçiyə ayırın.***

*Mətbuat üçün informasiya* dedikdə, informasiya **daşıyıcısının** adını və **vəzifəsini** birbaşa göstərməklə onun dediklərinin hamısını sitat **gətirməyə** imkan verən **razılaşdırılmış** forma nəzərdə tutulur. Jurnalistin yazısında,

yaxud teleradio reportajında **açıqlanması** məqsədəuyğun olmayan informasiya *mətbuat üçün olmayan informasiya* adlanır.

***Çalışma 10. Qara hərflərlə verilmiş sözləri yaxın mənalı sözlərlə əvəz edin.***

Hər hansı dövlət təşkilatında (parlament, nazirlik və s.) və **özəl** qurumda KİV-ə informasiya vermək məqsədilə **fəaliyyət göstərən** struktura *mətbuat xidməti* deyilir. Onun **əsas** vəzifəsi jurnalistləri **müvafiq** informasiyalarla, baş verən **hadisələr** haqqında materiallarla (məlumat, foto) təmin etmək, görüşlər, mətbuat konfransları təşkil etməkdir. Vəzifəli şəxslərin yanında bu funksiyanı mətbuat katibi həyata keçirir.

***Çalışma 11. Terminləri öyrənin.***

mətbuat, «4-cü hakimiyyət», «4-cü təbəqə», «sarı mətbuat», mətbuat mərkəzi, mətbuat konfransı, mətbuat katibi, press-reliz, press-attaşe, mətbuat üçün informasiya, mətbuat üçün olmayan informasiya, mətbuat xidməti



## §26. Mətbuat (davamı)

***Çalışma 1. Ahəng qanununa tabe olan sözləri tapın, ahəng növünü müəyyən edin.***

1. Məlumatları toplayan, işləyən, qəzet, jurnal, radio, TV, nəşriyyat və s. idarələri müqavilə əsasında bu məlumatlarla təmin edən təşkilat *mətbuat agentliyi* adlanır. 2. *Mətbuat xülasəsi* qəzet və jurnal səhifələrində dərc edilmiş, diqqəti cəlb edən materialların toplusundan ibarət yazıdır. 3. Press-rileyşnz hər hansı dövlət və ya özəl qurumun fəaliyyətinin mümkün qədər geniş əks etdirilməsinə nail olmaq üçün mətbuatla daimi əlaqə deməkdir.

***Çalışma 2. Söz birləşmələrini seçin.***

Cəmiyyətlə, ictimaiyyətlə əlaqələrin yaradılması, ictimai informasiyanı idarəetmə sisteminə *pablik-rileyşnz* deyilir. Pablik-rileyşnz ictimai münasibətlərdir. Müəyyən ərazidə veriliş, onun istehsalçısı haqqında müsbət ictimai fikir yaratmaq məqsədi güdən tədbirlər kompleksidir. Bunun məqsədi nəzərdə tutulan auditoriyaya, korporativ maraqlara, ictimai rəyə təsir etmək, təşkilat haqqında müsbət imic yaratmaqdır.

***Çalışma 3. Sözləri hecalara ayırın.***

*Pablisiti* populyarlaşdırma, məşhurlaşdırma, əhalinin diqqətini cəlb etməyə yönəlmiş tədbirlər deməkdir. «Pablik-rileyşnz» vasitəsi kimi KİV-də geniş istifadə olunur. Pablisiti ictimaiyyətlə əlaqə və reklam mənasında da işlədilir.

*Çalışma 4. Aşağıdakı məlumatı öyrənin.*

Qəzetin hər bir buraxılışında bu *istinad məlumatları* olmalıdır: 1) nəşrin adı; 2) təsisçi barədə məlumat; 3) baş redaktorun soyadı və adı; 4) sıra sayı və çapdan çıxdığı tarix, çapa imzalanma; 5) rabitə idarələri vasitəsilə yayılan nəşrlərin indeksi; 6) tiraj; 7) qiymət, yaxud «sərbəst qiymət» və ya «pulsuz» qeydləri; 8) redaksiyanın və dövri nəşrin çap olunduğu mətbəənin ünvanları.

İstinad məlumatının göstərilmədiyi KİV məhsullarının çapı və yazılması qadağan edilir.

***Çalışma 5. Mətni diqqətlə oxuyun. Sadə və düzəltmə sözləri müəyyən edin.***

*Dövrilik* qəzet və jurnalın nəşr edilmə, radio və teleproqramın efirə getmə tezliyinə deyilir. Kütləvi informasiya vasitələrinin əsas xüsusiyyətlərindən biri ciddi dövrilikdir. Bəzi jurnallar ildə bir dəfə, bəziləri yarım ildə bir dəfə, bəziləri isə ildə dörd dəfə çıxır. Aylıq jurnallar da vardır. Qəzetlər, adətən, gündəlik, bəzən həftəlik olur. Dövrilik, eyni zamanda, radio və teleproqramın populyarlığının əsas səbəblərindən biridir.

***Çalışma 6. İsmi xəbərləri tapın.***

*Oçerk* jurnalistikanın ən azad janrıdır. Hekayəyə yaxındır. Oçerkin əsasını insanlar və hadisələr haqqında real təəssüratlar təşkil edir. Oçerk ilk dəfə XVIII əsrdə ingilis jurnalistikasında yaranıb.

Oçerk mini tədqiqatdır, müxtəlif fikirlərin qarşıdurmasıdır, həyatdakı maraqlı cəhətlərin axtarışıdır. Oçerk-portretdə qəhrəmanın xasiyyəti verilir, onun hərəkətləri



təsvir olunur. Yol oçerki müəllifin müxtəlif ölkə və şəhərlərlə görüşdən yaranan təəssüratları, müşahidələridir. XX əsrin 70 – 80-ci illərində oçerk ən populyar janrlardan biri idi.

***Çalışma 7. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| müqavilə | yazılı saziş, bağlaşma, sözləşmə |
| xülasə | 1) müxtəsər, bir sözlə; 2) qısa nəticə, məzmun; 3) nəticə, yekun |
| nail olmaq | əldə etmək, çatmaq, yetmək |
| ictimaiyyət | cəmiyyətin qabaqcıl hissəsi |
| istehsalçı | istehsal edən, hazırlayan adam |
| müsbət | 1) razılıq bildirən, bəyənilən; 2) yaxşı; 3) sıfırdan böyük |
| korporasiya | bir peşəyə və s. mənsub olan adamların ittifaqı, birləşməsi, cəmiyyəti |
| imic | 1) fikri təsəvvür; 2) rəmz, simvol |
| istinad | dayanma, əsaslanma |
| təsisçi | əsasını qoyan, yaradan, quran |
| mətbəə | kitab, qəzet və s. çap olunan müəssisə |
| qadağan etmək | icazə verməmək, yol verməmək, yasaq etmək |
| təəssürat | əşya və hadisələr , insan şüurunda əksi |
| qarşıdurma | münaqişə, mübahisə, konflikt |
| xasiyyət | 1) insanın təbiətində olan xüsusiyyət, xarakter; 2) bir şeyə xas olan hal |
| müşahidə | 1) diqqətlə baxma, nəzər yetirmə, seyr etmə; 2) diqqətlə baxaraq öyrənmə |

***Çalışma 8. Terminləri öyrənin.***

pablik-rileyşnz, pablisiti, istinad məlumatları, dövrilik, oçerk, mətbuat agentliyi, mətbuat xülasəsi, press-rileyşnz

## §27. Azərbaycan mətbuat tarixi

XIX əsrin II yarısında Azərbaycanın iqtisadi və ictimai inkişafı milli mətbuatın yaranmasını zəruri edirdi. Buna görə də görkəmli maarifçi Həsən bəy Zərdabi hökumətə müraciət edərək belə bir qəzetin nəşrinə çətinliklə icazə ala bilmişdi. Zərdabi qəzetin nəşri üçün İstanbuldan xüsusi ərəb mətbəə şriftləri gətirtmiş və 1875-ci ilin 22 iyulunda xeyli əziyyətdən sonra qəzetin ilk nömrəsi nəşr olunmuşdu. «Əkinçi» qəzetinin nəşri ilə milli mətbuatın əsası qoyuldu.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| zəruri | ən lazımlı, ən vacib, mütləq |
| maarifçi | mədəniyyət, bilik yayan adam |
| müraciət etmək | demək, xahiş etmək |
| şrift | mətbəə hərfləri |
| əsası qoyulmaq | başlanmaq |
| işıq üzü görmək | çıxmaq |
| tiraj | nüsxələrin sayı |
| dərc edilmək | qəzet və jurnalda çap olunmaq |
| qeyd olunmaq | 1) yazılmaq; 2) göstərilmək |
| şüur | 1) düşüncə, ağıl; 2) düşünmə qabiliyyəti |
| hesab edilmək | sayılmaq, bilinmək |
| əkinçi | əkən adam |
| kəşkül | hind qozundan düzəldilmiş qab |
| ziya | işıq, aydınlıq |
| fəaliyyətə başlamaq | işə başlamaq, işləmək |
| qərar | 1) nəticə; 2) fikir; 3) sözləşmə |
| əks etdirmək | göstərmək, ifadə etmək |
| nömrə | sıra sayı, rəqəm |



| | |
|---|---|
| bütöv | tam |
| haqsızlıq | ədalətsizlik, hüquqsuzluq |
| ifadə | anlatma, izah etmə, şərh |
| nüsxə | bir şeyin surəti |
| dildə gəzmək | məşhur olmaq |
| redaktor | kitab, qəzet, jurnal nəşrinə rəhbərlik edən adam |
| hakimiyyət | idarə etmək hüququ, hökumət, dövlət orqanları |

***Çalışma 2. Sağ üstundakı sözlərdən istifadə edərək cümləri düzəldin.***

... ... ... ... 1877-ci ilin 29 sentyabrına qədər nəşr edilən «Əkinçi» qəzetinin 56 sayı işıq üzü görmüşdür. ... ayda iki dəfə 300-400 tirajla nəşr olunub. ... ... Moskvadan Nəcəf bəy Vəzirov və Əsgər ağa Gorani, Şamaxıdan Seyid Əzim Şirvani və Məhəmmədtağı Əlizadə Şirvani, Dərbənddən Heydəri və Tiflisdən Mirzə Fətəli Axundovun məqalələri dərc edilirdi. ... ... respublikada «Mətbuat günü» kimi qeyd olunur.

qəzet

iyulun 22-si

1875-ci ilin 22 iyulundan

«Əkinçi» qəzetində

***Çalışma 3. III növ söz birləşmələrini tapın.***

1877-ci il sentyabrın 29-da «Əkinçi»nin nəşri dayandırılmışdı. Bundan sonra «Ziya», «Kəşkül» qəzetləri işıq üzü gördü. «Kəşkül» qəzeti ictimai-siyasi şüurun inkişafına kömək etmişdir. «Kəşkül» Azərbaycan xalqının inkişafı haqqında da məqalələr verirdi.

*Çalışma 4. Nöqtələrin yerinə lazım olan şəkilçiləri qoyun.*

Azərbaycan... çıxan ilk rus qəzeti «Bakinski listok» hesab edilir. Qəzetin ilk nömrə... 1871-ci il martın 19-da çıxmış, iyun ayında bağlanmış.... 1876-cı ildə Bakıda rus dilində iki... bir qəzet – «Bakinskiye izvestiya» nəşrə başlamışdır. Qəzet... məqsədi oxuculara Bakı quberniyası haqqında geniş məlumat vermək idi. 1888-ci ildən sonra qəzet «Bakinski torqovo-promışlennı listok» adı ilə çıx...dır.

*Çalışma 5. Səhvləri düzəldin.*

1894-cü ilin yanvarınnan «Bakinskiye qubernskiye vedomosti» adlı rəsmi dövlət qəzeti də faliyətə başlamışdır. Qəzet 1916-ncı ilə qədər çıxmışdır. Rusdilli qəzetdərin hamsında rəsmi xəbərrər, qərarrar, elannar və teleqramlar geniş yer tuturdu. Bakıda rus dilində çıxan qəzetdər içərisində «Kaspi» daha uzun müddət çıxmış, müxtəlif dövürlərdə cəmiyyətin həyatını əks etdirmişdir. Qəzetin 1881-ci ildən 1919-cuilədək 10 min nömrəsi çıxmışdır.

*Çalışma 6. Rəqəmləri sözlə yazın.*

«Molla Nəsrəddin» jurnalının ilk nömrəsi 1906-cı il aprelin 7-də çıxmışdır. Jurnalın yazıları bütöv bir millətə edilən haqsızlıqların satirik ifadəsi idi. 1-ci nömrə 1000 nüsxə tirajla çap olunub yayılandan sonra az müddətdə «Molla Nəsrəddin» adı dillərdə gəzməyə başladı. 2-ci nömrə 200 nüsxə tirajla çıxarıldı. Jurnalın redaktoru Cəlil Məmmədquluzadə idi. «Molla Nəsrəddin»in Tiflisdə 370, Təbrizdə 8 və Sovet hakimiyyəti qurulduqdan sonra Bakıda 398 nömrəsi çıxmışdır.



*Çalışma 7. Suallara cavab verin.*

1. «Əkinçi» qəzeti nə vaxt çapdan çıxıb? 2. Bu qəzeti kim nəşr etdirib? 3. «Əkinçi» qəzetinin neçə sayı çap olunmuşdur? 4. Burada kimin məqalələri verilirdi? 5. «Mətbuat günü» nə vaxt qeyd olunur? 6. «Əkinçi»dən sonra hansı qəzetlər çap olunub? 7. «Molla Nəsrəddin» jurnalı nə vaxt nəşrə başlayıb? 8. Onun redaktoru kimdir? 9. Jurnal harada çap olunub və neçə nömrəsi çıxıb?

## §28. Azərbaycan mətbuat tarixi (davamı)

***Çalışma 1. Aşağıdakı cümlələrdə sayın hansı məna növləri işlənib?***

1. «Şərqi-Rus» qəzeti XX əsrin ilk gündəlik Azərbaycan qəzetidir. 2. 1919-cu ildə 20-dən çox bolşevik qəzeti nəşr olunmuşdur. 3. «Kommunist» qəzetinin ilk nömrəsi 1919-cu il avqustun 29-da çıxıb. 4. «Şərq qadını» jurnalının 1-ci nömrəsi 1923-cü ilin noyabrında 40 səhifədən ibarət 1000 nüsxə tirajla çapdan çıxmışdır. 5. 1938-ci ildən «Şərq qadını» «Azərbaycan qadını» adı ilə nəşr olunmağa başlayıb.

***Çalışma 2. Altından xətt çəkilmiş birləşmələr hansı növə aiddir?***

1927-ci ilin fevralında «Pioner» jurnalı kütləvi tirajla çıxmışdır. 1934-cü il sentyabrın 2-də «Kommunist maarifi» qəzeti nəşrə başladı. 1938-ci ildə qəzet «Müəllim qəzeti» adlandırıldı. 1946-cı ilin aprelindən «Azərbaycan müəllimi» adı ilə yenidən nəşrə başladı. İdman mətbuatının ən böyük tarixə malik nəşri «İdman» qəzetidir. Sonrakı illərdə «Ədəbiyyat» (1933), «Azərbaycan pioneri» (1938), «Kirpi» jurnalı (1952), «Bakı» (1958) və s. qəzetlər meydana gəlmişdir.

***Çalışma 3. Verilmiş şəkilçiləri nöqtələrin yerinə qoyun: -ıb⁴, -dı⁴.***

Dirçəliş dövrü kimi tarixdə qalan 1989-cu ildə «Azərbaycan» qəzeti yaradıl.... «Azadlıq» qəzeti də



1989-cu il 24 dekabr tarixində işıq üzü gör.... 1990-cı ildə «Zerkalo», «Səs», 1991-92-ci illərdə «Yeni müsavat», «İki Sahil», «525-ci qəzet», «Yeni Azərbaycan» qəzetləri nəşr olunmağa başla.... Hazırda ölkədə 4500-ə yaxın mətbuat orqanı qeydiyyatdan keç....

***Çalışma 4. Altından xətt çəkilmiş sözlərin yazılışını izah edin.***

Azərbaycan mətbuatının ən böyük qollarından biri də uşaq mətbuatıdır. Bu sahənin yaranmasında N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Şaiq, Ü.Hacıbəyov, S.S.Axundov, R.Əfəndiyev, A.Səhhət, M.Mahmudbəyov kimi müəllim və yazıçıların xidmətləri olmuşdur. Onlar bədii yaradıcılıqla yanaşı, müəllimlik edir, dərslik, dərs vəsaitləri və proqramlar hazırlayır, dövri mətbuatda fəal iştirak edirdilər. «Maarif», «Qırmızı günəş», «Aydınlıq», «Qızıl Şərq», «Qızıl gənclik», «Gənc işçi», «Məktəb», «Pioner» və s. qəzet və jurnallar öz ətrafına böyük bir ziyalı dəstəsi toplamışdı.

***Çalışma 5. Mənsubiyyət şəkilçilərini tapın.***

İlk uşaq jurnalları «Dəbistan» (1906-1908), «Rəhbər» (1906-1907), «Məktəb» (1911-1920) uşaq mətbuatının inkişafına geniş yol açdı. «Rəhbər» jurnalının məqsədi yeniyetmələrin təlim və tərbiyəsi idi. «Məktəb» jurnalının ömrü daha uzun, mündəricəsi zəngin olmuşdur. Bu jurnal da yeniyetmələrin təhsil, təlim və tərbiyəsinə xidmət etmişdir. H.Cavid, Ə.Nəzmi, A.Səhhət, A.Şaiq və başqaları «Məktəb» jurnalının səhifələrində çıxış etmişlər.

Hal-hazırda «Göyərçin», «Elli», «Bala dili», «Yuva», «Göy qurşağı» və s. kimi jurnallar Azərbaycan uşaq mətbuatının ən yaxşı nümunələri hesab olunur.

***Çalışma 6. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| bolşevik | proletar inqilabı haqqında nəzəriyyənin tərəfdarı |
| dirçəliş | canlanma, inkişaf |
| qeydiyyat | yazılma, yazma |
| iştirak etmək | birlikdə fəaliyyət göstərmək |
| ziyalı | təhsilli, bilikli adam |
| dəbistan | ibtidai məktəb |
| rəhbər | başçı |
| yol açmaq | 1) birinci olmaq; 2) nümunə olmaq, yol göstərmək |
| yeniyetmə | gənc |
| təlim | öyrətmə, dərs vermə |
| mündəricə | məzmun |
| çıxış etmək | danışmaq, məlumat vermək |
| quberniya | vilayət |
| ömür | həyat |
| xidmət etmək | iş görmək |
| tərbiyə | 1) böyütmə; 2) gözəl əxlaq |
| təhsil | elm və bilik qazanma |
| meydana gəlmək | ortaya çıxmaq |
| dəstə | qrup, hissə |
| dövri | müəyyən vaxtda çıxan, təkrar olunan |



## §29. Qəzet

«Qəzet» sözünü italyan qəpiyinin adı ilə bağlayırlar: gazetta. Deyilənə görə, qəzet sözü XVI əsrin ortalarında Venetsiya tacirləri və onların müştərilərinə ticarət məlumatları çatdıran vərəqlərin qiyməti idi.

Qəzet işinin tarixi 1609-cu ildən başlanır. Məhz onda Almaniya, Strasburq və Ausburqda həftədə bir dəfə qəzetlər çap olunmağa başlayır. İlk rus qəzeti «Kurantı» (fransız sözü courant – «axan» deməkdir) 1621-ci ildən çıxmağa başlayıb. O, cəmi bir neçə nüsxədə nəşr edilirdi. Onun oxucuları, əsasən, çar və boyarlar olurdu.

22 iyul 1875-ci ildə Həsən bəy Zərdabinin səyi nəticəsində Azərbaycanda «Əkinçi» qəzeti nəşrə başlamışdır. Bu tarix Azərbaycanda Milli Mətbuat günüdür.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| müştəri | 1) alıcı, sifarişçi; 2) istəyən, arzu edən |
| nəşr etmək | çap edib yaymaq, dərc etmək |
| çar | rus padşahı |
| boyar | qədim Rusiyada yüksək rütbə və bu cür rütbəsi olan şəxs |
| səy | çalışma, cəhd |
| qeyd | qısa surətdə yazma |
| fakt | 1) olmuş hadisə, əhvalat; nümunə, misal; dəlil; 2) gerçəklik, reallıq, həqiqət |
| kifayətlənmək | razı qalmaq, özünü təmin olunmuş hesab etmək |
| məzmun | məsələ, mövzu; bir şeyin mənası, mahiyyəti |

| | |
|---|---|
| proqnoz | hadisənin gələcək inkişafı və nəticəsi haqqında fikir söyləmə |
| şaquli | yuxarıdan aşağıya enən; vertikal |
| sütun | 1) binalarda və s. mərmərdən, daşdan və s. düzəldilən hündür dirək; əsas, dayaq; 2) qəzetdə, kitabda və s. səhifənin bölünmüş hissələrindən biri |
| sanballı | 1) ağır, bərk, möhkəm; 2) güclü, təsirli, dərin, ciddi |
| layihə | 1) tikiləcək, yaradılacaq bir şeyin hazırlanmış planı; proyekt; 2) sənədin əvvəlcədən yazılmış mətni |
| ixtisara salmaq | 1) qısaltmaq, azaltmaq; 2) sayca azaltmaq; 3) işdən azad etmək |
| rubrika | bölmə, guşə; müəyyən mövzularda verilən yazılar guşəsi |
| səhifələmək | 1) kitabın, jurnalın, dəftərin və s. səhifələrini bir-bir çevirmək; 2) mətbəədə yığılmış mətni səhifələrə ayırmaq; 3) yazılı mətnin səhifələrini sıra ilə nömrələmək |
| yerbəyer etmək | hər şeyi öz yerinə qoymaq, səliqə ilə yığmaq, yerləşdirmək |
| təsəvvür yaratmaq | bir şey, adam haqqında bilik, tanışlıq yaratmaq |
| qrafik | işlərin görüləcək müddətini və normaları dəqiq göstərən cədvəl, plan |
| material | 1) cisim, şey, maddə; 2) məlumat, vəsait; sənədlər, kağızlar, yazılar |

***Çalışma 2. Hal şəkilçilərini göstərin.***

*Korrespondensiya* jurnalistikada «xəbər» janrlarından biridir. Qeyd və informasiyadan fərqli olaraq, hadisə



yerindən daha geniş alınmış məlumatdır. Korrespondensiyada ayrı-ayrı faktların gətirilməsi ilə kifayətlənmirlər, həm də onların yeri və məzmunu təyin edilir. Korrespondensiyalar, adətən, ciddi informasiya üslubunda olur. Bununla bərabər, korrespondensiyalar jurnalistə öz proqnozlarını və problemlərin həlli yollarını göstərməyə imkan verir.

***Çalışma 3. Sayları tapın.***

Qəzet və jurnal səhifələrində enli mətnləri oxumaq çox çətindir. Nəşriyyat təcrübəsində səhifəni bir neçə şaquli *sütunlara* bölmək qaydası vardır. Müasir iri formatlı qəzetlərdə səhifəni 6, 7 və yaxud 8 sütuna bölürlər. Belə hesab edilir ki, materialın 6 sütuna yerləşdirilməsi qəzetə sanballıq verir, 7 sütun səhifənin fantaziyasına böyük yer verməkdən xəbər verir, amma 8 sütun səhifəyə müxtəliflik gətirir.

***Çalışma 4. Qalın sait ahəngi olan sözləri göstərin.***

Jurnalistikada gələn nömrənin modelinə, onun layihəsinə *maket* deyilir. Fransızca «maquette» - model, layihə deməkdir. Kağızda hər materialın dəqiq ölçüləri qeyd edilir, əgər yerləşməsə, onda ixtisara salmaq lazım olur. Sonra materialları rubrikalara əsasən səhifələyirlər, başlıq və illüstrasiyaları yerbəyer edirlər.

***Çalışma 5. İndiki zaman fellərini tapın.***

Qəzetdə, kitabda hər hansı bir mətni daha da aydınlaşdıran, onu tamamlayan, vizual təsəvvür yaradan fotoqrafiya, şəkil, cədvəl, qrafik, sxem, xəritə və s. tipli təsvirlərə *illüstrasiya* deyilir. Latın sözü «illüstratio illüst-

rare» - aydınlaşdırmaq felindən əmələ gəlib. İllüstrasiya yalnız tərtibat elementi deyil, həm də mətnin mənasını aydınlaşdırır. Redaksiyaya daxil olan illüstrasiya materialları diqqətlə nəzərdən keçirilir, qəzetdə verilməsi lazım olanlar seçilir, onların üzərində ciddi iş aparılır. İnformativlik, ifadəlilik illüstrasiyaların əsas xüsusiyyətidir.

***Çalışma 6. Felləri kök və şəkilçiyə ayırın.***

*Qranka* müəllifə yenidən oxumaq və səhvlərin düzəlişi üçün verilirdi, sonra isə onları korrektor və redaktor yoxlayırdı. Yalnız bundan sonra səhəfələməyə keçilir, səhifələmədən sonra yenidən bir yoxlama keçirilirdi. Hər bir qrankada sətirlərin sayı 100-dən çox deyildi, ona görə də böyük materiallar bir neçə qrankadan ibarət olurdu.

***Çalışma 7. Terminləri öyrənin.***

qəzet, korrespondensiya, sütun, maket, illüstrasiya, qranka, səhifələmə, əlavə vərəq, keçirmə



## §30. Qəzet (davamı)

***Çalışma 1. Əvəzlikləri tapın.***

*Səhifələmə* nəşr üzərində aparılan ən məsuliyyətli və çox çətin iş proseslərindən biridir. Səhifələmədən sonra jurnal və ya qəzet, onların ayrı-ayrı səhifələri bitmiş formaya düşür. Savadlı səhifələmə oxucunun nəzərini dərhal çəkir, ona bələdçilik edir. Bunun da öz sirləri var. Ən çox istifadə olunan səhifələmə növü qarışıq səhifələmədir. Hər qəzetin öz səhifələmə prinsipləri var. Səhifələmə hər bir nəşrin üslubunu, onun orijinal və təkrarolunmaz sifətini yaradır.

***Çalışma 2. Cümlələri tamamlayın.***

Qəzet və ya jurnalın içərisinə qoyulmuş vərəq *əlavə vərəq* (adlanmaq). Bu vərəq oxuculara əlavə məlumat (vermək). Müxtəlif reklam əlavələri də çox (yaymaq). Əlavə vərəq nəşr içində (nəşr). Qəzetdən çıxarılsa, nəşrin tamlığına (xələl gəlməmək).

***Çalışma 3. Mətndəki isimləri təhlil edin.***

Başlıq, həm də materialı qabaqlayan qısa mətn *keçirmə* adlanır. Bu, sitat, şərh, şüar olur. Bəzən keçirmədə materialdan öyrəndiyimizin qıza məzmunu verilir. Keçirmənin əsas məqsədi oxucunu cəlb etməkdir. Buna görə də həmin parça kursiv, bəzən isə başqa gözəçarpan şriftlərlə verilir.

***Çalışma 4. Hansı sözlər yiyəlik haldadır?***

Azərbaycanda internet medianın inkişafı, əsasən, 1996-cı ildən başlamışdır. Ölkədə ilk internet medianın əsası Rusdilli KİV arasında «Zerkalo», Azərbaycandilli KİV arasında «Yeni Müsavat» qəzetləri tərəfindən qoyulmuşdur. «Turan» informasiya agentliyi də internet vasitəsilə informasiya yayımının bünövrəsini qoyanlardan hesab edilir. Sonralar «Azadlıq», «525-ci qəzet», «Ayna», Bizim Əsr», «Azərbaycan», «Zaman» qəzetlərinin, «Trend» informasiya agentliyinin internet ünvanları yaradılmışdır.

***Çalışma 5. Sağ sütundakı sözlərdən istifadə edib cümlələri düzəldin.***

| | |
|---|---|
| Azərbaycanda ilk elektron qəzet «Vətəndaş Cəmiyyəti» qəzeti .... Qəzet 1990-cı ildə ... .... «Bakuto-day.net» 2000-ci ildə fəaliyyətə başlamış İngilisdilli ilk onlayn .... Bu qəzet Qafqaz və Xəzəryanı bölgələr üçün İngilisdilli xəbərlər .... | qəzetdir<br>olmuşdur<br>qəzetidir<br>fəaliyyətə başlayıb |

***Çalışma 6. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| media | dövri mətbuat |
| əsasən | 1) ümumi cəhətdən; 2) görə |
| əsası qoyulmaq | başlanmaq |
| vasitəsilə | köməyi ilə, bir üsul ilə |
| bünövrə qoymaq | əsasını qoymaq |
| hesab edilmək | sayılmaq, bilinmək |
| yaradılmaq | düzəldilmək, törədilmək |
| fəaliyyətə başlamaq | işə başlamaq, işləmək |
| bölgə | ərazi |



| | |
|---|---|
| məsuliyyətli | məsuliyyəti olan; çox mühüm, əhəmiyyətli |
| nəzəri çəkmək | maraq oyatmaq, diqqəti cəlb etmək |
| bələdçilik | bələdçinin işi; yol göstərmək |
| təkrarolunmaz | tayı-bərabəri olmayan, təkrar edilə bilməyən |
| xələl gəlmək | ziyanı, zərəri olmaq; pozulmaq |
| sitat (latın.citatum) | olduğu kimi bir mətndən götürülmüş yazı |
| şüar | ideya, vəzifə və ya tələbi qısa və aydın şəkildə ifadə edən müraciət, çağırış; üstündə belə çağırış sözləri olan plakat |
| cəlb etmək | 1) çəkmək, özünə tərəf çəkmək; 2) bir işdə iştirak etdirmək; 3) maraq oyatmaq |
| kursiv | əlyazısına oxşar maili mətbəə şrifti |
| gözəçarpan | nəzərə çarpan, diqqəti cəlb edən, yaxşı xüsusiyyəti ilə başqalarından fərqlənən, seçilən, ayrılan |
| şrift | müxtəlif ölçüdə olan mətbəə hərfləri |
| qarışıq | 1) saf olmayan, müxtəlif ünsürlərdən ibarət; 2) bir yerdə, birlikdə; 3) anlaşılmaz, dolaşıq |

## §31. İntervü (müsahibə)

İntervü jurnalistikanın ən populyar janrlarındandır. Hərfi mənada «interview» - «görüş, söhbət» deməkdir. Jurnalistin siyasi, ictimai və digər xadimlə aktual məsələlər barədə müsahibəsidir. İntervü həm də fikir, fakt, məlumat mübadiləsi kimi də izah olunur. Həmsöhbətə yol tapmaq çətindir. Suallar elə qurulmalıdır ki, qəhrəmanın xüsusiyyətini və ya mövzunu aça bilsin. Burada söhbətə hazırlığın dərəcəsi, qulaq asmaq bacarığı böyük rol oynayır. İntervünün əsas şərtləri həmsöhbətə hörmətlə yanaşma və səmimilikdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| populyar | 1) sadə dildə yazılmız; kütləvi; 2) məşhur; geniş yayılmış |
| xadim | 1) xidmət edən; 2) xidmətləri olan şəxs |
| mübadilə | bir şeyi verib əvəzində başqa bir şey alma; dəyişmə |
| həmsöhbət | birisi ilə söhbət edən |
| yol tapmaq | əlaqə yaratmaq |
| yanaşma | 1) yanına, yaxınına gəlmək; yaxınlaşmaq; 2) yan almaq; 3) bir məsələyə və s. münasibət göstərmək |
| imkan vermək | əlverişli şərait yaratmaq, yol vermək |
| əmin olmaq | tamamilə inanmaq, inanıb rahat olmaq |
| məqam | 1) yer, məkan; 2) vaxt, zaman, münasibət, çağ; 3) vəzifə, rütbə; 4) hal, vəziyyət |
| nüfuz etmək | təsir etmək, işləmək, keçmək |
| meyar | ölçü |



| | |
|---|---|
| söhbətcil | söhbət etməyi sevən, maraqlı söhbətlər etməyi bacaran |
| etimad | etibar, inam, inanma |
| dolğun | 1) dolu; 2) dolmuş, şişmiş; 3) gur, qüvvətli, güclü; 4) yetişmiş; təcrübəli, hərtərəfli; 5) mənalı, dərin; 6) tam, çox; 7) kövrəlmiş |
| həlledici | bir şeyin inkişafını, gələcəyini təmin edən; başlıca, əsas, ən mühüm |
| yararlanmaq | faydalanmaq, istifadə etmək |
| leytmotiv | əsas mövzu; əsas fikir |
| axar | 1) daim axan; 2) cərəyan istiqaməti; 3) səlis, rəvan, ahəngdar |
| meyilli | 1) bir tərəfə, bir yana meyil edən, əyilən; 2) bir şeyə meyli, həvəsi olan |
| nüfuzlu | nüfuzu, hörməti, etibarı olan |
| sıravi | rəhbər işdə olmayan; adi |

***Çalışma 2. Suallara cavab verin.***

1. İntervü nədir? 2. Suallar necə qurulmalıdır? 3. İntervünün əsas şərtləri nədir? 4. İntervü nümunəsi hazırlayın.

***Çalışma 3. Şəxs şəkilçilərini göstərin.***

Jurnalistin obyektdə görüşdü ü (yaxud studiyaya dəvət etdiyi) şəxslə kameranı, yaxud diktofonu işə salmazdan əvvəl olan söhbəti ilkin müsahibə adlanır. *İlkin müsahibə* aparıcıya və ya reportyora imkan verir ki, hazırladığı sualların düzgünlüyünə əmin olsun, faktları bir daha yoxlasın, söhbətin mövzusu barədə müsahibində düzgün təsəvvür yaratsın və onu efirə psixoloji cəhətdən daha yaxşı hazırlasın.

*Çalışma 4. Mənsubiyyət şəkilçilərinin altından xətt çəkin.*

*İntervüyer* TV və radioda müstəqil jurnalist ixtisaslarından biridir. TV jurnalistindən, reportyordan fərqli olaraq, intervüyer psixoloji məqamlara xüsusi diqqət yetirməyi və mövzunun dərinliklərinə nüfuz etməyi bacarır. Müsahibəyə hazırlaşmaq səviyyəsinə və onu gerçəkləşdirmək metodikasına görə intervüyer işinin xüsusiyyətləri fərqli xarakter daşıyır. İntervüyerin intellekti, erudisiyası və aparıcılıq qabiliyyəti portret-müsahibələrdə daha çox üzə çıxır. Bu mənada Urma Ott (Estoniya), Barbara Uolters (ABŞ-NBC), Məmmədəli Birand (Türkiyə), Lari Kinq (ABŞ-CNN) və s. klassik intervüyerlər sayılır.

*Çalışma 5. Cümlələri tamamlayın.*

Müəyyən məsələ ilə bağlı müxtəlif müsahiblərin rəyini öyrənmək üçün aparılan sorğu *intervü-anket* .... Adətən, studiyadan kənarda .... Bu vəzifəni yerinə yetirən reportyor məqsədinə nail olmaq üçün adamlarla ünsiyyətə girməyi ..., onların rəğbətini .... İntervü-anket üçün seçilən ictimai rəy obyekti üç meyara ...: a) söhbətcil ...; b) ictimai maraq ...; c) əksəriyyətin etimadı səviyyəsində ....

**Söz və ifadələr:** *bacarmalı, adlanır, cavab verməlidir, durmalıdır, aparılır, olmalı, qazanmalıdır, doğurmalı*

*Çalışma 6. Təsirli felləri tapın və izah edin.*

*Bioqrafik müsahibə* müsahibin sosial portretini yaratmaq, onun xarakterini və gerçəkliyə münasibətini dolğun açıqlamaq məqsədilə aparılan müsahibədir. Hər hansı fərdlə qarşılıqlı etimad şəraitində söhbət zamanı onun həyatının maraqlı, həlledici epizodlarını, təəssüratlarını və s. aşkara çıxarmaq mümkündür. Jurnalistlər tez-tez bioqrafik müsahibədən yararlanırlar.



*Çalışma 7. Hal şəkilçilərini göstərin.*

Konkret mövzu ətrafında aparılan müsahibəyə *leytmotiv müsahibə* deyilir. Bu, həmsöhbətin (müsahibin) öz həyat tarixçəsini sərbəst formada, amma hadisələrin xronoloji ardıcıllığı ilə danışmasıdır. Leytmotiv müsahibə söhbətin təbii axarda inkişafına və jurnalistin səmimi mühit yaratmasına imkan verir. Müsahibə alan adam müsahibin ünsiyyətə, danışmağa meyilli olmasından istifadə etməlidir.

*Çalışma 8. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.*

*Protokol intervüsü* dövl..tin da...ili və xarici siyas...t məsələləri ilə bağlı rəsmi m...lumat almaq üçün aparılır. Bu intervün...n suall...rı əvvəlcədən hazırlanır və müəy...ən çərçivəd... aparılır. ıntervü v...rən çox va...t yüksək vəzifəli şəxs olur.

*Çalışma 9. Mücərrəd isimləri və peşə bildirən sözləri göstərin.*

1. *İntervü-fakt* hər hansı hadisə barədə müsahibə yolu ilə səlahiyyətli mənbədən məlumat alınmasıdır. 2. *İntervü-rəy* hər hansı bir məsələ ilə əlaqədar rəy bildirilməsi deməkdir. 3. *Rəy müsahibəsi* hər hansı konkret hadisə, fakt, məsələ barəsində səlahiyyətli və nüfuzlu

şəxsin (hüquqşünas, siyasətçi, konkret sahə üzrə mütəxəssis, alimin), yaxud sıravi bir fərdin rəyinin öyrənilməsi məqsədilə hazırlanan müsahibədir.

***Çalışma 10. Terminləri öyrənin.***

intervü, müsahibə, ilkin müsahibə, intervüyer, intervü-anket, bioqrafik müsahibə, leytmotiv müsahibə, protokol intervüsü, intervü-fakt, intervü-rəy, rəy müsahibəsi, həmsöhbət, müsahib



## §32. Kinematoqrafiya

**Kinematoqrafiya** kinofilmlərin istehsalını və nümayişini təşkil edən mədəniyyət və iqtisadiyyat sahəsidir. Kinematoqrafiya incəsənətin ən kütləvi növü olmaqla elmi və siyasi təbliğatın mühüm vasitəsidir. Kinematoqraf termini ilk dəfə fransız variantında Lümer qardaşlarının işləyib hazırladıqları və filmin yaradılması, göstərilməsi sistemi mənasını verən sinematoqraf şəklində üzə çıxmışdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| istehsal | hazırlama, hasil etmə |
| nümayiş | 1) kütləvi yürüş; 2) bir şeyin hamıya göstərilməsi; 3) bir şeyin varlığını göstərən |
| təbliğat | bir nəzəriyyəni, ideyanı, biliyi və s. kütlə arasında yayma, təbliğ etmə |
| variant | bir şeyin başqa bir şəkli |
| üzə çıxmaq | 1) gizlənməyib açıq yaşamaq; 2) müsbət xüsusiyyətləri ilə həyatda, cəmiyyətdə özünə layiq yer tutmaq; 3) aşkara çıxmaq, məlum olmaq; 4) adamlar arasına çıxmaq |
| təsnifat | eyni şey və ya anlayışların ümumi əlamətlərə görə bölünmə sistemi |
| epizod | 1) hadisə, əhvalat; 2) bədii əsərin bitmiş, müstəqil parçası |
| ssenari | 1) kinofilmin məzmununu şərh edən ədəbi əsər; 2) dram əsərinin planı |
| ritm | bir şeyin bu və ya başqa şəkildə növbələnməsi; ahəng |

| | |
|---|---|
| formalaşdırmaq | müəyyən forma vermək, müəyyən şəklə salmaq, təşkil etmək |
| növbələnmiş | bir-birinin ardınca gəlmiş |
| göz qoymaq | 1) hiss etdirmədən diqqətlə baxmaq, fikir vermək, müşahidə etmək; 2) nəzarət etmək, baxmaq |
| proza | 1) müəyyən nəsr əsərlərinin məcmusu; 2) adilik, maraqlı olmayan tərəf |
| əks etdirmək | göstərmək, ifadə etmək |
| qanunauyğunluq | hadisələr arasında mövcud olan zəruri əlaqə, obyektiv qanunlardan asılılıq |
| kinoşünaslıq | kino incəsənəti haqqında elm |
| rejissura | 1) rejissorun fəaliyyəti, işi; 2) tamaşanın, filmin quruluşuna rəhbərlik |
| sürətləndirilmiş | sürəti artırılmış, tezləşdirilmiş |
| yavaşıdılmış | gücü azaldılmış, zəiflədilmiş, sakitləşdirilmiş |
| təkmilləşmə | daha yaxşı hala gəlmək |
| baxış | 1) baxmaq tərzi, gözlərin ifadəsi; nəzər; 2) görüş, fikir |
| məqsəd daşımaq | müəyyən məqsədi olmaq, müəyyən məqsədlə edilmək |
| dekada | ongünlük |
| üzvlük | hər hansı bir qrupun, təşkilatın, birliyin və s. üzvü olma |
| maliyyələşdirilmə | pulla təmin edilmə |
| təşəbbüs | 1) bir işə başlama; 2) müstəqil, fəal hərəkət etmək qabiliyyəti |
| gerçəkləşdirilmək | reallaşdırılmaq, həqiqətə çevrilmək |



***Çalışma 2. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

*Kinematoqrafik plan* ob...ektlərin təsvirlərinin miqyasına görə təsnifatıdır. Rejissor kinematoqrafik plan seçməklə epizodun, yaxud ssenari parçasının izahını v...rir, hadisənin ritmini formalaşdırır. Hər bir kinofilm həm də ayrı-ayrı müstə...il səhnələrdən ibarət...ir. Kinematoqrafik plan elə bir manti...i ardıcıllıqla çəkilməlidir ki, hər bir epizod, yaxud növbələnmiş planlar ideyanı aydın şəkildə d...vam et...irsin.

***Çalışma 3. Felləri məsdər formasında yazın.***

*Kinematoqraf işığı* hər dəfə kameranın vəziyyəti dəyişiləndə işığın da yerinin dəyişdirilməsi və hər plandan ötrü yenidən işıq qurulmasıdır. Kinematoqraf işığı telequruluşçuya imkan verir ki, istehsal prosesinin davam etdiyi bütün müddətdə işığa diqqətlə göz qoysun. Düzdür, belə diqqət ayrıca vaxt tələb edir. Kinematoqraf işığının qurulması uzun və əziyyətli bir prosesdir.

***Çalışma 4. Hal şəkilçilərini göstərin.***

Kinematoqrafiyanın ədəbi yaradıcılıq sahəsi *kinodramaturgiya* adlanır. O, söz formə ında ortaya çıxır və dramatik, prozaik ədəbiyyatın bir çox vasitələrindən istifadə edir. Kinodramaturgiya öz süjetlərini onların sonrakı ekran həyatının vəzifələrinə uyğun olaraq yaradır, işləyib-hazırlayır və əks etdirir, kinonun spesifik xüsusiyyətlərini və imkanlarını nəzərə alır. Kinodramaturgiyanın əsas vəzifəsi ekran obrazlarını söz vasitəsilə yaratmaqdır.

***Çalışma 5. Qoşasaitli və qoşasamitli sözləri göstərin, tələffüzünə diqqət edin.***

*Kinoşünaslıq* kinonu bir incəsənət növü və kütləvi kommunikasiya vasitəsi kimi tədqiq edən, kino sənətinin spesifik xüsusiyyətləri, filmin ictimai mahiyyətinin qanunauyğunluqları haqqında elmdir. Kinoşünaslığın vəzifələrinə kinonun təbiətinin tədqiqi və onun inkişafı, kino dramaturgiyasının və rejissurasının ümumi prinsiplərinin işlənib hazırlanması, aktyor yaradıcılığının öyrənilməsi, kinematoqrafik düşüncənin, kinoda musiqi və səsin yaradıcılıqla izahı və s. daxildir.

***Çalışma 6. Dodaq ahəngi pozulan sözləri tapın.***

Kinoşünaslığın xüsusi vəzifəsi kinonu daxilən səciyyələndirən faktların və qanunauyğunluqların öyrənilməsindən ibarətdir: 1) bədii yaradıcılıq və estetik-informativ fəaliyyət sistemi kimi; 2) bu fəaliyyətin məhsullarının – kinofilmlərin məcmusu kimi. Kinoşünaslıq XX əsrin 20-ci illərində yaranmışdır. Kinoşünaslığa kino nəzəriyyəsi və tarixi, kino tənqidi və filmoqrafiya daxildir.

***Çalışma 7. Səhvləri düzəldin.***

Müğtəlif üsullardan istifade etməylə tesvirin sürətləndirilmiş, yavaşıdılmış kinoçekilişi, yaxut ayrı-ayrı kadrrara göre fotoqeydiyyatına *kinotədqiqat* deyilir. Kinotədqiqat mikroskop vasitəsilə infraqırmızı, ultrabənövşəyi, yaxut rentgen şüalarında çekilişdir.

***Çalışma 8. Mənsubiyyət şəkilçilərini göstərin.***

1. *Kino sənayesi* kinoköçürmə və kinotexnika sənayesi, kinoplyonka istehsalı sahəsidir. 2. *Kinoköçürmə sənayesi* kinoteatr və kinoqurğularda göstərmək üçün kinofilmlərin surətini hazırlayır. 3. Kinofilmin istehsalı, ço-



xaldılması və nümayiş etdirilməsi proseslərinin təkmilləşməsi və genişlənməsi nəticəsində yaranan texnika sahəsi *kino texnikası* adlanır. 4. Kino texnikasında fotoqrafiya, optika, mexanika, işıq texnikası, elektronika və s. istifadə olunur. 5. Kino texnikasının əsas texniki vasitələri kinoçəkmə aparatı, kinoproyektor və kinoplyonkadır.

***Çalışma 9. Nöqtələrin yerinə lazım olan sözləri qoyun.***

*Kinofestival* kino əsərlərinin yaradıcılıq ..., ekran əsərlərinə baxışdır. Kinofestival ən ... filmləri, kinematoqrafiyanın ... meyillərini üzə çıxarmaq, kinematoqrafçılar arasında əməkdaşlıq və ... mübadiləsi aparmaq məqsədi daşıyır. Bədii filmlər festivalları ilə yanaşı, xronika və sənədli, elmi-kütləvi, tədris, multiplikasiya filmləri kinofestivalları da .... Bəzən kinofestivallar dekada, kino aylığı, kino ..., kino günləri və s. adlanır.

**Sözlər:** *inkişaf, həftəsi, yaxşı, təcrübə, təşkil olunur, yarışı*

***Çalışma 10. Qalın saitlərin ahəngi olan sözləri tapın.***

*Kinoklub* kinotamaşaçıların və kino sənəti həvəskarlarının kütləvi təşkilatıdır. Kinoklub üzvlük haqqı hesabına maliyyələşdirilir. «7-ci incəsənət dostları» adlı ilk kinoklub 1920-ci ildə Fransada kinotənqidçi R.Kanudonun təşəbbüsü ilə yaradılmışdır.

***Çalışma 11. Altından xətt çəkilmiş şəkilçilər hansı şəkilçilərdir?***

*Kinofikasiya* kinonu yaymaq, təbliğ etmək, kino göstərmə işini genişləndirməkdir. Bu, kinoteatrlar və səyyar kinolar təşkil etmək, kino şəbəkəsi yaratmaq üçün

görülən tədbirlər, kinofilmlərin nümayişinin keyfiyyətinin daim artırılması deməkdir.

Kino və TV-nin texniki vasitələrindən istifadə etməklə obyektlərin çəkilişi və təsvirlərin ötürülməsi üsullarını gerçəkləşdirən texniki vasitələrin toplusu *kino-televiziya texnikası* adlanır.

***Çalışma 12. Terminləri öyrənin.***

kinematoqrafiya, kinematoqrafik plan, kinematoqraf işığı, kinodramaturgiya, kinoşünaslıq, kinotədqiqat, kino sənayesi, kinoköçürmə sənayesi, kino texnikası, kinofestival, kinoklub, kinofikasiya, kino-televiziya texnikası



## §33. Kino

Kino sənətinin, kinematoqrafiyanın və ya kinoteatrın ixtisar olunmuş şəkildə geniş yayılmış adı **kinodur**. Kino sənəti kinematoqrafiyanın texniki bazası və ifadə vasitələrindən istifadə əsasında yaranmış incəsənət növüdür. Kino sənəti sintetik sənət olub, ədəbi, rejissor, aktyor, musiqi yaradıcılığını və təsviri yaradıcılığı özündə birləşdirir. Kinoçəkiliş prosesi son nəticədə kinematoqrafik təsvirin alındığı yaradıcılıq prosesidir. Bu prosesdə bütün texniki imkanlar təsviri düşüncənin yerinə yetirilməsinə xidmət etməlidir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| sənət | peşə, iş, məşğuliyyət: incəsənətin qollarından hər biri |
| ixtisar olunmaq | azaldılmaq (miqdarına, həcminə görə) |
| baza | 1) bünövrə, əsas; 2) istinad nöqtəsi; 3) məhsul, material və s. saxlamaq üçün yer, anbar |
| sintetik | süni |
| yaradıcılıq | insanın fəaliyyəti; yaradılmış maddi və mənəvi sərvətlərin məcmusu |
| imkan | mümkünlük, mümkün olma; əlverişli şərait |
| pavilyon | yüngül tikili |
| interyer | binanın, mənzilin memarlıq və bədii cəhətdən tərtiblənmiş daxili hissəsi |
| sinxron | bir vaxtda, eyni zamanda olan |
| format | kitabın, səhifənin və s. ölçüsü |
| həvəskar | bir şeyə, işə həvəsi olan, hər şeyi sevən |

| | |
|---|---|
| elastik lent | sıxılıb buraxıldıqda əvvəlki şəklini alan bəzək və s. üçün işlədilən dar, uzun parça zolağı |
| perforasiya | 1) deşik açma; 2) deşik sırası |
| tipaj | 1) hər hansı məlumat növünün, modelinin məcmusu; 2) adamların hər hansı tipi üçün səciyyəvi əlamətlərin məcmusu |
| cızıq | xətt |
| sürtülmə | çəkilmə, yaxılma |
| zədə | toxunmaq, dəymək nəticəsində bir yerdə əmələ gələn əzik yeri, çapıq |
| həndəsi | xətlərdən, nöqtələrdən və sxematik fiqurlardan ibarət olan |
| zirvə | dağın ən yüksək nöqtəsi |
| kontakt | elektrik xətlərinin bir-birinə toxunması |
| obrazlılıq | obrazlı olma, ifadəlilik, canlılıq |
| instrumental | musiqi alətlərində çalınmaq üçün yazılmış |

***Çalışma 2. Mötərizədəki sözləri lazım olan formada işlədin.***

*Kinoçəkmə* (film) yaradılmasında ən mühüm mərhələdir. Kinofilm əsasən kinoçəkmə (aparat) ilə çəkilir. Çəkiliş (şərait) xarakterinə uyğun olaraq kinoçəkmənin bu növləri var: pavilyonda kinoçəkmə, kinostudiyadan kənarda (interyerlər) kinoçəkmə və naturadan kinoçəkmə. Texnoloji cəhətdən sinxron və «səssiz» olmaqla iki (qrup) bölünür.

***Çalışma 3. Rəqəmləri və ölçü vahidlərini sözlə yazın.***

*Kinoçəkmə aparatı (kinokamera)* obyektləri kinoplyonkaya çəkən optik-mexaniki qurğudur. İstifadə olunan kinoplyonkanın ölçülərinə görə 70 mm-lik (genişformatlı filmlər), 35 mm-lik (adi və genişekranlı), 16 mm-lik (TV, elmi, tədris və həvəskar) və 8 mm-lik (tədris və həvəskar) kinoçəkmə aparatları var. Hazırda kino çəkilişləri daha çox videokameralarla aparılır.

***Çalışma 4. Adlıq halda olan isimləri tapın.***

*Kinolent*, səthində bir neçə nazik təbəqə olan polimer plyonkalardan ibarət elastik çoxsaylı lentdir. Kinolent ümumiləşdirilmiş termindir, buraya kinoplyonka, kinofilm, film nüsxəsi və s. daxildir. *Kinoplyonka*, səthi işığahəssas təbəqə ilə örtülmüş, kənarları perforasiyalı, elastik, lentşəkilli materialdır. Ağ-qara və rəngli filmlərin istehsalında istifadə olunur.

***Çalışma 5. Mənsubiyyət şəkilçilərinin altından xətt çəkin.***

*Kinoulduz* XX əsrin əvvəllərində Amerika kinosunda yaranmış və Avropa kinematoqrafiyalarında yayılmış anlayışdır. Kino aləmində şöhrət tapmış, tamaşaçıların sevimlisinə çevrilmiş aktyor, aktrisa kinoulduz adlanır. Kinoulduz müəyyən mənada tipajdır.

***Çalı'ma 6. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

1. *Kinolentin formatı* onun eninə görə millim...trlərlə ölçü...üdür. 2. Lentin laboratoriya şəraitində işlənməsinin te...noloji pros...slərinin məcmusuna *kinolentin işlənməsi* deyilir. 3. *Kinolentin nəmlənməsi* nəmləndirmə buxarının kinolent... təsiridir. 4. Film quru y...rdə sa...landıqda lent asanlıqla qırılır, ona görə də nəmlənmə vacib sayılır. 5. Kinolentin səthində cızıqlar, sürtül-

m...lər şəklində me...aniki zədələr *kinolentin səthinin zədələnməsi («yağış»)* deməк...ir. 6. *Kinolentin sıxılması* kinolentdə gedən və onun həndəsi ölçüləri...i, fizi...i-me...aniki xassələrini dəyişən fizi...i-kimyəvi prosesdir.

***Çalışma 7. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.***

1. Kinofilmin bir ... fiksə edildiyi ayrıca epizod *kinokadr* adlanır. 2. *Kinokonsert* ayrı-ayrı konsert (musiqi) nömrələrindən ... filmdir. 3. ABŞ-ın əyləncəli kinofilmlər sənayesinin çiçəkləndiyi, şöhrət ... qalxdığı 1930-1960-cı illər *kinonun qızıl dövrü* sayılır. 4. Filmi kinolentə (videoya) ... şəxs *kinooperator* adlanır. 5. Filmlərin kinoteatrlarda nümayişi ilə ... adama *kinomexanik* deyilir.

**Sözlər:** *ibarət, çəkən, məşğul olan, səhnəsinin, zirvəsinə*

***Çalışma 8. Söz birləşmələrini göstərin.***

1. *Kino musiqisi* ekran əsərinə obrazlılıq gətirən ifadə vasitələrindən biridir. 2. Kino musiqisinə solo-instrumental nömrələr, vokal, simfonik əsərlər, xalq və peşəkar musiqi daxildir. 3. Filmin musiqi kompozisiyası müəllif-rejissor ideyası, əsərin janr və üslubi xüsusiyyətləri ilə müəyyənləşir. 4. Sənədli kinokadrlarla çəkilən yazılı tarixi mənbə *kinoskript* adlanır. 5. Kinoskriptin daha çox təsadüf olunan mətnləri: küçələrin adı yazılmış lövhələr, nümayiş və mitinqlərdə istifadə olunan şüar və plakatlar, afişalar, elanlar və s.-dir.



***Çalışma 9. Qara hərflərlə verilmiş sözlərə əks mənalı sözlər tapın.***

*Sənədli kino* **real** həyati fakt və hadisələr üzərində qurulan kino sənəti növüdür. Sənədli kino əsərləri olmuş hadisələrin kino çəkilişi materialları əsasında **yaradılır**. Sənədli kinonun kinoxronika və kinopublisistika kimi növləri var. *Kinoxronika* ölkə **həyatı** və tarix üçün mühüm əhəmiyyət kəsb edən **rəsmi** tədbirlərin, ictimai həyatda baş verən hadisələrin kinolentə çəkilməsi və **uzun** müddət saxlanmasıdır.

***Çalışma 10. Terminləri öyrənin.***

kino, kinoçəkmə, kinoçəkmə aparatı (kinokamera), kinolent, kinoplyonka, kinoulduz, kinolentin formatı, kinolentin işlənməsi, kinolentin nəmlənməsi, kinolentin səthinin zədələnməsi, kinolentin sıxılması, kinokadr, kinokonsert, kinoqeydiyyat, kinonun qızıl dövrü, kinooperator, kinomexanik, kino musiqisi, kinoskript, kinoxronika, sənədli kino

## §34. Kino (davamı)

***Çalışma 1. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

Kinematoqrafiya sahələrindən biri *elmi kinodur*. 4 növü var: elmi-kütləvi kino, tədris kinosu, elmi-tədqiqat kinosu, elm-istehsalat kinosu. Bütün ölkələrdə elmi kino müstəqil sahə təşkil edir. 1947-ci ildə yaradılan Beynəlxalq Elmi Kino Assosiasiyası bu sahənin inkişafına kömək edir.

***Çalışma 2. Altından xətt çəkilmiş sözlər quruluşca necə sözlərdir?***

*Elmi-kütləvi kino* elmi kino növlərindən biridir. Geniş tamaşaçı kütləsi üçün nəzərdə tutulur. Onun üç tipi var: elmi-kütləvi, elmi-publisistik və elmi-bədii. Bunlardan elmi-kütləvi filmlər daha geniş yayılmışdır.

***Çalışma 3. Mötərizələri açın, fellərin zamanını müəyyən edin.***

Elmi-kütləvi kino təbiət və humanitar elmlərin əsaslarını aydın şəkildə şərh edir, elm və texnikanın nailiyyətlərini təbliğ edir, alimlərin həyat və yaradıcılığı, elmi axtarışlar və kəşflər haqqında məlumat verir.

***Çalışma 4. Fellər hansı növdə işlənib?***

Elmi kinonun bir növü də *elm-istehsalat kinosudur*. Buna *texniki-təbliğat filmi* də deyilir. Elm-istehsalat kinosu ixtisaslaşmış auditoriya (məs., sənaye, inşaat, nəqliyyat və kənd təsərrüfatı işçiləri) üçün nəzərdə tutulur. Filmlər, adətən, sənədli materiallar əsasında yaradılır.



***Çalışma 5. Açıq heca ilə bitən sözləri tapın.***

Kino növlərindən biri də *genişekranlı kinodur*. Onun nümayişində adi ekrandan yox, enli ekrandan istifadə edilir. Bu, kino sənətinin təsvir imkanlarını genişləndirir, tamaşaçıya təsiri gücləndirir. Digər bir kino növü *genişformatlı kinodur*. Onun çəkilişində enli kino lentlərindən (50 – 70 mm) istifadə olunur.

***Çalışma 6. Nöqtələrin yerinə uyğun gələn hərfləri yazın.***

*Stereokino* ekranda... obyektləri həcmli kimi qavrama...a imkan v...rir. Onu çox va...t *həcmli* və ya *üçölçülü kino* da adlandırırlar. Film streoskopik üsulla, ayrı-ayrı iki nöqtə...ən ç...kilir.

***Çalışma 7. Səhvləri düzəldin.***

Səsli kinoda təsvirrər səslə (nitk, musiqi və s.) müşayiət olunur. XX əsirin 70-ci illərinədək kinomatoqrafiyada səsin təkkanallı yazılışınnan istifadə edilirdi. Müasir dövürdə stereofonik səs də geniş yayılıp.

***Çalışma 8. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| kütləvi | kütlə üçün, ger ş miqyasda |
| tədris | dərs vermə, dərs alma |
| tədqiqat | öyrənmə, araşdırma |
| istehsalat | 1) sənaye müəssisəsi, 2) istehsal olunan şeylər |
| təşkil etmək | düzəltmək, yaratmaq, qaydaya salmaq |
| müstəqil | sərbəst, ayrıca, xüsusi |
| tamaşaçı | baxan adam |
| nəzərdə tutulmaq | fikirdə tutulmaq |
| yayılmaq | genişlənmək, çoxlu yer tutmaq |
| humanitar elmlər | ictimai elmlər |

| | |
|---|---|
| şərh etmək | açmaq, anlatmaq, izah etmək |
| nailiyyət | yaxşı nəticə, müvəffəqiyyət |
| təbliğ etmək | bir fikri yaymaq |
| axtarış | axtarma, yoxlama |
| kəşf | tapılmış şey |
| ixtisaslaşmış | uyğunlaşmış, hazırlanmış |
| auditoriya | 1) mühazirə otağı; 2) mühazirə dinləyənlər |
| nümayiş | 1) kütləvi yürüş; 2) bir şeyin göstərilməsi |
| imkan | mümkün olma, şərait |
| təsir | 1) nüfuz; 2) müəyyən bir gücün özünü göstərməsi |
| gücləndirmək | daha güclü etmək |
| çəkiliş | çəkilmə |
| stereo | məkan |
| həcmli | böyük |
| qavramaq | başa düşmək, anlamaq, dərk etmək |
| imkan vermək | şərait yaratmaq, yol vermək |
| stereoskopik | həcmli, məkani |
| səsli | çox səs olan |
| müşayiət olunmaq | 1) ötürülmək, yola salınmaq; 2) bərabər getmək; 3) qorunmaq |

***Çalışma 9. Terminləri öyrənin.***

elmi kino, elmi-kütləvi kino, tədris kinosu, elmi-tədqiqat kinosu, elm-istehsalat kinosu, elmi-publisistik kino, elmi-bədii kino, texniki-təbliğat filmi, genişekranlı kino, genişformatlı kino, stereokino, üçölçülü kino, səsli kino



## §35. Film

Film ayrıca kino əsəridir. Peşəkar kinematoqrafiyada filmlərin bədii, multiplikasiya, xronikal-sənədli, elmi-kütləvi, tədris və s. növləri mövcuddur. Janrına və bədii yönümünə görə filmlər səssiz, səsli, ağ-qara, rəngli, genişekranlı, genişformatlı, panoramlı, stereoskopik, göstərilmə davamiyyətinə görə isə tammetrajlı və qısametrajlı kimi növlərə ayrılır. Filmlərin istehsalı kinostudiyalarda cəmləşdirilir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| multiplikasiya | şəkil və ya kuklaların kinoya çəkilməsi |
| stereoskopik | hər iki gözlə baxdıqda iki eyni şəkli bir şəkil kimi göstərən cihaz |
| cəmləşdirmək | cəmləmək, mərkəzləşdirmək, toplamaq, yığmaq |
| məcmu | 1) bütün, tamam, hamı; 2) yekun, cəm |
| köçürülmək | yerini dəyişdirmək; keçirilmək |
| tematik | müəyyən mövzuya aid |
| komplektləşdirmə | bir şeyin komp'ːktini düzəltmək |
| səyyar | hərəkət edən, gəzən, dolaşan |
| ekranlaşdırılma | kinoda göstərilmək üçün uyğunlaşdırılmaq |
| natura | 1) canlı nümunə, şəklini çəkmək üçün rəssamın qabağında duran adam; pavilyondan kənarda kinoşəkli çəkilən təbii şərait, yer. |
| neqativ | foto lentində bir şeyin təsirinə düşmüş şəkli |
| hərlədilmə | fırladılma |

| | |
|---|---|
| etalon | müəyyən edilmiş ölçü vahidinin dəqiq nümunəsi; əyar |
| siyahıyaalma | hər hansı bir şeyin kütləvi şəkildə qeydə alınması işi |
| arayış | 1) arama, axtarma; 2) bir şey haqqında şifahi və ya yazılı məlumat |
| annotasiya | qısa məlumat, izahat, şərh, xülasə |
| emal | hazırlama, düzəltmə |
| partiya | bir sinfin başqa siniflərələ mübarizəsinə rəhbərlik edən hissəsi |
| əhəmiyyət vermək | diqqət yetirmək |
| çevrilmək | 1) başqa hala salınmaq, döndərilmək; 2) istiqamətləndirilmək; 3) dönmək; 5) özünü çevirmək; 6) tərcümə olunmaq |

***Çalışma 2. Suallara cavab verin.***

1. Film nədir? 2. Filmlərin hansı növləri var? 3. Janrına görə hansı filmlər mövcuddur? 4. Film harada çəkilir? 5. Bəyəndiyiniz filmlər haqqında danışın.

***Çalışma 3. Söz birləşmələrini tapın.***

*Kinofilm* ayrıca kino əsərinə deyilir. O, vahıd süjetlə bağlı olan, çəkilmiş obyektin ardıcıl mərhələlərinin fotoqrafiyalarının (kadrlarının) məcmusundan ibarət kinematoqrafiya əsəridir. Kinofilm, eyni zamanda, kinolentə ardıcıl köçürülmüş və ekranda göstərilmək üçün tematik tam halında birləşdirilmiş təsvirlər məcmusudur.

***Çalışma 4. İsimləri tapın və təhlil edin.***

**Nümunə:** *bina – isim, tək, ümumi, konkret, adlıq halda*

Filmlərin nümayiş etdirilməsi üçün xüsusi daxili quruluşu olan ictimai bina (yaxud bina hissəsi) *kinoteatr*



adlanır. Kinoteatrın əsas hissəsi tamaşa zalıdır. Zalda güclü səsucaldan qurğular, kinoekran olur. İri kinoteatrlarda hava kondensionerlərindən (isidici və sərinləşdirici) istifadə olunur, divar və tavanlar akustik tələblərə cavab verir və zal dekorativ işıqlandırılır.

***Çalışma 5. Mürəkkəb sözləri yazın.***

1. *Kinoşəbəkə* filmlərin əhaliyə göstərilməsini həyata keçirən mədəni müəssisələrin birliyidir. 2. Kinoşəbəkə kinoteatrlardan, kino üçün uyğunlaşdırılmış klublardan və s. ibarət olur. 3. Film fondunun planlı surətdə komplektləşdirilməsi və filmlərin ölkə ərazisində əhaliyə göstərilməsi üçün səyyar vasitələrdən istifadə olunması *kinoprokat* adlanır. 4. *Kinoseans* filmlərin müəyyən proqram, yaxud cədvəl əsasında tamaşaçılara göstərilməsidir. 5. Adətən, kinoteatrlarda seanslar saat yarım, yaxud iki saat davam edir. 6. Yaradıcılığı kino ilə bağlı olan aktyora *kinoaktyor* deyilir.

***Çalışma 6. Qara hərflərlə verilmiş sözlərə əks mənalı sözlər tapın.***

*Film anbarı* film nüsxələrinir. **xüsusi** qəfəsələrdə və **müəyyən** texnologiyaya uyğun şəkildə mühafizə edilməsi üçün yerdir. Qəfəsələr hər biri 10 $m^2$-lik şöbələrə **bölünür**. Şöbələrin hər birində 100-dən **çox** film nüsxəsi yerləşdirilə bilər. *Filmoteka* isə kinofilmlərin **toplanması**, saxlanması, texniki cəhətdən işlənməsi, öyrənilməsi və **yayılması** ilə məşğul olan müəssisədir.

***Çalışma 7. Felləri kök və şəkilçiyə ayırın.***

*Film-tamaşa* kinonun ifadə vasitələrindən istifadə etməklə teatr tamaşasının ekranlaşdırılmasıdır. Çəkiliş zamanı hadisələr səhnədən kinostudiya pavilyonlarına və naturaya keçirilir. Film-tamaşalar montajla çəkilir. Bu da aktyor ifasının teatrdan fərqli texnikasını tələb edir.

***Çalışma 8. Nöqtələrin yerinə lazım olan şəkilçiləri qoyun.***

1. *Filmdən kadr* birbaşa film... neqativindən çıxarılan fotodur. 2. Ekrandakı təsvir...in keyfiyyətini aşağı salan qüsurlara *filmin defektləri* deyilir. 3. *Filmin geri fırladılması* filmin axırdan əvvələ hərlədilməsi prosesi.... 4. Kinoproyeksiya zamanı həddindən artıq qızma nəticəsində kinolent... burulması *filmin (lentin) qabarması* adlanır. 5. Film nüsxələri... kütləvi çapı üçün kinostudiyada neqativdən hazırlanan etalon *filmin yoxlama nüsxəsidir.*

***Çalışma 9. Qara hərflərlə verilmiş sözləri hansı sözlərlə əvəz etmək olar?***

*Filmoqrafiya* arayış xarakterli **işlərdə** filmlərin siyahıya alınması **üsullarını** və prinsiplərini öyrənən elm sahəsidir. Annotasiya olunan, tematik, xronoloji filmoqrafiya növləri **mövcuddur**. Filmoqrafiyalar sorğu-məlumat kitabçaları şəklində **tərtib olunur**.

***Çalışma 10. Cümlələri tamamlayın.***

*Kinostudiya* kinofilm istehsal edən .... Eyni zamanda həm bədii, sənədli-xronika, elmi-kütləvi, həm də tədris filmləri istehsal edən kinostudiyalar .... Ssenaridən başlayaraq hazır filmlərin surətinin çıxarılmasına qədər



bütün işlər kinostudiyada .... Filmin çəkilişində texniki-dekorativ qurğular şöbəsi, çəkiliş texnikası, film montajı, kinoplyonkaların emalı və surətlərin çıxarılması sexləri və s. .... Bədii filmlərin çox hissəsi kinostudiya pavilyonlarında ....

**Sözlər:** *mövcuddur, iştirak edir, müəssisədir, görülür, yaradılır*

***Çalışma 11. Mənsubiyyət şəkilçilərini göstərin.***

*Filmin səs effektləri* həyatdakı bütün səslərin köməyi ilə ekranda zəngin və gerçək səs mühiti yaratmağa xidmət edən ifadə vasitəsidir. Bu effektlər çox vaxt qəhrəmanların nitqi, musiqi ilə sıx əlaqədar olur. Filmlərdə səs effektlərinə xüsusi əhəmiyyət verilir. Bəzən filmin səs effektləri filmin ümumi ideyasını ifadə edir.

***Çalışma 12. Terminləri öyrənin.***

film, kinofilm, kinoteatr, kinoşəbəkə, kinoprokat, kinoseans, kinoaktyor, film anbarı, filmoteka, film-tamaşa, filmdən kadr, filmin defektləri, filmin geri fırladılması, filmin (lentin) qabarması, filmin yoxlama nüsxəsi, filmoqrafiya, kinostudiya, filn n səs effektləri

## §36. Filmin növləri

***Çalışma 1. İsmi xəbərləri tapın.***

*Dublyaj olunmuş film* səsli filmin başqa dildə səsləndirilməsidir. Dublyajın başlıca şərti ekranda aktyorun dodaqlarının hərəkəti ilə yeni mətnin tələffüzünün sinxronluğudur. Dublyajın bir səslə – diktor dublyajı; bir neçə səslə – aktyor dublyajı və ya geniş aktyor heyətinin ifasında səsləndirilməsi – tam dublyaj kimi növləri vardır.

***Çalışma 2. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

*Sözsüz film* kinematoqrafiyanın təşəkkülünün ilk il...ində qəbul olunmuş adıdır. XX əsrin 20-ci il...inin ikinci yarısınadək kino əsər...i sözsüz, yalnız təsvirdən ibarət olurdu. Bəzən bütün ekranı tutan yazı...dan (titr...dən) da istifadə edilirdi.

***Çalışma 3. Qara hərflərlə verilmiş sözlərin mənasını izah edin.***

Reallığın təbii rənglərini **çatdırmaq** üçün çoxrəngli təsvirlərdən **istifadə edilən** filmlər *rəngli film* **adlanır**. Kinematoqrafın texniki **imkanlarına** görə filmlər əvvəllər yalnız ağ-qara rənglərdə **çəkilib nümayiş etdirilirdi**. Yalnız XX əsrin 30-cu illərində ABŞ-da rəngli-fotoqrafik sistem vasitəsilə filmlər çəkilməyə **başlanılıb**.

***Çalışma 4. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.***

*Tədris filmi (kinosu)* elmi kino növlərindən biridir. Tədris və təlim prosesində ... vasitə kimi istifadə olunur. Məşğələ şəraitində tədris materialının qavranılması ...



olduqda tədris filminə müraciət edilir. Tədris filmində ... izahı tələb olunan hadisələri göstərmək, ümumiləşdirmə və mücərrəd şeyləri multiplikasiya vasitəsilə ... olur.

**Sözlər:** *dəqiq, köməkçi, əyaniləşdirmək, çətin*

***Çalışma 5. Mürəkkəb sözləri tapın.***

*Qısametrajlı film*, adətən, 4-5 hissədən (1200-1500 m) çox olmayan kinofilmdir. Əsasən sənədli (xronika, kinooçerklər və s.), elmi-kütləvi (o cümlədən tədris filmləri və film-mühazirələr) və multiplikasiya qısametrajlı filmləri çəkilir. Fikir dəqiqliyi və lakoniklik bu filmlərin dramaturji quruluşunun əsas xüsusiyyətlərini təşkil edir.

***Çalışma 6. Əlamət bildirən sözləri tapın.***

*Qorxulu filmlər* dünya kinematoqrafiyasının istehsal etdiyi, tematik cəhətdən geniş və rəngarəng filmlərdir. Qorxulu filmlər əsrarəngiz, anormal, xariqülədə təzahürləri təsvir edir və tamaşaçılarda qorxu, təlaş duyğuları oyatmağa xidmət göstərir.

***Çalışma 7. Söz birləşmələrini seçin.***

*Diafilm* pozitiv təsvirlərdən ibarət qısametrajlı filmdir. Diafilm, adətən, dönər (reversiv) rəngsiz və ya rəngli kinoplyonka üzərində alınır. Diafilmin başqa növü *mikrofilmdir*. Diafilmə filmoskop və ya diaproyektorla baxılır. Onun səsli olması üçün film diktor mətni və ya musiqi yazılmış fonoqram müşayiəti ilə nümayiş etdirilir. Diafilmdən tədris, mühazirə və təbliğat işlərində köməkçi vəsait kimi istifadə edilir.

***Çalışma 8. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

Filmotekalar... materialları əsasında hazırlanan film *montaj filmi* adlanır. Filmoteka kinoxronika... və sənədli kinoçəkiliş materialı... sistemli mühafizəsi ilə məşğul

olan təşkilatdır. Montaj filmlərində təsvir materialları... ustalıqla seçilməsi və ona münasib diktor mətni yazılması xüsusi əhəmiyyət kəsb edir.

*Çalışma 9. Sözlərin mənasını öyrənin.*

| | |
|---|---|
| səsləndirmək | musiqi alətini, zəngi və s. çalmaq, səsini çıxartmaq |
| ifa | bir işi icra etmə, həyata keçirmə, yerinə yetirmə |
| sinxron | eyni zamanda, bir vaxtda olan, baş verən |
| təşəkkül | müəyyən bir şəklə girmə; formalaşma |
| titr | kinolentdə yazı, izahedici və ya danışıq mətnləri |
| metraj | bir şeyin metrlə uzunluğu |
| tədris | dərs vermə; dərs oxuma, təhsil alma, dərs keçmə |
| təlim | öyrətmə, dərs vermə, oxutma, tədris |
| məşğələ | 1) öyrənmə, öyrənməklə məşğul olma; 2) məşq; 3) vaxt keçirmə |
| qavramaq | başa düşmək, anlamaq, dərk etmək |
| əyanilәşdirmək | aşkarlamaq |
| lakonik | qısa, yığcam, azsözlü |
| rəngarəng | müxtəlif rənglərdə olan, əlvan; müxtəlif, cürbəcür, növbənöv |
| əsrarəngiz | sirli, anlaşılmaz |
| xariqüladə | qeyri-adi, qeyri-təbii, bu vaxta qədər görünməmiş |
| təzahür | üzə çıxma, özünü göstərmə; ifadə |
| təlaş | həyəcan, təşviş, qorxu |
| dönər | dönən, çevrilən, fırlanan |
| müşayiət | yanınca getmə, ötürmə |
| nümayiş etdirmək | göstərmək, bildirmək, ifadə etmək, təzahür etdirmək |



| | |
|---|---|
| ustalıqla | məharətlə, bacarıqla |
| kəsb etmək | 1) çalışıb qazanmaq; 2) əldə etmək, qazanmaq, öyrənmək |

*Çalışma 10. Terminləri öyrənin.*

dublyaj olunmuş film, sözsüz film, rəngli film, tədris filmi, qısametrajlı film, qorxulu filmlər, diafilm, mikrofilm, montaj filmi, filmoteka

## §37. Filmin növləri (davamı)

***Çalışma 1. Oxuyun. Mətndə hansı ahəng növünün pozulması üstünlük təşkil edir?***

*Teatr filmi* kinoteatrların ekranlarında nümayiş etdirilən filmdir. Həmin film müəyyən müqavilə ilə kinoteatrlarda və TV-də, eləcə də disk formasında videodispley qurğularında ev şəraitində də göstərilə bilər.

***Çalışma 2. Söz birləşmələrini seçin.***

*Televiziya filmi* TV verilişləri şəbəkəsi ilə göstərilmək üçün yaradılan və xüsusi çəkiliş – montaj texnologiyası olan filmdir. Televiziya filmi bədii quruluşuna görə kinofilmlərdən fərqlənir. Bu filmin çəkilişində həm 35 mm, həm də 16 mm-lik neqativ və dönər kinoplyonkalardan istifadə olunur. Videonun meydana gəlməsindən sonra televiziya filmi, əsasən, videolentə çəkilir.

***Çalışma 3. Nöqtələrin yerinə uyğun gələn şəkilçiləri yazın.***

1. *Tammetrajlı film*, proyeksiyasının davamiyyətinə görə film... bütövlükdə əhatə edən kino əsəridir. 2. Yalnız monofonik səsyazma... ibarət olan kinolent *tonfilm* adlanır. 3. Sifarişlə çəkilən və konkret ünvan... olan (obyekt, yaxud subyekt) filmə *sifariş filmi* deyilir. 4. *Serial-film* üç və ya daha çox seriya... ibarət bədii, elmi-kütləvi və s. xarakterli filmdir.



***Çalışma 4. Mənsubiyyət şəkilçilərini göstərin.***

*Yoxlama filmi* ekranda təsvirin keyfiyyətinin yoxlanılması üçün nəzərdə tutulan filmdir. Proyeksiya filmi adlanan həmin nüsxə sınaq təsvirlərindən ibarət olur. Yoxlama proyeksiya filmlərinin ekranda göstərilməsi zamanı obyektivin keyfiyyəti yoxlanılır, filmin film kanalındakı davamlılıq səviyyəsi müəyyənləşdirilir.

***Çalışma 5. Sözləri hecalara ayırın.***

*Videofilm* kinolentə deyil, video lentinə çəkilən filmdir. Ötən əsrin 70-ci illərində TV-də yaranan videofilm kinofilmlərin əksər üslubi əlamətlərini əxz edib. Videofilmlərin janrları rəngarəngdir: bədii, elmi-kütləvi, sənədli-publisistik, xronikal və s.

***Çalışma 6. Nöqtələrin yerinə lazım olan sözləri qoyun.***

1. *Sənədli film* gerçək həyatdan alınan hər hansı bir ... canlandırıb əks etdirən kino növüdür. 2. Tamaşaçıların əylənməsi üçün çəkilən kəskin süjetli, ... hadisələrdən bəhs edən ekran əsərinə *macəra filmi* deyilir. 3. Rəsmli, yaxud həcmli ... (kuklalar və s.) ardıcıl hərəkət etdirilməsi ilə çəkilən kino sənəti növü *multiplikasiya filmi* adlanır. 4. *Musiqili film* musiqinin ... məna və kompozisiya funksiyalarını yerinə yetirdiyi kino əsəridir. 5. *Kassa filmi* – «blokbaster» kütlənin ... marağına səbəb olan, mövzusu və hay-küylü reklamı ilə fərqlənən kinofilmdir.

**Sözlər:** *qeyri-adi, geniş, hadisəni, mühüm, obyektlərin*

***Çalışma 7. Sözləri kök və şəkilçiyə ayırın.***

1. *Plakat filmi* təşviqat məqsədilə çəkilmiş, tematik, yüksək pafoslu filmdir. 2. *Paylot-film* telepanoram, rek-

lam çarxı, verilişdən ayrı-ayrı parçaların nümayişi əsasında hazırlanmış film-icmaldır. 3. *Qrant filmi* konkret layihənin (ideyanın) gerçəkləşdirilməsi üçün ayrılmış maddi vəsaitlə çəkilən filmdir. 4. Filmlər üçün qrantları beynəlxalq təşkilatlar və iri fondlar ayırır. 5. *Serial* vahid fabulalı çoxseriyalı telefilmdir.

***Çalışma 8. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| müqavilə | yazılı saziş; bağlaşma; sözləşmə |
| meydana gəlmək | 1) meydana daxil olmaq; 2) ortaya çıxmaq |
| davamiyyət | davametmə müddəti, qabiliyyəti |
| bütövlük | tamlıq, bir şeyin bütöv halı |
| əhatə etmək | dövrəyə almaq, dörd tərəfini tutmaq |
| nümayiş | 1) kütləvi yürüş; 2) bir şeyin hamıya göstərilməsi; 3) bir şeyin təzahürü, varlığını göstərən |
| sifariş | 1) bir şeyi hazırlamağı, gətirməyi tapşırma; 2) hazırlanması tapşırılan şey |
| elmi-kütləvi | elm və texnikanın nailiyyətləri ilə oxucuları aydın və sadə dillə tanış edən |
| yoxlama | 1) bir işin düzgün, qanuni olub-olmadığını araşdırma; 2) sınaq, imtahan, müayinə |
| keyfiyyət | 1) fərqləndirici xüsusiyyət, əlamət; 2) bir şeyin dəyərlilik dərəcəsi |
| nüsxə | yazılı bir şeydən çıxarılan surətlərdən hər biri |
| sınaq | sınama işi, imtahan |
| davamlılıq | dözümlülük, möhkəmlik |
| müəyyənləşdirmək | müəyyən etmək, təyin etmək, aydınlaşdırmaq, qəti şəklə salmaq, konkretləşdirmək, dəqiqləşdirmək |
| ötən | keçən, bundan əvvəlki, keçmiş |
| əksər | ən çox, lap çox, ümumiyyətlə |



| | |
|---|---|
| əxz etmək | almaq, götürmək, alıb mənimsəmək |
| əylənmək | 1) xoş vaxt keçirmək; 2) ələ salmaq, oynatmaq; 3) dayanmaq, durmaq |
| macəra | insanın başına gələn həyəcanlı hadisə, əhvalat |
| kompozisiya | 1) əsərin quruluşu və hissələri arasında qarşılıqlı əlaqə; 2) musiqi əsəri |
| hay-küy | səs-küy, qışqırtı, gurultu, dava, hay-haray |
| təşviqat | xalqa siyasi nüfuz göstərmək üçün şifahi və ya yazılı fəaliyyət |
| pafos | ehtiraslı ruh yüksəkliyi, coşğunluq, ilham |
| çarx | dairə; təkər |
| icmal | qısa məlumat, qısa şərh, xülasə |
| gerçəkləşdirmək | reallaşdırmaq, həqiqətə çevirmək |
| fabula | 1) bədii əsərin qısa məzmunu; 2) cinayət hadisəsinin məzmunu |

***Çalışma 9. Terminləri öyrənin.***

teatr filmi, televiziya filmi, tammetrajlı film, tonfilm, sifariş filmi, serial-film, serial, yoxlama filmi, videofilm, sənədli film, macəra filmi, multiplikasiya filmi, musiqili film, kassa filmi, blokbaster, plakat filmi, paylot-film, qrant filmi

## §38. Filmin növləri (davamı)

***Çalışma 1. Altından xətt çəkilmiş sözlər nədir?***

*Dedektiv filmi* gizli sərgüzəştləri təsvir edən ekran əsəridir. *Macəra filmi* tamaşaçıların əylənməsi üçün çəkilən kəskin süjetli, qeyri-adi hadisələrdən bəhs edən filmdir. *Stereoskopik kinofilm* xüsusi qurğular vasitəsilə nümayiş etdirilən və təsvir məkanının genişliyini təmin edən filmə deyilir.

***Çalışma 2. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.***

1. Bədii filmin çəkilişi ... aktyorların obrazlara uyğunluğunu dəqiqləşdirən yoxlama çəkilişləri *sınaq çəkilişi* adlanır. 2. *Quruluşçu operator* filmin ... yaradıcılarından biri, filmi lentə köçürən şəxsdir. 3. *Quruluşçu rəssamın* vəzifəsi filmin maddi mühitini yaratmaqdır. 4. *İcraçı prodüser* filmin istehsalına ... məsuliyyət daşıyır. 5. *Dialoqlar rejissoru* aktyorlara replikaları ... tələffüz etməyi öyrədir.

**Sözlər:** *görə, üçün, düzgün, əsas*

***Çalışma 3. Qapalı sait ahəngli sözləri seçin.***

Səsləndirmə təsvirlə səsin birləşdirilməsidir. *Səsləndirmə* dedikdə, filmin artıq çəkilmiş («sonradan səsləndirmə»), yaxud hələ çəkilməmiş («ilkin səsləndirmə») fraqmentinə səsin yazılışı başa düşülür. Daha geniş mənada, səsləndirmə diktor mətninin yazılışı, fonoqram kimi yazılış, musiqi yazılışı və s.-dir.



***Çalışma 4. Qara hərflərlə verilmiş sözlərə sual verin.***

Kinofilm fonoqramının **başqa** dildə yenidən yaradılması *dublyaj* adlanır. Dublyajın **bir neçə** növü var: diktor dublyajı, aktyor dublyajı və tam dublyaj. *Diktor dublyajı* bir səslə, *aktyor dublyajı* bir neçə səslə olur. **Geniş** aktyor heyətinin ifasında **səsləndirilmə** *tam dublyajdır.*

***Çalışma 5. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

Gündüz saat...ında verilən çoxseriyalı TV film...i *gündüz teleserialı* adlanır. Həmin teleserial... müəyyən kateqoriya tamaşaçı... üçün verilir. Bu film... sırasında «sabun operaları» əsas yer tutur.

***Çalışma 6. I növ söz birləşmələrini tapın.***

*«Sabun operası»* son illərdə yaranmış çoxseriyalı filmlərə verilmiş qeyri-rəsmi addır. Bu janrın adı sponsor firmalarının buraxdığı yeni sabun, yuyucu toz və buna bənzər məhsulların reklamlarından sonra formalaşmışdır. Sabun operaları çoxlu epizodlardan ibarət olur, film qəhrəmanlarının həyatından uzun-uzadı söhbət açır.

***Çalışma 7. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| sərgüzəşt | hadisə, əhvalat, macəra |
| təsvir etmək | 1) çəkmək; 2) danışmaq; 3) şərh etmək |
| macəra | həyəcanlı hadisə |
| əylənmək | xoş vaxt keçirmək |
| qurğu | alət, cihaz |
| nümayiş etdirmək | göstərmək, bildirmək |
| bəhs etmək | danışmaq, söhbət etmək |
| təmin etmək | 1) lazım olan şeyləri vermək; 2) inandırmaq |
| süjet | mövzu, məzmun |

| | |
|---|---|
| obraz | surət |
| uyğunluq | uyğun olma, düz olma |
| dəqiqləşdirmək | qəti müəyyənləşdirmək |
| yoxlama | araşdırma, imtahan |
| sınaq | yoxlama, imtahan |
| çəkiliş | çəkilmə |
| quruluşçu | tərtibatçı |
| icraçı | bir qərarı icra edən |
| məsuliyyət daşımaq | cavabdeh olmaq |
| replika | kiminsə etirazı |
| fraqment | qırıq, parça, hissə |
| səsləndirmək | səsini çıxartmaq |
| heyət | adamlar toplusu |
| ifa | bir işi yerinə yetirmə |
| kateqoriya | ən ümumi xüsusiyyətləri göstərən anlayış |
| yer tutmaq | rol oynamaq, mövqe tutmaq, əhəmiyyəti olmaq |
| formalaşmaq | düzəlmək, formaya düşmək, forma almaq, inkişaf etmək |
| epizod | hadisə, əhvalat |
| uzun-uzadı | çox uzun |
| söhbət açmaq | danışmaq |

***Çalışma 8. Terminləri öyrənin.***

detektiv filmi, macəra filmi, stereoskopik film, sınaq çəkilişi, quruluşçu operator, quruluşçu rəssam, icraçı prodüser, dialoqlar rejissoru, səsləndirmə, dublyaj, diktor dublyajı, aktyor dublyajı, tam dublyaj, gündüz teleserialı, sabun operası



## §39. Kadr

**Kadr** fotoqrafik çəkilişdir. Kadr dedikdə, həmçinin TV borusunun ekranındakı təsvir lentə də nəzərdə tutulur. **Montaj kadrı** ayrıca montaj parçasıdır, adətən, bir nöqtədən çəkilmiş, hadisənin bu və ya digər məqamından ibarət olan filmin tərkib hissəsidir. **Ssenari kadrı** ayrıca çəkilmiş hər bir səhnənin quruluş, yaxud rejissor ssenarisində məzmununun şərhi və ətraflı təsviridir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| kadr | kino və ya fotolentdə ayrı-ayrı şəkil, səhnə |
| məqam | 1) yer, məkan; 2) vaxt, zaman; 3) hal, vəziyyət |
| ssenari | kinofilmin məzmununu şərh edən ədəbi əsər |
| düzbucaqlı | bucağı düz olan |
| kəsik | kəsilmiş halda olan |
| üz tutmaq | 1) üzünü çevirərək demək; 2) yollanmaq, istiqamət almaq |
| süjet | mövzu, məzmun |
| mahiyyət | daxili məzmun, xüsusiyyət, əsil məna |
| parlaq | 1) parıldayan, işıq verən, parıltılı; 2) çox gözəl, əla, unudulmaz |
| fasiləsizlik | ara vermədən davam etmə |
| diaqram | qrafik təsvir, cədvəl |
| temp | bir şeyin həyata keçirilməsi, cərəyanı, sürəti |
| montaj | qurulma, toplanma |

| | |
|---|---|
| kəskin | 1) iti; 2) şiddətli, güclü; 3) aydın; 4) gərgin; 5) qəti |
| pərdələmək | qabağını örtmək, üstünü örtmək, gizlətmək, göstərməmək |
| epizod | hadisə, əhvalat |
| bütövləşdirmə | bütöv hala salınmaq |
| çərçivələnmiş | çərçivəyə salınmış |

***Çalışma 2. Yönlük halda olan isimləri tapın.***

1. Kinoproyektorun müəyyən ölçülərə malik düzbucaqlı kəsiyə *kadr pəncərəsi* deyilir. 2. İnsanın teleekran vasitəsilə kütləvi auditoriyaya üz tutması *kadrda çıxış* adlanır. 3. Kadrda çıxış zamanı insan əsas (çox vaxt yeganə) görüntü obyekti olur. 4. Kinokadrın sol və sağ tərəfləri arasındakı məsafə *kadrın enidir*. 5. Kinokadrın yuxarı və aşağı tərəfləri arasındakı məsafəyə *kadrın hündürlüyü* deyilir.

***Çalışma 3. Mətni tərcümə edin.***

*Kadrdaxili musiqi* filmin süjeti və süjetdə açıqlanan hadisədə iştirak edən şəxslərlə bağlı musiqi müşayiətidir. Bu zaman iştirakçılar mahnı oxuya və ya hər hansı musiqini ifa edə bilərlər. Kadrdaxili musiqi hər hansı ekran əsərinin səs sırasını göstərir.

***Çalışma 4. Sözlərin vurğusunu müəyyənləşdirin.***

*Kadrarxası musiqi* filmin təsvirlə bağlı olmayan musiqi müşayiətidir. Bu musiqinin səslənməsi kənar səbəblə bağlı deyil, ekranda göstərilənin emosional mahiyyətini parlaq və tam əks etdirir.

***Çalışma 5. Sözləri kök və şəkilçiyə ayırın.***

Multiplikasiyaların, yazıların, hərəkətli diaqramların və s. çəkilişi zamanı geniş istifadə olunan üsula *kadrbakadr çəkiliş* deyilir. Bu cür çəkiliş ekranda hərəkəti



tezləşdirməyə imkan verir. Kadrbakadr çəkilişdə hərəkət tempini və hər bir kadrda baş verən dəyişiklikləri müəyyənləşdirmək vacibdir.

***Çalışma 6. Nöqtələrin yerinə lazım olan şəkilçiləri qoyun.***

Filmin kadrı... daha mənalı həlli üçün seçilən təsvir kəsiy..., planı... *kadrlaşdırma* deyilir. Kadrlaşdırmanı çəkiliş zamanı operator həyata keçirir. Teleekranın üfüqi xət...lə çərçivələnmiş düzbucaqlı forması *kadr çərçivəsi* adlanır.

***Çalışma 7. Verilmiş cümlələrdə hansı ahəng növləri var?***

1. *Bağlayıcı kadr* montaj zamanı hərəkətlər arasında kəskin fərqləri pərdələmək üçün istifadə olunur. 2. Kinokadrın bir hissəsi *əks kadr* adlanır. 3. *İlkin kadr* uzun, yaxud uzaq plandan çəkilən kadrdır (adətən, epizodun əvvəlində çəkirlər). 4. *Stop-kadr* ekranda kadrın dayandırılmasıdır. 5. Montaj vaxtı hər hansı epizodun bütövləşdirilməsi üçün istifadə olunan köməkçi, əlavə kadrlara *yardımçı kadrlar* deyilir.

***Çalışma 8. Terminləri öyrən ı.***

kadr, montaj kadrı, ssenari kadrı, kadr pəncərəsi, kadrda çıxış, kadrın eni, kadrın hündürlüyü, kadrdaxili musiqi, kadrarxası musiqi, kadrbakadr çəkiliş, kadrlaşdırma, kadr çərçivəsi, bağlayıcı kadr, əks kadr, ilkin kadr, stop-kadr, yardımçı kadr

## §40. Operator sənəti

**Operator** TV və kinoda yaradıcı qrupun üzvü, kinoçəkən, kinooperator, filmi kinolentə (videoya) çəkən şəxsdir. Operator sənəti kino və TV sənətinin yaradıcılıq sahəsi, rejissor və rəssamla birlikdə kino formalarının yaradılmasıdır. Kadrda əşyalar və onların detalları, hadisələr, ayrı-ayrı elementlər, jest, mimika, müxtəlif hərəkətlər, onların tempi və sürəti, optik «yekəltmə»lər və s. qeyri-adi plastik formalarda təsvir oluna bilər. Kinokadrların təbiiliyi üçün hərəkət edən kamera, xüsusi rakurslar, işıqlandırma və s. tətbiq olunur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| yaradıcılıq | yaradıcı əməyin məhsulu, yaradılmış maddi və mənəvi sərvətlərin məcmusu, insanın fəaliyyəti |
| detal | 1) ən xırda təfərrüat; 2) maşın və mexanizmin hissələri |
| yekəltmə | böyütmə, iriləşdirmə, şişirtmə, böyük tutmaq |
| faktura | incəsənət əsərlərində bədii üsulun xüsusiyyəti |
| rol oynamaq | əhəmiyyəti olmaq, təsiri olmaq, hər hansı bir yolla təsir göstərmək |
| fiqur | 1) bir iş görərkən birinin və ya bir şeyin aldığı vəziyyət; 2) rəssamlıqda insan və ya heyvan təsviri, surət, tip; 3) bədən quruluşu |
| əhatəli | geniş, hərtərəfli, əhatə dairəsi geniş olan |



| | |
|---|---|
| assistent | mütəxəssis köməkçisi |
| kran | boru şəklində lüləyi olan cihaz; 2) qaldırıcı maşın |
| təyinat | təyin etmə, göndərmə |
| bərkidilmək | 1) bərk hala gətirilmək; 2) bağlanmaq, qapadılmaq, qıfıllanmaq |
| dayaq | 1) dəstək ola biləcək hər şey; 2) kömək, arxa, himayəçi |
| quraşdırılmaq | 1) düzəldilmək, yığılıb qurulmaq, birləşdirilmək; 2) özündən uydurulmaq |
| təqdirdə | şərt bildirir; ... halda, əgər ... |

***Çalışma 2. Qara hərflərlə verilmiş sözləri kök və şəkilçiyə ayırın.***

Operator sənətinin əsasını kino **çəkilişi** obyektinin (memarlıq formaları, dekorasiya, interyer) düzgün **işıqlandırılması** təşkil edir. Kino kamerası ekranda materialın rəngi və fakturasını, fiqurların həcm və formalarını hərəkətdə **canlandırır**. Buna görə də ağ-qara filmlərdə, eləcə də rəngli filmlərdə müxtəlif işıqlandırma **dərəcəsindən** istifadə olunur.

***Çalışma 3. Sözləri hecalara ayırın, növlərini müəyyənləşdirin.***

*Operator kranı* kino və TV çəkilişi zamanı obyekti daha geniş və əhatəli göstərmək üçün operatorun istifadə etdiyi xüsusi qurğudur. Operator kranı klip və reklam çəkilişlərində daha geniş istifadə olunur. *Operatorlar qrupu* TV-də filmlərin, yaxud müxtəlif verilişlərin çəkilişi prosesində iştirak edən operatorlardan, onların assistentlərindən, köməkçilərindən ibarət qrupdur.

*Çalışma 4. Açıq sait ahəngi pozulan sözləri tapın.*

*Normal çəkiliş tezliyi* peşəkar kinematoqrafiya üçün saniyədə 24 kadr, TV üçün isə saniyədə 25 kadr təsdiq olunmuşdur. Bəzi hallarda sürəti saniyədə 32 kadrdan artıq tezlik ilə kinoçəkiliş aparmaq lazım olur. Bu zaman xüsusi təyinatlı kinoçəkiliş aparatlarından istifadə olunur.

***Çalışma 5. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

*Kamera işığı* kamera...a bərkidilən və çəki...iş qrupunda işıq cihazını idarə edən adam olmayanda, operator çəki...iş oby...ktinə sabit, həm də birbaşa işıq salmaq ist...mədikdə işlən...n işıqdır. Kamera işığından videojurnalistikada çox istifadə ...dilir. Çəki...işi ev şəraitində, hər hansı binanın iç....risində apararkən iri döşəmə dayaqlarından istifadə mümkün olmadı...da bu işıq çox faydalı...ır.

***Çalışma 6. k samitinin tələffüzünə diqqət edin.***

*Kamera mikrofonu* ikinci səs kanalına girişi müəyyən etmək üçün istifadə edilən açardır. Kamera...ın üzərinə quraşdırılan xüsusi mikrofon istifadə olunduğu təqdirdə açar «Camera» vəziyyətinə gətirilir. Bu vəziyyətdə mikrofonun çıxışı kameranın kabelinin üzərindən ikinci səs kanalına bağlanılır.

***Çalışma 7. Aşağıdakı sözləri cümlələrdə işlədin.***

televiziya, mətbuat, informasiya, film, mühüm, həyata keçirmək, sorğu

***Çalışma 8. Terminləri öyrənin.***

operator, operator sənəti, operator kranı, operatorlar qrupu, normal çəkiliş tezliyi, kamera işığı, kamera mikrofonu



## §41. Operator sənəti (davamı)

***Çalışma 1. Sifətləri tapın və izah edin.***

1. *Rapid-çəkiliş* sürətli kinoçəkilişdir. O, saniyədə yüz və minlərlə tezlikli kadr çəkilişidir. 2. Həcmcə kiçik cismin böyük təsvirini verən çəkilişə *təfərrüat çəkilişi* deyilir. 3. Obyektin tam görüntüsünü almaq üçün kameranın tədricən hərəkət etməsi *üfüqi panoram çəkilişi* adlanır. 4. *Trük kinoçəkilişləri* ekranda qeyri-adi effektlərin alınmasına imkan verir.

***Çalışma 2. Nöqtələrin yerinə lazım olan sözləri yazın.***

*Yazıların kinoçəkilişi* həm səssiz, həm də səsli filmlər üçün ... olan yazıların çəkilişidir. Yazı ... müəllif izahından ibarət olur, bəzən isə nitqi əvəz edir. Səsli ... yazı, əsasən, filmin adını, müəlliflərin və iştirakçıların soyadlarını bildirir. ... əvəz edən yazılar yığcam olmalıdır.

**Sözlər:** *çox vaxt, nitqi, zəruri, kinoda*

***Çalışma 3. Əks mənalı sözləri tapın.***

*Uzaqlaşdırma-yaxınlaşdırma (zoom)* – çəkiliş zamanı kameranın irəliyə, yaxud geriyə hərəkəti ilə fokus məsafəsinin dəyişdirilməsidir. Uzaqlaşdırma iri plandan ümumi plana keçərək obyektin kiçildilməsi, yaxınlaşdırma isə obyektin böyüdülməsi və tamaşaçıya yaxınlaşdırılması deməkdik.

***Çalışma 4. Zaman çəkilişindən istifadə edib cümlələri tamamlayın.***

*Videokamera* və *kinokamera* çəkiliş aparatlarıdır. Videokamera təsviri və səsi maqnit lentinə köçür..., ya-

xud birbaşa efirə ver.... Videokameranın *stasionar* (studiya üçün, təkərli) və *mobil* (çiyində, əldə işlətmək üçün) növləri mövcuddur. *Sinxron kinokamera* eyni zamanda həm obyektin təsvirini çək..., həm də lazımi səsi (danışıq, səs effekti) yaz....

***Çalışma 5. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

*«Animasiya»* canlanma, multiplikasiya deməkdir. Bu, videokameralarda istifadə olunan multiplikasiya funksiyasıdır. Multiplikasiya vasitələri ilə personajlar... deyil, yağış..., tüstü..., işığ..., su... və s. hərəkətləri... təsviri *animasiya effekti* adlanır.

***Çalışma 6. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| sürətli | çox iti |
| kadr | kino və ya fotolentdə ayrı-ayrı şəkil |
| təfərrüat | bir şeyin ən kiçik cəhətləri |
| görüntü | şəkil, təsvir |
| tədricən | yavaş-yavaş, az-az |
| panoram | geniş mənzərə |
| trük | cəld üsul, mürəkkəb manevr |
| imkan vermək | şərait yaratmaq, yol vermək |
| zəruri | ən lazımlı, ən vacib, mütləq |
| müəllif | əsər yazan, layihə yaradan adam |
| nitq | danışma |
| əvəz etmək | 1) yerini tuta bilmək; 2) dəyişdirmək |
| iştirakçı | bir işdə iştirak edən adam |
| soyad | familiya |
| yığcam | qısa, toplu, kiçik |
| fokus | bir şeyin toplandığı yer, mərkəz |
| məsafə | iki nöqtənin arası |
| dəqiqləşdirilmə | qəti müəyyənləşdirilmə |
| təsvir | 1) şəkil, rəsm; 2) danışma; 3) ifadə etmə |



| | |
|---|---|
| birbaşa | durmadan, bilavasitə, düz |
| stasionar | sabit, yerini dəyişməyən |
| lazımi | vacib və lazım olan, zəruri |
| mobil | hərəkətli, sürətlə hərəkət edən |
| personaj | surət, tip |
| canlanma | dirilmə, dirçəlmə, fəallaşma, oyanma |

***Çalışma 7. Terminləri öyrənin.***

rapid-çəkiliş, təfərrüat çəkilişi, üfüqi panoram çəkilişi, trük kinoçəkilişləri, yazıların kinoçəkilişləri, zoom, videokamera, kinokamera, stasionar videokamera, mobil videokamera, sinxron kinokamera, animasiya, animasiya effekti

## §42. Operator sənəti (davamı)

***Çalışma 1. Nöqtələrin yerinə uyğun gələn sözləri yazın.***

1. *Çoxkameralı videoçəkiliş* bir neçə ... ilə gerçəkləşdirilir. 2. *Əksinə kinoçəkiliş* ekranda ... hərəkət effekti almaq üçün istifadə olunur. 3. *Mikrokinoçəkiliş* ... vasitəsilə görünən obyektin kinoçəkilişidir.

**Sözlər**: *əksinə, mikroskop, kamera*

***Çalışma 2. Qara hərflərlə verilmiş sözlər quruluşca necə sözlərdir?***

*Xüsusi kinoçəkilişlər* adi çəkilişdən fərqlənən **kinoçəkiliş** üsul və qaydalarıdır. Xüsusi kinoçəkilişlərə **kadr-kadr**, yavaşıdılmış, sürətləndirilmiş və yüksək sürətli, ölçülü, uzaq məsafədən çəkiliş (teleçəkiliş), **makrokinoçəkiliş** (kiçik obyektlərin **irimiqyaslı** çəkilişi), **mikrokinoçəkiliş** və s. daxildir.

***Çalışma 3. Altından xətt çəkilmiş şəkilçiləri müəyyən edin.***

Binanın tikilməsini və ya dağılmasını, avtomobilin yanmasını, qatarların toqquşmasını, döyüş səhnələrini və s. naturada çəkmək mümkün olmadıqda *maket kinoçəkilişi* tətbiq edilir. Maketləri, adətən, orta və ümumi planda çəkirlər. Maket nə qədər kiçik olarsa, kinoçəkilişin tezliyi bir o qədər böyük olar.



***Çalışma 4. Nöqtələrin yerinə «çəkiliş» sözünü düzgün formada yazın.***

1. Studiyadan kənarda açıq məkan (natura) və qapalı məkanda (pavilyon) aparılan ... *studiyadankənar çəkilişlərdir*. 2. Studiyadankənar ..., təbii, yaxud memarlıq mühiti *natura* ... adlanır. 3. ... pavilyonda aparılmasına *pavilyon çəkilişi* deyilir. 4. *Rejim* ... məqsədi günbatma anında xüsusi təsviri effekt almaqdır.

***Çalışma 5. Fellərin məna növünü təyin edin.***

1. Müasir *rakurs çəkilişləri* filmlərdə hərəkət edən kameralarla yerinə yetirilir. 2. Rakurs çəkilişindən klip, reklam və sənədli filmlərin çəkilişində tez-tez istifadə olunur. 3. *Sinxron kinoçəkilişdə* səs və təsvir eyni vaxtda lentə yazılır. 4. *Sinxron kinoçəkilişdə* səs salmayan kamera və işıqlandırma aparatlarından istifadə edilir.

***Çalışma 6. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| gerçəkləşdirilmək | həqiqətə çevrilmək |
| əksinə | tərsinə, ziddinə |
| effekt | təsir, nəticə |
| yavaşıdılmış | zəiflədilmiş, azaldılmış |
| sürətləndirilmiş | sürəti artırılmış, tezləşdirilmiş |
| irimiqyaslı | böyük miqyaslı |
| toqquşma | toxunma, dəymə, mübahisə, dalaşma |
| natura | təbii şərait, yer |
| maket | nümunə, model |
| tətbiq edilmək | həyata keçirilmək, işlədilmək |
| tezlik | sürət, tez vaxt |
| pavilyon | müvəqqəti bina, dekorasiya |
| mühit | şərait |
| təsviri | təsvir olunan |

| | |
|---|---|
| rakurs | baxım nöqtəsi |
| sinxron | eyni zamanda olan |
| səs salmayan | sakit, səs çıxarmayan |

***Çalışma 7. Terminləri öyrənin.***

çoxkameralı videoçəkiliş, əksinə kinoçəkiliş, mikrokinoçəkiliş, xüsusi kinoçəkiliş, makrokinoçəkiliş, mikrokinoçəkiliş, maket kinoçəkilişi, studiyadankənar çəkiliş, natura çəkilişi, pavilyon çəkilişi, rejim çəkilişi, rakurs çəkilişi, sinxron çəkiliş



## §43. Montaj

Montaj çəkilmiş filmin, publisistik, ədəbi, musiqili və s. verilişin ayrı-ayrı hissələrinin (epizodların) bütöv hala gətirilməsidir. Çəkilən təsvirlər məqsədəuyğun şəkildə seçilərək birləşdirilir. Montaj filmin yaradılmasının bütün mərhələlərində – ssenaridə, operator işində və çəkilmiş materialın şərhində, təsvirin səslə birləşdirilməsi prosesində zəruridir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| epizod | 1) hadisə, əhvalat; 2) bədii əsərin müstəqil parçası |
| şərh | anlatma, izah |
| mərhələ | dövr, moment |
| istehsal | hazırlama |
| konstruktiv | 1) işgüzar, məhsuldar, qurucu; 2) nəyə isə əsas yaradan; 3) qurulan, düşünülüb tapılan, nəyə isə aid olan |
| məqam | 1) yer, məkan; 2) vaxt, zaman;3) vəzifə, rütbə |
| məzmun | mövzu, bir şeyin mənası |
| kompozisiya | 1) əsərin quruluşu; 2) musiqi əsəri |
| biçim | 1) şəkil, qayda, üsul, forma; 2) ölçü |
| əhatə etmək | dövrələmək, dörd tərəfini tutmaq |
| publisistika | ictimai-siyasi əsərlər janrı |
| qurğu | mexanizm, maşın, cihazlar sistemi |
| nümayiş | 1) kütləvi yürüş; 2) bir şeyin təzahürü |
| fonoqram | səs yazısı |
| qaytarılma | geri verilmə, göndərilmə, rədd edilmə |

*Çalışma 2. Sözləri hecalara ayırın.*

*TV montajını* iki mərhələyə ayırmaq olar: proqramın istehsal prosesindəki montajı, istehsaldan sonrakı montaj. Montajın konstruktiv, paralel, ardıcıl, dinamik, ritmik, çarpaz, assosiativ və s. növləri vardır.

*Çalışma 3. Altından xətt çəkilmiş sözlər nədir?*

*Montaj kadrı* filmin tərkib hissəsidir. Montaj kadrı çəkiliş zamanı lentə alınan hərəkətin bu və ya digər məqamından ibarətdir. Hər bir montaj kadrı məzmununa, kompozisiyasına və ritmik quruluşuna görə digər kadrlarla əlaqədardır.

*Çalışma 4. Tərcümə edin.*

Montajın iki növü var: ardıcıl və dinamik montaj. *Dinamik montaj* çarpaz, paralel montaj biçimlərini əhatə edir. *Ardıcıl (və ya mexaniki) montajdan* informativ-publisistika proqramlarında istifadə edirlər.

*Çalışma 5. II növ təyini söz birləşmələrini tapın.*

1. *Montaj otağı* montaj prosesini aparmaq üçün yerdir. 2. Kinofilmin, proqramın montaj işlərinin aparılması üçün qurğuya *montaj stolu* deyilir. 3. Yayım və ya nümayişlər üçün hazır vəziyyətə gətirilmiş videoproqramlar *montaj olunmuş material* adlanır. 4. *Demontaj*, çəkiliş təsvirlərinin ilkin vəziyyətə qaytarılmasıdır.

*Çalışma 6. Terminləri öyrənin.*

montaj, TV montajı, montaj kadrı, ardıcıl montaj, dinamik montaj, montaj otağı, montaj stolu, montaj olunmuş material, konstruktiv montaj, paralel montaj, çarpaz montaj, demontaj



## §44. Montaj (davamı)

*Çalışma 1. Altından xətt çəkilmiş sözləri hallandırın.*

Bir kamera ilə çəkilmiş orijinal təsviri materialların montajına *birkameralı videomontaj* deyilir. Video və səs sırasının eyni vaxtda montajı isə *birgə montajdır*. Buna *birgə yapışdırma* da deyirlər. Bu, müsahibə və dialoqlar üçün əsas montaj tipidir.

*Çalışma 2. Fellər hansı növdə işlənib?*

Fonoqramın montaj tiplərindən biri *ayrıca yapışdırma* adlanır. Belə montaj zamanı görüntü və səs sırası ayrı-ayrılıqda montaj edilir. Öncə fonoqram (yaxud videosıra), sonra müvafiq görüntü (yaxud fonoqram) yapışdırılır.

*Çalışma 3. Sifətləri tapın.*

*Dinamik montaj* çəkilmiş səhnənin tamaşaçıya təsirini gücləndirən montaj üsuludur. O, düzümünə görə daha mürəkkəbdir. Burada hadisələrin qabarıq və dramatik təqdimi, kəskin rakurslar, çox iri planlara və s. üstünlük verilir.

*Çalışma 4. Mürəkkəb sözləri seçin və izah edin.*

1. *Efirdə montaj* əvvəlcədən hazırlanmış verilişin efirdə göstərilərkən montaj edilməsidir. 2. Bu zaman veriliş strukturca və məzmunca dəyişdirilir. 3. *Fotomontaj* ümumi mövzuya aid olan bir sıra fotoşəkillərin bir şəkildə birləşdirilməsidir. 4. Tez-tez bir-birini əvəzləyən qısa və çoxsaylı kadrların montajı *effektiv montaj* adlanır.

5. *Hibrid montaj* müxtəlif formatlı videomaqnitofonların bir-birinə calanması ilə yaradılmış montaj komplektidir.

***Çalışma 5. Terminləri öyrənin.***

ardıcıl montaj, birkameralı videomontaj, birgə montaj, birgə yapışdırma, ayrıca yapışdırma, dinamik montaj, efirdə montaj, fotomontaj, effektiv montaj, hibrid montaj

***Çalışma 6. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| birgə | bir yerdə, bərabər, birlikdə |
| müsahibə | söhbət |
| müvafiq | uyğun, münasib, yaraşan, əlverişli |
| dinamik | hərəkətlə əlaqədar olan; daim hərəkətdə olan |
| düzüm | düzülmə, sıralanma, tərtib qaydası |
| qabarıq | 1) qabarmış, şişmiş; 2) çox aydın |
| rakurs | baxım nöqtəsi, bucağı |
| təqdim | vermə; tanış etmə |
| dramatik | dramatizmlə dolu, ağır, gərgin, faciəli |
| üstünlük vermək | birini seçmək, bəyənmək |
| əvəzləyən | yerini tutan |
| effektiv | təsirli |
| hibrid | müxtəlif orqanizmlərin birləşməsindən əmələ gələn yeni növ, calaq |
| format | ölçü |
| calanmaq | bağlanmaq, calaq edilmək, ilişmək |
| komplekt | toplu; dəst |



## §45. Montaj (davamı)

***Çalışma 1. Nöqtələrin yerinə uyğun gələn sözləri yazın.***

*Elektron montaj* kompüterdən istifadə etməklə aparılan .... Elektron montajda kadrların montajı üçün konkret ... verilir. Bunun üçün ən azı iki ... tətbiq edilir: birincisi, proqramın mənbəyi olur, digəri montaj edilən verilişin yazıldığı ... maqnitofondur.

**Sözlər:** *proqram, əsas, montajdır, videomaqnitofon*

***Çalışma 2. Felin təsriflənməyən formalarını tapın.***

*Xətti montaj* təsvirlərin yalnız bir xətt boyunca və ardıcıl düzülməsini şərtləndirən montaj üsuludur. Bu zaman montaj olunmuş hazır materiala kadr əlavə etmək, yaxud oradan nəyi isə çıxarmaq üçün təsvir yenidən köçürülüb işlənməlidir.

***Çalışma 3. Mətndəki fellər quruluşca necə fellərdir?***

*Qeyri-xətti montaj* məqsəddən asılı olaraq təsvirlərin qeyri-ardıcıl, sərbəst şəkild · seçilməsinə və düzülməsinə imkan verir. Bu zaman montaj xüsusi proqram qoyulmuş kompüterdə aparılır. Qeyri-xətti montajı çox vaxt kompüter montajı da adlandırırlar.

***Çalışma 4. Qoşa samitli sözləri tapın.***

*Qaralama montaj* ilkin montajdır. Bu növ montajda kadrların ritmi, ardıcıllığı və sinxron çıxışlar tam dəqiq olmur. O, film, veriliş, yaxud süjetin bütöv kompozisi-

yası haqqında müəyyən təsəvvür əldə etmək üçün aparılır.

***Çalışma 5. Mənsubiyyət şəkilçilərinin altından xətt çəkin.***

*Səs montajı* səsyazmanın keyfiyyətinin tənzimlənməsi prosesidir. O, fonoqramın təmiz və təhrifsiz səslənməsini təmin edir. Estetik tələblər baxımından fonoqram montaj edilmiş materialın ovqat və ritminə böyük təsir göstərir.

***Çalışma 6. Terminləri öyrənin.***

elektron montaj, xətti montaj, qeyri-xətti montaj, qaralama montaj, səs montajı

***Çalışma 7. Terminləri öyrənin.***

| | |
|---|---|
| elektron | mənfi elektrik yüklü ən kiçik zərrəcik |
| tətbiq edilmək | həyata keçirilmək, işlədilmək |
| maqnitofon | səsi yazan və təkrar edən aparat |
| şərtləndirmək | bir şərtlə bağlamaq, şərt qoymaq; səbəb olmaq |
| köçürülmək | dəyişdirilmək, yazılmaq, keçirilmək |
| imkan vermək | əlverişli şərait yaratmaq, yol vermək |
| qaralama | 1) qara rəng çəkmək; 2) bir şeyin ilk mətni; 3) ləkələmə |
| sinxron | eyni zamanda olan, baş verən |
| süjet | mövzu, məzmun |
| təsəvvür | xəyal, fikir, təxəyyül |
| əldə etmək | bir şeyə nail olmaq, ələ keçirmək, tapmaq, qazanmaq |
| tənzimlənmə | nizama, qaydaya salma |
| ovqat | 1) vaxt, zaman; 2) əhvali-ruhiyyə, hal, kef |



## §46. Montaj (davamı)

***Çalışma 1. Mötərizədəki sözləri lazım olan formada yazın.***

(Kadrlar) lentdə düşünülmüş, aydın və əlaqəli şəkildə birləşdirilib yapışdırılması *konstruktiv montaj* adlanır. (O) məqsədi ekranda (hərəkət) düzgün göstərməkdir. Konstruktiv montaj özündə *texniki montajı* da (ehtiva etmək).

***Çalışma 2. Vacib şəklində işlənən fellər hansılardır?***

Konstruktiv montaj iki əsas tələbə cavab verməlidir: 1) kadr elə növbələnməlidir ki, hərəkətin ardıcıllığı məntiqi cəhətdən düz olsun; 2) hər kadrın uzunluğu elə seçilməlidir ki, onun məzmunu tamaşaçıya qaranlıq qalmasın.

***Çalışma 3. Sifətləri tapın.***

*Paralel montaj* ekranda göstərilən hadisələrin gərgin dramaturji nəqlinə imkan verən kinematoqrafik vasitədir. Paralel montaj müxtəlif vaxtlarda və məkanlarda çəkilmiş kadrları vahid süjet xəttində birləşdirməyə, onların arasında qarşılıqlı əlaqə yaratmağa imkan verir.

***Çalışma 4. Qara hərflərlə verilmiş sözlərə yaxın mənalı sözlər tapın.***

Paralel montaj tamaşaçıda **müxtəlif məkanlarda** cərəyan edən hadisələrin eyni **vaxtda** baş verməsi təəssüratını yaradır. Bu montajda hadisələrin xronoloji qay-

dası tez-tez pozulur. Montajçı **geriyə**, yaxud **irəliyə** keçid effekti yarada bilər.

***Çalışma 5. Səhvləri düzəldin.***

*Təsiredici montajın* məksədi tamaşaçı dikqətini cəlp etməktir. Bu montaj çəkilənnərin effekli düzülməsi üsulu ilə aparılır. Mövzu ilə bağlı rəmzlərdən istifade edilir.

***Çalışma 6. Terminləri öyrənin.***

konstruktiv montaj, texniki montaj, paralel montaj, təsiredici montaj

***Çalışma 7. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| ehtiva etmək | içinə salmaq, daxilində olmaq, əhatə etmək, qavramaq |
| növbələnmək | bir-birinin ardınca gəlmək |
| qaranlıq qalmaq | aydın olmamaq, anlaşılmamaq |
| dramaturji | dramaturgiyaya aid |
| nəql | köçürmə, daşıma |
| cərəyan etmək | 1) keçmək, axmaq, hərəkət etmək; 2) baş vermək, olmaq |
| təəssürat | əşya və hadisələrin insan şüurunda izi |
| təsiredici | təsir edən, təsir göstərən, təsirli |
| rəmz | işarə, simvol |



## §47. Redaktə

Mətni yoxlayıb düzəltmək, sonuncu dəfə işləyib çapa hazırlamaq **redaktə** adlanır. Redaktə əlyazmaya ümumi qiymət verməyə kömək edir. Redaktor mətni tələblərə uyğunlaşdırır, fakt və rəqəmlərin düzgünlüyünü, sitatların dəqiqliyini, şəkillərə aid yazıları yoxlayır, məntiqi düzəlişlər aparır. Redaktorun məqsədi mətndəki çatışmazlıqları aradan qaldırmaqdır. Amma mətndə əsaslı dəyişikliklər etdikdə müəllifin razılığı mütləq lazımdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| çap | mətnin mətbəə üsulu ilə yığımı |
| əlyazma | əl ilə yazılmış |
| sitat | bir mətndən, olduğu kimi götürülmüş yazı |
| çatışmazlıq | nöqsan |
| aradan qaldırmaq | yox etmək, ləğv etmək, ortadan qaldırmaq |
| əsaslı | köklü, möhkəm; ciddi, tutarlı; doğru, gerçək; hərtərəfli |
| dövri | müəyyən vaxtlarda çıxan, vaxtaşırı |
| nəşr | 1)çap etmə; 2) çap edilmiş kitab, jurnal və s. |
| cild | kitabın üzü, əsərin bir hissəsi, qiyafə |
| cavabdeh | cavab verməli olan, məsuliyyət daşıyan, məsul |
| tərtibat | düzəltmə, yaratma |
| inzibati | nizam-intizama, idarə sisteminə aid olan |
| heyət | tərkib |
| kollegial | kollegiya (bir qrup şəxs) tərəfindən həyata keçirilən |

| | |
|---|---|
| müavin | rəisi əvəz edən şəxs |
| katib | 1) yazı işlərini aparan; 2) təşkilatın rəhbəri |
| məsul | 1) cavabdeh; 2) çox mühüm, əhəmiyyətli |

***Çalışma 2. Altından xətt çəkilmiş şəkilçilər hansı hala aiddir?***

*Baş redaktor* dövri və qeyri-dövri nəşrlərdə, radio və televiziya yayımında, mürəkkəb və çoxcildli nəşrlərdə (ensiklopediya, lüğət, məlumat kitabları) redaksiya işlərinə başçılıq edən şəxsdir. Burada müxtəlif bölmələrin öz redaktorları olur.

***Çalışma 3. Fellərin təsirli və ya təsirsiz olduğunu müəyyən edin.***

*Redaktor* efir üçün hazırlanan verilişə cavabdeh olur, fakt və informasiyaların dəqiqliyi üçün məsuliyyət daşıyır, çap olunan əsərə rəhbərlik edir, onun məzmununu təsdiq edir. *Texniki redaktor* kitab, jurnalların tərtibatı ilə məşğul olur.

***Çalışma 4. İsmi xəbərləri tapın, izah edin.***

*Redaksiya* qəzet, jurnal, kitab və s. çapa hazırlayan yaradıcı inzibati qurumdur. O, verilişin efirə hazırlanmasına məsul olan struktur vahididir. Redaksiya əlyazmaları çapa hazırlayan şöbədir.

***Çalışma 5. Fellər hansı növdə işlənib?***

*Redaksiya heyəti* redaksiyada yaradılan kollegial orqandır. O, qəzet, yaxud jurnalın fəaliyyətinə rəhbərlik edir, onun problemlərini müzakirəyə çıxarır. Redaksiya heyətinin tərkibinə baş redaktor, onun müavinləri, məsul katib, əsas şöbələrin müdirləri, redaksiyanın kommersiya direktoru daxil olur.



***Çalışma 6. Altından xətt çəkilmiş şəkilçiləri izah edin.***

Teleradio təşkilatında proqramların yayımına icazə verən və bu yayım üçün cavabdeh olan şəxsə *məsul redaktor* deyilir. *Televiziya redaktoru* ekran və efirdə yayımın ideya və məzmununu müəyyənləşdirən, informasiyanın toplanıb işlənməsini təşkil edən şəxsdir.

***Çalışma 7. Terminləri öyrənin.***

redaktə, redaktor, redaksiya, redaksiya heyəti, baş redaktor, məsul redaktor, televiziya redaktoru

## §48. Mikrofon

Səs rəqslərini elektrik rəqslərinə çevirən, səs dalğasını gücləndirən və məsafədən ötürən elektroakustika cihazına **mikrofon** deyilir. Mikrofonu ilk dəfə rus alimləri M.Maxalski (1878) və P.Qolubitski (1883) bir-birindən xəbərsiz ixtira etmişlər. Mikrofon kino, TV, radio, səsgücləndirmə və səsyazma sistemlərində tətbiq olunur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| rəqs | musiqinin tempinə uyğun bədən hərəkətləri |
| çevirmək | dəyişdirmək; döndərmək; vərəqləmək; tərcümə etmək |
| ixtira etmək | yeni bir şey yaratmaq, düzəltmək |
| tətbiq olunmaq | həyata keçirilmək, işlədilmək |
| reaksiya vermək | təsirə cavab vermək |
| membran | titrəyişlər əmələ gətirən lövhə |
| kondensator | 1) elektrik toplamaq üçün cihaz; 2) soyuducu |
| qurğu | mexanizm, maşın, cihaz, alət |
| dolaq | ayağa sarılan sarğı |
| tezlik | tez vaxt, az zaman, tez; sürət, itilik |
| səmt | cəhət, tərəf, yön; istiqamət |
| kontakt | elektrik xətlərinin bir-birinə toxunması |
| yönəltmək | istiqamət vermək, tuşlamaq |
| ilgək | düymə yeri |
| sıxac | bir şeyi sıxmaq üçün alət |
| xırda | kiçik, balaca, cüzi, zəif |
| bərkidilmək | 1) bərk hala gətirmək; 2) bağlanmaq, qapadılmaq |



***Çalışma 2. Qara hərflərlə verilmiş sözlərə sual verin.***

**Hər** mikrofonun içərisində səsin **güc** və keyfiyyət dəyişmələrinə reaksiya verən **həssas** membran var. Bu membran səs dalğalarını elektrik səs dalğalarına **çevirir**. Əsasən iki tip mikrofon **geniş** yayılmışdır – elektrodinamik və kondensatorlu **mikrofonlar**.

***Çalışma 3. Felləri kök və şəkilçiyə ayırın.***

Studiyada və ya studiyadankənar çəkiliş zamanı yuxarı nöqtədən asılan həssas mikrofonlara *asma mikrofonlar* deyilir. Belə mikrofonlar hərəkətin baş verdiyi meydançanın üzərindən asılır. Onlar kameranın görmə sahəsinə düşməməlidir.

***Çalışma 4. Fellərin təsirli və ya təsirsiz olduğunu müəyyən edin.***

*«Durna» mikrofonu* durna boğazına bənzəyən uzun qurğudan asılmış mikrofondur. «Durna» mikrofonu kadrda görünmür. Studiya şəraitində, habelə studiyadankənar çəkilişdə əldə tutulur. Bu mikrofon son dərəcə geniş yayılıb.

***Çalışma 5. Nöqtələrin yerinə hansı sait yazılmalıdır?***

*Elektrodinamik mikrofon* maqnit dolağına b...rkidilmiş membrandan ibar...tdir. Dözümlü olduğu üçün t...l...istehsalda daha çox işl...nir. Lakin yüks...k t...zlikli s...slərə həssas d...yil.

***Çalışma 6. Sifətləri tapın.***

1. *İkisəmtli mikrofonlar* yalnız öndən və arxadan gələn səslərə həssas olur. 2. *Kontakt mikrofonları* bilavasitə çəkiliş obyektinə (predmetinə) bərkidilir. 3. *Yönəldil-*

*məyən mikrofonlar* bütün istiqamətlərdən gələn səslərə həssas olur.

***Çalışma 7. Felləri məchul növdə işlədin.***

*Yaxa mikrofonu* səsi rahat, əlverişli vəziyyətdə yazmaq üçün yaxaya (taxmaq). Buna «ilgək» və ya «qalstuk» mikrofonu, «sancaq» tipli mikrofon da (demək). Mikrofon xırda sıxacla paltara (bərkitmək).

***Çalışma 8. Terminləri öyrənin.***

mikrofon, elektrodinamik mikrofon, kondensatorlu mikrofon, asma mikrofon, «durna» mikrofonu, ikisəmtli mikrofon, kontakt mikrofonu, yönəldilməyən mikrofon, yaxa mikrofonu



## §49. Televiziya sənəti

TV-nin meydana gəlməsi ilə əlaqədar yaranmış bədii fəaliyyət və ictimai-siyasi informasiya növlərinin məcmusu **televiziya sənəti** adlanır. Televiziya sənəti qüdrətli, orijinal informasiya, təbliğat və estetik tərbiyə vasitəsidir. O, kütləvi informasiya və təbliğat vasitələrinin müstəqil bir qoludur. Televiziya sənəti radio, kino, teatr, estrada, dövri mətbuatın bir sıra mühüm əlamət və keyfiyyətlərini özündə cəmləşdirir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| məcmu | bütün, tamam, hamı; yekun, cəm |
| sənət | peşə, iş, məşğuliyyət; incəsənətin hər qolu |
| təbliğat | bir nəzəriyyəni, ideyanı, biliyi və s.-ni yayma |
| müstəqil | sərbəst, ayrıca, xüsusi |
| estrada | 1) açıq səhnə; 2) kiçik formalı tamaşa |
| cəmləşdirmək | cəmləmək, mərkəzləşdirmək |
| əhəmiyyət | mühümlük, rol, dəyər |
| material | 1) ləvazimat, xammal, vəsait |
| rəy | fikir, mülahizə |
| təşkilatçılıq | təşkilatçı bacarığı |
| cari | cərəyan edən, axıcı; indiki |
| süjet | mövzu, məzmun |
| müsahib | biri ilə söhbət edən; həmsöhbət |
| inkrustasiya | bir material üzərində bəzək |

***Çalışma 2. Mənsubiyyət şəkilçilərini göstərin.***

*Televiziya publisistikası* ictimai əhəmiyyətli materialların efirdə göstərilməsidir. Bu materiallar auditoriyanın rəyinin formalaşmasına xidmət edir. Televiziya pub-

lisistikası cəmiyyətdəki ictimai-siyasi prosesləri, günün aktual problemlərini TV ekranında işıqlandırır.

*Çalışma 3. Qara hərflərlə verilmiş sözlər nədir?*

Televiziya publisistikasının əsas vəzifəsi auditoriyanın diqqətini mühüm məsələlərə yönəltməkdir. O, cəmiyyətdə **gedən** prosesləri, **baş verən** hadisələri və ictimai əhəmiyyəti **olan** faktları açır, tamaşaçıya aydınlaşdırır.

*Çalışma 4. Nöqtələrin yerinə lazım olan zaman şəkilçini yazın.*

*Baş kameraman (operator)* yüksək operatorluq və təşkilatçılıq qabiliyyətinə malik şəxsdir. O, studiya və studiyadankənar çəkilişləri gerçəkləşdir..., operator qrupuna rəhbərlik ed..., qrupun cari işlərini tənzimlə....

*Çalışma 5. Altından xətt çəkilmiş sözlər hansı suala cavab verir?*

*Baş reportyor* xəbər buraxılışı üçün material toplayan, reportaj və süjetlər verən jurnalistdir. O, proqram üçün süjet, müsahib və video materialları seçir, ssenari planı yazır, operator və montajçı ilə birlikdə material üzərində işləyir.

*Çalışma 6. Nöqtələrin yerinə hansı hal şəkilçisi yazılmalıdır?*

Aparıcılar... və diktorlar... inkrustasiya üsulu ilə çəkilməsi texnologiyası *mavi otaq* adlanır. Bu zaman diktor göy fonda çəkilir. Sonra həmin fona süjetə uyğun təsvir verilir. O sanki hansısa xəritə..., yaxud körpü..., yol..., bina... və s. qarşısında dayanıb danışır.

*Çalışma 7. Terminləri öyrənin.*

televiziya publisistikası, baş kameraman, baş reportyor, mavi otaq



## §50. Televiziya sənəti (davamı)

*Çalışma 1. Altından xətt çəkilmiş söz birləşmələrinin növünü təyin edin.*

*Qısadalğalı yayım* xarici auditoriya üçün nəzərdə tutulan və xüsusi statusa malik olan yayımdır. *Peyk yayımı* ötürücü yer stansiyalarından TV və səsli proqramların qəbuledicilərə verilməsidir. O, peyk rabitəsinin müstəsna halıdır.

*Çalışma 2. Səhvləri düzəldin.*

1. Bir neçə radioyayım stansiyasının bir tezlikdə işləməsinə və eyni proqramı yaymasına *sinxron radioyayım* deyilir. 2. *Sosial teleradio yayımı* eşitməyənnər və ya eşitmə qabiliyyəti zəyif olannar üçün təhsil, tədris və infarmasiya xarakterri proqramlar yayan qurumdu. 3. *Stereofonik radioverilişdə* səslənmə təbiyi xarakter alır.

*Çalışma 3. Nöqtələrin yerinə bu sözləri yazın: ciddi, peyk, bu, xüsusi.*

*Birbaşa peyk yayımı* tamaşaçıların ... kanallarına bilavasitə qoşulmasıdır. Bu, birbaşa peyk yayımı qəbul edən ... aparatların köməyi ilə baş verir. Yayımın ... tipi efir-şəbəkə və kabel TV-si üçün ... rəqib sayılır.

*Çalışma 4. Altından xətt çəkilmiş şəkilçiləri izah edin.*

*Birbaşa yayım* canlı yayımdır. Əvvəlcədən lentə yazılmadan, montaj olunmadan və studiyada işlənmədən,

hadisə yerindən həyata keçirilir. İngiliscə «live» sözü informasiyanın birbaşa çatdırılması mənasını verir.

***Çalışma 5. Feli sifətləri tapın.***

*Dövlət yayımı* dövlətin yaratdığı, maliyyələşdirdiyi, nəzarət etdiyi, verilişlərin məzmununa müdaxilə etdiyi yayımdır. *Eynivaxtlı yayım* bir hadisənin, reportajın, verilişin həm radio, həm də TV ilə eyni vaxtda yayımlanmasıdır. O, AM və FM tezlikləri ilə verilən yayımdır.

***Çalışma 6. Terminləri öyrənin.***

birbaşa peyk yayımı, eynivaxtlı yayım, birbaşa yayım, dövlət yayımı, qısadalğalı yayım, sinxron radioyayım, sosial teleradio yayımı, stereofonik radioveriliş

***Çalışma 7. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| auditoriya | 1) mühazirə dinləmək, iclas keçirmək üçün otaq; 2) mühazirə, nitq və s. dinləyənlər |
| peyk | planet və ya ulduzun ətrafında fırlanan göy cismi |
| ötürücü | 1) ötürən, yola salan; 2) çarx |
| qəbuledici | radio dalğalarını qəbul edən cihaz |
| müstəsna | qeyri-adi, istisna, başqalarına bənzəməyən, nadir |
| tezlik | itilik, sürət |
| sinxron | eyni zamanda baş verən |
| qurum | quruluş |
| stereofoniya | səsin fazada yayılması |
| səslənmə | səs çıxartma, səsini ucaltma |
| eşitmə | dinləmə, qulaq asma, xəbər alma |
| birbaşa | durmadan, düz |
| tamaşaçı | tamaşalara və verilişlərə baxan adam |
| bilavasitə | vasitəsiz, birbaşa |



| | |
|---|---|
| aparat | 1) alət, cihaz, qurğu; 2) müəssisələrin məcmusu |
| şəbəkə | tor, hörgü |
| maliyyələşdirmək | pulla təmin etmək |
| müdaxilə etmək | başqasının işinə qarışmaq, araya girmək |

## §51. Televiziya sənəti (davamı)

***Çalışma 1. Qara hərflərlə verilmiş sözləri izah edin.***

*Faktura* verilişin quruluşu, onun materialı, texniki üsulu, musiqi elementləri, səslənmə **məcmusudur**. Melodiya, akkompanement, ayrı-ayrı səslər, səsaltı sədalar, mövzu və s. fakturanın əsas **elementləridir**. Fakturanın akkordlu, harmonik və polifonik növləri **mövcuddur**.

***Çalışma 2. Mürəkkəb sözləri tapın.***

*Prodüser* teleşirkətin (tamaşanın, televerilişin, filmin), kinostudiyanın etibarlı nümayəndəsidir. O, çəkilişlərə ideya-bədii və maliyyə-təşkilati cəhətdən nəzarət edir. Kinofilmləri istehsal edir və maliyyələşdirir.

***Çalışma 3. Tərcümə edin.***

*Reytinq* statistik informasiyadır. O, konkret proqramın populyarlığını əks etdirir. Reytinq tamaşaçı sayının faizlə ifadəsidir.

***Çalışma 4. Səhvləri düzəldin.***

Sənədli filmdə, bəzən verlişdə hadisə və ya müsahib *gizli kamera* ilə çəkilir. Burada məksəd təbiyiliyə nayil olmaktır. Jurnalistdər gizli kameradan çıxılmaz şərayitdə istifadə edillər.

***Çalışma 5. Altından xətt çəkilmiş sözlərə sual verin.***

*İri plan* bütün detalları özündə əks etdirir. Bu plan çox vaxt böyüdülmüş məkanın əsil ölçü və nisbətlərinin real miqyasını itirir. Tamaşaçı mənzərəni tam görə bilmir.



***Çalışma 6. Terminləri öyrənin.***

faktura, prodüser, reytinq, gizli kamera, iri plan

***Çalışma 7. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| quruluş | 1) idarə üsulu; 2) üsul, sistem; 3) konstruksiya |
| material | 1) cisim, şey, maddə; 2) məlumat, vəsait |
| melodiya | nəğmə, hava |
| akkompanement | birlikdə çalma, müşayiət |
| səda | səs, avaz |
| akkord | həmahəng səslənən tonun birləşməsi |
| polifonik | çoxsəsli |
| harmonik | ahəngdar |
| etibarlı | 1) inanılacaq, sədaqətli, vəfalı, həqiqi; 2) hörmətli; 3) möhkəm |
| nümayəndə | seçilib göndərilən şəxs |
| nəzarət etmək | nəzər yetirmək, baxmaq |
| maliyyə | pul vəsaiti |
| istehsal etmək | hazırlamaq |
| maliyyələşdirmək | pulla təmin etmək |
| faiz | ədədin yüzdə biri |
| populyarlıq | məşhurluq |
| sənədli | rəsmi |
| çıxılmaz | 1) çıxmaq mümkün olmayan; 2) ümidsiz, çarəsiz, əlacsız |
| detal | 1) ən xırda təfərrüat; 2) maşın hissələri |
| əks etdirmək | göstərmək, ifadə etmək |
| ölçü | hüdud, hədd, çərçivə, həcm |
| nisbət | mənsubiyyət, bağlılıq, münasibət |
| miqyas | ölçü, dərəcə |
| mənzərə | təbiət şəkli, təbiət təsviri |
| təfərrüat | xırda məsələlər |

## §52. Televiziya sənəti (davamı)

***Çalışma 1. Söz birləşmələrini tapın və növünü müəyyən edin.***

Kinofilmlərdə, TV verilişlərində məzmuna aid informativ, izahedici yazı və ya danışıq mətninin yazı ilə əks etdirilməsi *titr* adlanır. *Səs effektləri* studiyada çəkiliş zamanı təbii küyləri canlandırmaq üçün istifadə olunan səsdir. Səs effektləri danışığa və musiqiyə aid olmur.

***Çalışma 2. İsmi xəbəri göstərin və izah edin.***

*Səyyar televiziya stansiyası* xüsusi avtobusda quraşdırılmış cihazlar kompleksidir. O, studiyadan kənarda TV verilişləri yayınlamaq üçündür. TV-də müxtəlif janrlarda çəkilmiş sənədli və bitkin görüntülərin ümumi adı *süjetdir*.

***Çalışma 3. Ədatları seçin və izah edin.***

*Praym-taym* TV verilişlərinin ən çox baxıldığı vaxtdır (saat 19.30-23.00). Ən baxımlı proqramlar məhz bu vaxtda göstərilir. Reklam sifarişçiləri üçün praym-taym «qızıl vaxt» sayılır. Yalnız gündüz vaxtı göstərilən teleproqramlar isə *gündüz TV proqramları* adlanır. Bu proqramlara «sabun operaları» və tədris filmləri daxildir.

***Çalışma 4. Mətni diqqətlə oxuyun. [k] səsinin tələffüzünə diqqət edin.***

*Subtitr* alt yazı deməkdir. Adətən, iki təyinatı olur: 1) əcnəbi dildə olan, yaxud qavranılması çətin dialoq, danışıq tərcümə edilərək tele- və ya kinotəsvirin aşağı hissəsində yazılır; 2) kadrda danışan adamın kimliyi, yaxud hər hansı təsvirin xüsusiyyətləri ekranda alt yazı ilə əks etdirilir.



***Çalışma 5. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

*İmicmeyker* imic yaradan deməkdir. Teleaparıcı...ın, sənətçi...in imic reklamı ilə məşğul olan şəxsdir. *Daycest* başqa telekanal...da verilən maraqlı videosüjet...in, mətbuatda çap olunan mühüm material...ın qısa formada yenidən efirdə göstərilməsidir.

***Çalışma 6. Terminləri öyrənin.***

titr, səs effektləri, səyyar televiziya stansiyası, süjet, praym-taym, gündüz TV proqramları, subtitr, imicmeyker, daycest

***Çalışma 7. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| məzmun | mövzu |
| informativ | məlumat verən |
| əks etdirilmə | göstərilmə, ifadə edilmə |
| canlandırmaq | 1) can vermək, diriltmək, şənləndirmək; 2) yada salmaq; 3) gücləndirmək |
| küy | səs |
| effekt | təsir, nəticə |
| səyyar | hərəkət edən, gəzən |
| quraşdırılmış | düzəldilmiş |
| cihaz | alət, aparat, mexanizm |
| kompleks | şeylərin və hadisələrin məcmusu |
| bitkin | bitmiş, yetişmiş, mükəmməl |
| yayınlamaq | uzaq məsafələrə vermək |
| baxımlı | 1) yaxşı baxılmış; 2) yaraşıqlı, gözəl, baxmalı |
| tədris | dərs vermə, təhsil alma |
| sifarişçi | sifariş verən |
| sayılmaq | hesablanmaq, hesab edilmək, bilinmək |
| süjet | mövzu, məzmun |

| | |
|---|---|
| təyinat | göndərmə |
| əcnəbi | xarici |
| qavranılma | başa düşülmə |
| təsvir | 1) şəkil, rəsm; 2) danışma, ifadə etmə |
| sənətçi | bir sənətlə məşğul olan, usta |
| məşğul olan | işləyən, çalışan, maraq göstərən |
| aparıcı | 1) irəlidə gedən, əsas, ən mühüm; 2) verilişdə mətni söyləyən adam |
| material | 1) cisim, maddə; 2) məlumat, vəsait |
| məhz | ancaq, yalnız, tək, təkcə, şübhəsiz, buna görə də |



## §53. Ekran və efir

Elektrik qurğusunu, cihazı, insanı elektromaqnit sahəsinin, istinin, işığın, şüalanmanın ziyanlı təsirindən qoruyan qalxan, lövhə, lay **ekran** adlanır. O, xüsusi maddə ilə doldurulmuş şüşə təbəqədir. Dünyanı əhatə edən fəzaya, radio dalğalarının, TV və radio verilişlərinin yayıldığı hava boşluğuna **efir** deyilir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| cihaz | alət, aparat, mexanizm |
| qalxan | sipər |
| lay | qat |
| fəza | kainatda sonsuz boşluq, göy, asiman; yüksəklik |
| yararlı | əlverişli, uyğun, lazımlı, faydalı |
| lent | dar, uzun parça zolağı |
| cədvəl | məlumat və ya rəqəmlər siyahısı |
| bilavasitə | vasitə olmadan, birbaşa |
| kontekst | mətnin mənaca bitmiş hissəsi |
| vizual | gözlə və ya aparatla görünən |
| ziyanlı | zərərli |
| şüalanma | şüa buraxma, şüa vermə |

***Çalışma 2. İsmi xəbəri göstərin***

*Efir yayımı* radio və telesiqnalların efir məkanından verilməsidir. Yayımın digər forması *qeyri-efir yayımıdır.* Efir yayımı daha ənənəvi formadır. Yayımın bu formaları arasında auditoriya uğrunda kəskin rəqabət var. Qeyri-efir yayımı efirə çıxışı olmayan kabel yayımıdır.

*Çalışma 3. Söz birləşmələri düzəldin.*

| | |
|---|---|
| hazırlıq | proqram |
| canlı | mədəniyyəti |
| xəbər | rejimi |
| əyləncəli | yayım |
| nitq | buraxılışı |

*Çalışma 4. Altından xətt çəkilmiş şəkilçilər hansı kateqoriyaya aiddir?*

1. *Efirdə texniki dayanma* TV yayımının cədvəldə nəzərdə tutulmayan fasiləsi, məcburi saxlanmasıdır. Adətən, TV stansiyasının normal fəaliyyətini pozur, səs, yaxud təsvir tamamilə yox olur. 2. Hadisə yerindən bilavasitə reportaj *efirdə reportaj* adlanır. 3. Bu cür reportajların üslubu üçün sərbəst təbii danışıq tərzi səciyyəvidir.

*Çalışma 5. Qoşa saitli sözləri tapın.*

*Ekran konteksti* vizual şəraitin (görüntünün), audiosituasiyanın və nitq şəraitinin elementlərinin sintezidir. *Nitq şəraiti* TV triadasından – təsvir, səs və sözdən təşkil olunur. Bu, danışıqla bağlı yaranan ekran şəraitidir.

*Çalışma 6. Terminləri öyrənin.*

ekran, efir, efir yayımı, qeyri-efir yayımı, efirdə texniki dayanma, efirdə reportaj, ekran konteksti, nitq şəraiti



## §54. Ekran və efir (davamı)

*Çalışma 1. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır: -lı⁴, -lar², yoxsa –lıq⁴.*

Elan xarakterli material...a *anons* deyilir. Anons yaxın müddətdə göstəriləcək telemәhsul..., gələcək tamaşa..., konsert..., film..., kinofestival..., yeni mal... və xidmət... haqqında radio və TV vasitəsilə qabaqcadan verilən şərhsiz məlumatdır.

*Çalışma 2. Altından xətt çəkilmiş sözlər nədir?*

*Bülleten* yığcam xəbər buraxılışıdır. O, qısa rəsmi məlumatdan ibarətdir, məsələn, hərbi məlumat, görkəmli dövlət xadimlərinin səhhəti haqqında bülleten və s. Bülleten tematik məsələlərə həsr olunur.

*Çalışma 3. Nöqtələrin yerinə hansı kateqoriyanın şəkilçisi yazılmalıdır?*

*Diskussiya* hər hansı bir mübahisəli məsələnin iclasda, mətbuatda və s. azad, açıq müzakirə... dir. Diskussiya teleekran üçün ən cəlbedici janrlardan biridir. O, tamaşaçıların gözlər... qarşı...nda müzakirə olunan məsələnin yaranma..., inkişaf... prose...ni nümayiş etdirir.

*Çalışma 4. Vurğulu hecaları tapın.*

*İcmal* analitik-publisistika janrlarından biridir. İcmalda TV və qəzetlərdə günün (ayın, həftənin) siyasi hadisələri ümumi şəkildə xülasə edilir, mövzuca yaxın olan bir neçə hadisə, yaxud fakt haqqında qısa məlumat verilir.

*Çalışma 5. II növ söz birləşmələrini tapın.*

*Şou*, TV verilişlərinə verilən ümumi addır. Nəyi isə nümayiş etdirmək, göstərmək məqsədi daşıyır. Şou estrada, sirk, idman, caz orkestrləri, balet «ulduz»larının iştirakı ilə səhnə tamaşası, musiqili, əyləncəli proqramdır. O, reklam vasitəsi kimi də geniş yayılmışdır.

*Çalışma 6. Terminləri öyrənin.*

anons, bülleten, diskussiya, icmal, şou

*Çalışma 7. Sözlərin mənasını öyrənin.*

| | |
|---|---|
| yığcam | 1) qısa, kiçik; 2) toplu |
| buraxılış | 1) buraxma; 2) kursu bitirmiş tələbələr dəstəsi |
| səhhət | sağlamlıq |
| tematik | müəyyən mövzuya aid |
| şərhsiz | izahsız |
| nümayiş etdirmək | göstərmək, bildirmək, ifadə etmək |
| janr | 1) əsər növü; 2) üslub |
| analitik | analizə aid olan |
| xülasə | qısa məzmun, nəticə |
| sirk | teatr sənəti növü |
| estrada | 1) artistlər üçün açıq səhnə; 2) kiçik formalı tamaşa |
| fakt | 1) həqiqətən olmuş hadisə, nümunə; 2) gerçəklik, reallıq |



## §55. Ekran və efir (davamı)

*Çalışma 1. Qoşasamitli və qoşasaitli sözləri seçin.*

Zamanca davamiyyətli tematik və problemli TV proqramı *telemarafon* adlanır. TV tamaşaçıları verilişə birbaşa, yaxud telefonla qatıla bilər. Belə verilişin məqsədi müəyyən problemin həllinə kömək edən xeyriyyə vəsaitinin toplanmasına yardımçı olmaqdır.

*Çalışma 2. Mötərizələri açın, felləri lazım olan formada işlədin.*

Görüntüyə sənədlilik xarakteri vermək və tamaşaçını inandırmaq məqsədilə reportyor hadisə yerində kadra (çıxmaq) və informasiya (vermək). Buna *stəndap* (deyilmək). Stəndap, göstərilməsi mümkün olmayanları demək üçün istifadə (edilmək).

*Çalışma 3. Nöqtələrin yerinə uyğun gələn şəkilçini yazın.*

*Tok-şou* studiyada ictimai-siyasi, elm, incəsənət və mədəniyyət xidmətləri..., müxtəlif tərkibli auditoriya... iştirakı ..ə hazırlanan veriliş formasıdır. Tok-şou müsahibə və diskussiya janrları... əlamətlərini özündə birləşdirir. Sərbəst şəraitdə aparılır.

*Çalışma 4. Mətndəki fellər hansı məna növünə aiddir?*

Tok-şou aparıcının fərdi keyfiyyətlərinə və şəxsiyyətinə əsaslanır. Əksər hallarda aktual problemlərin təd-

qiqinə həsr edilir. Tok-şou əyləncəli mövzularla, kəskin diskussiya və situasiyalarla müşayiət olunur.

***Çalışma 5. Damaq ahəngli sözləri tapın.***

1. *İmprovizasiya* hazırlaşmadan şeir və ya nitq söyləmə, bədahətən çalınan və ya yazılan musiqidir. 2. *İmprovizə olunmuş çıxış* efirdə yeni məqamları üzə çıxan danışıqdır. 3. Məhkəmə, tibbi, kriminal problemlərlə bağlı teleproqram tipi *realiti-şou* adlanır.

***Çalışma 6. Terminləri öyrənin.***

telemarafon, stəndap, tok-şou, improvizasiya, improvizə olunmuş çıxış, realiti-şou

***Çalışma 7. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| davamiyyətli | davamlı, uzunmüddətli |
| birbaşa | durmadan, düz |
| qatılmaq | qarışmaq, qoşulmaq, birləşmək |
| xeyriyyə | xeyir iş, ehtiyacı olanlara kömək |
| vəsait | 1) pul; 2) ehtiyat qüvvələri |
| yardımçı | 1) yardım edən, kömək edən; 2) əlavə |
| görüntü | təsvir, görülənlər |
| sənədlilik | rəsmilik |
| reportyor | məlumat agentliyi işçisi |
| mümkün | ola bilən |
| xadim | xidmət edən |
| auditoriya | 1) iclas, məşğələ zalı; 2) mühazirə dinləyənlər |
| iştirak | fəaliyyət göstərmə, ortaqlıq |
| müsahibə | söhbət |
| əlamət | nişanə, işarə, iz |
| sərbəst | müstəqil, azad |
| şərait | şərtlər, vəziyyət, mühit |
| fərdi | şəxsi, xüsusi |



| | |
|---|---|
| keyfiyyət | xüsusiyyət, əlamət |
| şəxsiyyət | 1) bir şəxsə aid xüsusiyyətlər; 2) insan, şəxs |
| əsaslanmaq | əsas götürmək, istinad etmək |
| əksər | ən çox, lap çox, ümumiyyətlə |
| tədqiq | araşdırma |
| həsr edilmək | kiməsə, nəyəsə verilmək, onun üçün ayrılmaq |
| əyləncəli | əyləndirən, maraqlı |
| müşayiət olunmaq | 1) yola salınmaq; 2) bərabər gedilmək; 3) qorunmaq |
| məqam | 1) yer, dərəcə; 2) vaxt, zaman; 3) vəzifə; 4) vəziyyət |
| üzə çıxaran | tapan |
| bədahətən | birdən-birə, hazırlaşmadan, fikirləşmədən |
| kriminal | cinayətlə bağlı |

## §56. Ekran və efir (davamı)

***Çalışma 1. Altından xətt çəkilmiş şəkilçiləri müəyyən edin.***

*Açıq proqram* reklam məlumatının daxil edildiyi proqramdır. Studiyadakı auditoriyanın iştirakı ilə hazırlanan teleproqrama da açıq proqram deyilir. *Ehtiyat proqramlar* gözlənilməz fasilə yaranarkən vaxtı dolduran verilişlər, mozaik lövhələr, musiqi klipləridir.

***Çalışma 2. Hal şəkilçilərinin altından xətt çəkin.***

*Canlı proqram* studiyada canlı söhbətdən, müsahibə və sorğulardan, canlı telefon bağlantılarından ibarət olur. O, hazırlanan anda yayımlanır. Bu proqram əvvəlcədən lentə yazılmır və montaj edilmir.

***Çalışma 3. Hansı sözlərdə açıq heca var?***

Müxtəlif verilişlərin çəkilməsi üçün nəzərdə tutulan və akustik cəhətdən hazırlanmış yerə *studiya* deyilir. Bu, radio və TV-də verilişlərin efirə verilməsi üçün xüsusi avadanlıqla təchiz olunmuş qapalı məkandır. Studiyada foto, tamaşa və kino çəkilişləri də aparılır.

***Çalışma 4. Zərfləri tapın.***

1. *Reqlament* TV və radioda çıxış üçün müəyyən edilmiş vaxtdır. 2. Teleradio verilişlərinin əvvəlcədən lentə alınmadan birbaşa ötürülməsi *canlı yayım* adlanır. 3. Teleşirkət və proqramların tanınma nişanına, onların adını, mənsubiyyətini və s. göstərən etiketə *leybl* deyilir.



4. *Leytmotiv* verilişdə, filmdə dəfələrlə təkrar olunan əsas, aparıcı motivdir (mövzudur).

***Çalışma 5. Nöqtələrin yerinə uyğun gələn şəkilçini yazın.***

Veriliş..., film..., arxiv material...ı, müxtəlif videoyazı... *videotekada* saxlanılır. Bu, xüsusi şəraitə (temperatur, rütubət və s.) və xüsusi mühafizə sisteminə malik məkandır. Fonoqram...ın, səs yazı...ının, lent...in arxivi *fonoteka* adlanır.

***Çalışma 6. Mənsubiyyət şəkilçilərini göstərin.***

*Geniş yayım* geniş əhali kütləsinə informasiya verilməsi prosesidir. İngiliscə «brodkastinq» terminінə həm səsli, həm də vizual radio, yəni TV də aid edilir. TV yaranana qədər bu ifadə ilə radioyayım nəzərdə tutulurdu.

***Çalışma 7. Terminləri öyrənin.***

açıq proqram, ehtiyat proqramlar, canlı proqram, studiya, reqlament, canlı yayım, leybl, leytmotiv, videoteka, fonoteka, geniş yayım, brodkastinq

***Çalışma 8. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| ehtiyat | 1) saxlanmış şey; 2) tədbirli davranma |
| gözlənilməz | xəbərsiz, gözlənilmədən baş verən |
| iştirak | başqaları ilə birlikdə iş görmək, ortaqlıq |
| fasilə | 1) tənəffüs; 2) məsafə, ara |
| mozaik | mozaikadan düzəldilmiş |
| lövhə | 1) yaxı taxtası; 2) elan taxtası; 3) şəkil, mənzərə |
| müsahibə | söhbət |
| sorğu | sual, sual etmə |
| bağlantı | əlaqə, rabitə |

| | |
|---|---|
| canlı | 1) diri, sağ, əbədi, ölməz; 2) orqanik; 3) iri, möhkəm; 4) fəal, coşqun; 5) güclü, parlaq |
| ibarət olmaq | ... düzəlmiş olmaq |
| yayımlanmaq | uzaq məsafəyə verilmək |
| lent | uzun, ensiz parça |
| montaj | hissələrin birləşdirilməsi |
| an | vaxt |
| akustik | akustikaya aid olan |
| efir | hava |
| avadanlıq | 1) ev şeyləri; 2) lazım olan maşınlar, alətlər |
| təchiz olunmuş | hazırlanıb verilmiş |
| qapalı | bağlı, örtülü |
| məkan | yer |
| çəkiliş | çəkilmə |
| çıxış | 1) çıxma; 2) verilən məlumat |
| birbaşa | durmadan, düz |
| ötürülmə | 1) yola salınma; 2) göndərilmə; 3) fikir verilməmə; 4) buraxılma |
| tanınma | bilinmə, fərqləndirilmə |
| nişan | əlamət, iz, işarə |
| mənsubiyyət | aid olma |
| etiket | yarlıq |
| dəfələrlə | bir neçə dəfə, təkrarən, çox-çox |
| rütubət | nəmlik |
| mühafizə | qoruma |
| kütlə | 1) böyük parça; 2) camaat, adamlar qrupu |
| əhali | bir ölkənin xalqı |
| vizual | gözlə görünən |



## §57. Diktor

Münasib görünüşə, aktyorluq məharətinə, müəyyən intellektə, yüksək nitq mədəniyyətinə malik olan, ekran və efirdə müxtəlif məzmunlu verilişlər apara bilən radio və TV işçisi **diktor** adlanır. Diktor müəllif, redaktor və ya hər hansı jurnalistin (müəllifin) yazdığı informasiya və ya publisistik mətnləri kağızdan, suflyordan efirə oxuyur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| münasib | uyğun, yaraşan |
| görünüş | bir şeyin və adamın zahiri görünüşü |
| məharət | ustalıq, bacarıq, hünər |
| suflyor | aktyorlara rollarının sözlərini deyən adam |
| sənədli | rəsmi |
| kütləvi | kütləyə xas olan, çoxlu adamın iştirakı ilə olan |
| tədris | dərs vermə, dərs oxuma, dərs keçmə |
| yığcam | qısa, kiçik |
| auditoriya | 1) mühazirə, məşğələ zalı; 2) mühazirə dinləyənlər |
| rəngarəng | müxtəlif rəngli, əlvan |
| müraciət | çağırış, xahiş |
| obrazlılıq | ifadəlilik, canlılıq |
| ritorik | ritorika qaydalarına əsaslanan |
| aforizm | hikmətli söz |
| hiperbola | ikitərəfli əyri xətt; mənanı qüvvətləndirən mübaliğə |
| məhrum etmək | bir şeyi əlindən almaq |

| | |
|---|---|
| kadr | kinolentdə ayrı-ayrı şəkil |
| fasilə | işin dayandırılması |
| nəzərdə tutulmaq | nəzərə alınmaq, haqqında düşünmək |

***Çalışma 2. Qalın sait ahəngli sözləri seçin.***

*Diktor elanı* diktorun əvvəlcədən hazırlanmış hər hansı məlumatı tamaşaçılara çatdırmasıdır. Adətən, diktor elanı verilişlərin (filmlərin) məzmunu, yaxud proqram dəyişikliyi ilə bağlı olur.

***Çalışma 3. Nöqtələrin yerinə vacib formasının şəkilçisini yazın.***

Sənədli, elmi-kütləvi və tədris filmlərində, eləcə də TV verilişlərində geniş tətbiq olunan kadrarxası şərh, yaxud aydınlaşdırıcı mətn *diktor mətni* adlanır. *Diktor mətni* bir sıra tələblərə cavab ver...dir: fikir dəqiq, aydın və yığcam ifadə olun...dır; auditoriya üçün anlaşıqlı sözlərdən istifadə edil...dir; rəngarəng nitq formalarına müraciət olun...dır.

***Çalışma 4. Altından xətt çəkilmiş şəkilçilər hansı hala aiddir?***

Diktor mətninə obrazlılıq xasdır; bu mətnlərdə publisistik ifadələrə, atalar sözlərinə, ritorik suallara, elmi müqayisələrə, aforizmlərə, hiperbolaya geniş yer verilməlidir. Mətni obrazlı sözdən və bədii ifadələrdən məhrum etmək olmaz.

***Çalışma 5. Neçə söz düzgün yazılmayıb?***

Bir-başa, tamaşaçı, tele-şirkət, studiya, reportaj, tezliy, elektrik, vizual

a) 5; b) 3; c) 7; d) 2; e) 4



***Çalışma 6. Altından xətt çəkilmiş şəkilçilər hansı növə aiddir?***

Studiya müxtəlif verilişlərin çəkilməsi üçün nəzərdə tutulan yerdir. *Diktor studiyası* proqram oxunuşu üçün nəzərdə tutulur. Burada verilişlərarası fasilədə müəyyən elanlar oxunur.

***Çalışma 7. Terminləri öyrənin.***

diktor, diktor elanı, diktor mətni, diktor studiyası

## §58. Aparıcı

Radio və TV ilə müxtəlif məlumatlar (xəbərlər) verən, söhbətlər, müsahibələr, yaxud müxtəlif tok-şoular aparan şəxs **aparıcı** adlanır. TV və radio verilişlərinin hazırlanmasında iştirak edən, onu ekran və efirdə auditoriyaya təqdim edən jurnalist də aparıcı ola bilər. Bu terminin sinonimləri **kommunikator** və **ankorman** sözlərdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| bələd olmaq | tanış olmaq, tanımaq, bilmək |
| müdaxilə etmək | başqasının işinə qarışmaq, araya girmək |
| irəli sürmək | təklif etmək, ortaya atmaq |
| peşəkarlıq | sənətkarlıq |
| ünsiyyətçillik | xoş münasibət və yaxınlıq yarada bilmək |
| ələ almaq | münasibət yaratmaq |
| zahiri | xarici (daxilinin tərsi) |
| natiqlik | aydın və gözəl danışma |
| tembr | ton, səs çaları |
| səlis | rəvan, sərbəst, axıcı, mükəmməl |
| lektor | mühazirəçi |
| məşğələ | 1) öyrənmə; 2) məşq; 3) məşğuliyyət |
| təkmilləşdirilmək | daha yaxşı etmək, mükəmməl etmək |
| temp | sürət dərəcəsi |
| intensivlik | məhsuldarlıq; gərginlik |
| məcmu | 1) bütün, tamam, hamı; 2) yekun, cəm |
| emosiya | həyəcan, təəssürat |
| idrak | dərk etmə |
| əməliyyat | 1) məqsədli işlər; 2) cərrahlıq işi; 3) döyüş işləri; 4) maliyyə işləri |



| | |
|---|---|
| rəğbət | meyil |
| fakt | olmuş hadisə, əhvalat |
| təfəkkür | 1) fikir; 2) düşünmək bacarığı |
| məharət | ustalıq, bacarıq, qabiliyyət |
| qabiliyyət | 1) istedad; 2) bacarıq; 3) ləyaqət, mərifət |

***Çalışma 2. Fellər hansı zamanda işlənib?***

Aparıcı ilə diktor arasında fərq var. Aparıcı efirəqədərki yaradıcılıq prosesində fəal iştirak edir, danışdığı mövzuya bələd olur. O, müzakirə olunan hər hansı məsələyə fəal müdaxilə edə bilir.

***Çalışma 3. Mənsubiyyət şəkilçilərini tapın.***

Hər hansı verilişin uğuru çox vaxt aparıcıdan asılı olur. Aparıcı seçərkən ona xüsusi tələblər irəli sürülməlidir. Əsas tələblər sırasına aparıcının yüksək peşəkarlığı, ünsiyyətcilliyi, intellektuallığı, auditoriyanı ələ almaq bacarığı, zahiri görünüşü, yüksək natiqlik məharəti, səsinin tembri, özünüifadə qabiliyyəti və s. daxildir.

***Çalışma 4. Qara hərflərlə verilmiş sözləri izah edin.***

*Diksiya* sözlərin tələffüz **tərzidir**. Səlis və aydın diksiya nitq mədəniyyətinin sas **elementlərindəndir**. Diksiya aktyor, müğənni, diktor, natiq, aparıcı və lektor üçün çox **vacibdir**. Diksiya xüsusi məşğələlər vasitəsilə təkmilləşdirilir.

***Çalışma 5. Nöqtələrin yerinə mənsubiyyət şəkilçilərini qoyun.***

*İntonasiya* nitqin ahəng..., ritm..., temp... və ya sürət..., intensivli..., məntiqi vurğu..., tembr... kimi hadisələrin məcmu...dan ibarət mürəkkəb dil hadisə...dir.

O, danışığı, ekran və efir nitq...ni fonetik cəhətdən qaydaya salır, müxtəlif emosiyaları ifadə edir.

*Çalışma 6. Qara hərflərlə verilmiş sözlər ismin mənaca hansı növünə aiddir?*

**İntellekt** insanın əqli **qabiliyyəti**, fəal və mürəkkəb idrak əməliyyatı sistemidir. İntellektual aparıcı tamaşaçının rəğbətini qazanan şəxsdir. O, **fakt** və **hadisələrə** yanaşmasına, **ağıl, düşüncə** və **təfəkkürünün** ifadə tərzinə görə fərqlənir.

*Çalışma 7. Terminləri öyrənin.*

aparıcı, diksiya, intonasiya, intellektual aparıcı



## §59. Aparıcı (davamı)

*Çalışma 1. Nöqtələrin yerinə indiki zaman şəkilçisini artırın.*

*Şərhçilər* müxtəlif sahələr (siyasi, iqtisadi, idman və s.) üzrə ixtisaslaş.... Onlar hadisələr arasında səbəb-nəticə əlaqələrini işıqlandır..., hadisələrin mahiyyətini aydınlaşdır..., izah ed..., mümkün nəticə və proqnozlar barədə danış....

*Çalışma 2. Çoxhecalı sözləri seçin.*

*Siyasi şərhçi* ictimai-siyasi məsələlərin şərhi üzrə ixtisaslaşmış jurnalistdir. O, ölkədə və dünyada baş verən mühüm siyasi hadisələrin mahiyyətini şərh edir.

*Çalışma 3. Nöqtələrin yerinə hansı şəkilçi qoyulmalıdır?*

*Şoumen* danışıq janrında qurulmuş kütləvi bədii-əyləncəli, musiqili verilişlərin aparıcısıdır. Yüksək erudisiya, obyektiv və ədalətli ol..., həqiqət axtarışına qoşul..., bu prosesdə iştirakçılara kömək et... şoumen üçün əsas keyfiyyətlərdir. Auditoriyanı nəzarətdə saxla... şoumendən jurnalistlik və aktyorluq məharəti tələb edir.

*Çalışma 4. Fellər hansı növdə işlənib?*

Şoumen çevik olmalı, aktyor istedadı göstərməlidir. O, hər an adamlarla psixoloji kontakt yaratmalıdır. Şoumen auditoriyanı öz iradəsinə tabe etməyi bacarmalıdır.

*Çalışma 5. Mötərizədəki sözləri lazım olan formada yazın.*

Şoumen əyləncə verilişində aktyor, təhqiqat, müzakirə xarakterli proqramda jurnalist aparıcı (olmaq). O, verilişin mövzusunu elan (etmək), ekspertlərin, audito-

riyanın rəyini (soruşmaq), söhbətin qızğın inkişafına nail (olmaq), onu kulminasiyaya (çatdırmaq).

***Çalışma 6. Terminləri öyrənin.***

şərhçi, siyasi şərhçi, şoumen

***Çalışma 7. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| ixtisaslaşmaq | mütəxəssis olmaq |
| işıqlandırmaq | 1) işıq salmaq, işıq çəkmək; 2) canlandırmaq; 3) izah etmək, yazmaq, göstərmək, təsvir etmək |
| mahiyyət | daxili məzmun, əsil məna |
| proqnoz | fikir söyləmə |
| erudisiya | dərin bilik, geniş məlumat |
| nəzarətdə saxlamaq | nəzər yetirmək, baxmaq |
| istedad | zəka, qabiliyyət |
| kontakt | 1) elektrik xətlərinin toxunması; 2) əlaqə |
| təhqiqat | araşdırma, yoxlama |
| ekspert | mütəxəssis |
| kulminasiya | inkişafın ən yüksək dövrü |



## §60. Aparıcı (davamı)

***Çalışma 1. Yiyəlik halda işlənən sözləri tapın.***

*Disk-jokey* müxtəlif zövqlü adamların və dinləyicilərin istəyi ilə hazırlanan musiqi – mahnı proqramının aparıcısı, radio studiyasının əməkdaşıdır. Qısaca *di-cey* adlanır. Onun xüsusi musiqi hazırlığı olmalıdır.

***Çalışma 2. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

Di-ceyin improvizasiya bacarığı vacibdir. Veriliş... canlı efirdə gedir. Di-cey dinləyici...lə söhbət edir, on...ın sual...ını cavablandırır.

***Çalışma 3. Qara hərflərlə verilmiş sözləri kök və şəkilçiyə ayırın.***

Di-cey musiqi **nömrələrini** elan edir. O, **dinləyicilərə** mahnının yaranması, müəllifi, **ifaçısı** barədə məlumat verir. Di-cey səslənən musiqinin mahiyyəti, melodik **çalarları** və s. haqqında da danışır.

***Çalışma 4. Feli sifətləri tapın.***

1. Konsert proqramının nömrələrini tamaşaçılara elan edən və nömrələr arasında cazibədar danışığı ilə tamaşaçıları əyləndirən aktyor, aparıcı *konferansye* adlanır. 2. Ekran və efirdə müntəzəm icmal verən şəxsə *icmalçı* deyilir. 3. İcmalçı aktual mövzularda icmal müəllifidir.

***Çalışma 5. Altından xətt çəkilmiş sözlər hansı suala cavab verir?***

*Düzgün nitq* nitq normalarına uyğun danışıqdır. Düzgün nitq bu tələblərə cavab verir: ədəbi tələffüz, sözlərin düzgün seçilməsi, qrammatik dəqiqlik, məntiqilik.

*Rəvan nitq* adi, düzgün danışığa əsaslanan və ona əlavə estetik keyfiyyətlər verən nitqdir. Həmin keyfiyyətlər ahəngdarlıq, obrazlılıq, emosionallıq, ekspressivlikdir.

***Çalışma 6. Terminləri öyrənin.***

disk-jokey (di-cey), konferansye, icmalçı, düzgün nitq, rəvan nitq

***Çalışma 7. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| zövq | sevinc hissi, ləzzət, həzz |
| əməkdaş | 1) iş yoldaşı; 2) bir müəssisədə çalışan şəxs |
| istək | arzu, dilək, murad |
| hazırlıq | hazırlaşma, hazır olma |
| improvizasiya | hazırlaşmadan danışma, oxuma, musiqi çalma |
| bacarıq | bilik, təcrübə |
| cavablandırmaq | cavab vermək |
| nömrə | 1) ədəd; 2) rəqəm; 3) tamaşanın, konsertin tərkib hissəsi |
| ifaçı | əsər ifa edən |
| müəllif | əsər yazan, kəşf edən adam |
| barədə | haqqında |
| çalar | müxtəliflik |
| elan edən | məlumat verən, bildirən |
| cazibədar | məlahətli |
| əyləndirən | şənləndirən, məşğul edən |
| müntəzəm | ardıcıl, sistemli, daimi |
| icmal verən | qısa şərh verən |
| norma | 1) qayda, üsul; 2) ölçü, miqdar |
| nitq | danışma |
| tələb | xahiş, təklif etmə, istəmə |
| tələffüz | hərfi, sözü söyləmə tərzi |
| ədəbi | ədəbiyyata aid olan |



| | |
|---|---|
| dəqiqlik | düzgünlük |
| məntiqilik | məntiq qanunlarına uyğunluq |
| rəvan | axıcı, səlis, aydın |
| əsaslanan | özü üçün əsas götürən |
| estetik | estetikaya aid olan |
| keyfiyyət | xüsusiyyət, əlamət |
| ahəngdarlıq | uyğunluq |
| obrazlılıq | ifadəlilik, canlılıq |
| ekspressivlik | mənalılıq, ifadəlilik |
| emosionallıq | həyəcanlılıq |

## MÜNDƏRİCAT

ÖN SÖZ ... 3

§1. Jurnalist yazısının xüsusiyyətləri ... 6
§2. Publisistikada material ... 10
§3. Publisistikada fakt ... 14
§4. Jurnalistikada fikrin ifadə formaları ... 17
§5. Jurnalistin nitq mədəniyyəti ... 20
§6. Məntiqi vurğunun vizual ifadə üsulları ... 23
§7. Radio ... 26
§8. Televiziya ... 30
§9. Televiziyanın növləri ... 34
§10. Televiziyanın növləri (davamı) ... 38
§11. İctimai televiziya ... 42
§12. Kommersiya televiziyası ... 46
§13. Kommersiya televiziyası (davamı) ... 50
§14. Rəqəmli televiziya ... 53
§15. Teleradio yayımı ... 57
§16. Teleradio yayımı (davamı) ... 62
§17. Proqram ... 65
§18. Proqram tipləri ... 68
§19. İnformasiya ... 73
§20. İnformasiya (davamı) ... 78
§21. İnformasiya agentlikləri ... 81
§22. İnformasiya agentlikləri (davamı) ... 85
§23. Xəbər ... 89
§24. Xəbər (davamı) ... 93
§25. Mətbuat ... 97
§26. Mətbuat (davamı) ... 103
§27. Azərbaycan mətbuat tarixi ... 106
§28. Azərbaycan mətbuat tarixi (davamı) ... 110



§29. Qəzet ... 113
§30. Qəzet (davamı) ... 117
§31. İntervü (müsahibə) ... 120
§32. Kinematoqrafiya ... 125
§33. Kino ... 131
§34. Kino (davamı) ... 136
§35. Film ... 139
§36. Filmin növləri ... 144
§37. Filmin növləri (davamı) ... 148
§38. Filmin növləri (davamı) ... 152
§39. Kadr ... 155
§40. Operator sənəti ... 158
§41. Operator sənəti (davamı) ... 161
§42. Operator sənəti (davamı) ... 164
§43. Montaj ... 167
§44. Montaj (davamı) ... 169
§45. Montaj (davamı) ... 171
§46. Montaj (davamı) ... 173
§47. Redaktə ... 175
§48. Mikrofon ... 178
§49. Televiziya sənəti ... 181
§50. Televiziya sənəti (davamı) ... 183
§51. Televiziya sənəti (davamı)... ... 186
§52. Televiziya sənəti (davamı) ... 188
§53. Ekran və efir ... 191
§54. Ekran və efir (davamı) ... 193
§55. Ekran və efir (davamı) ... 195
§56. Ekran və efir (davamı) ... 198
§57. Diktor ... 201
§58. Aparıcı ... 204
§59. Aparıcı (davamı) ... 207
§60. Aparıcı (davamı) ... 209

Qeyd üçün



REYHAN HƏBİBLİ

# NİTQİN ELMİ ÜSLUBU

(jurnalistika təmayülü)

Ali məktəblərin hazırlıq şöbələrində təhsil alan əcnəbi tələbələr üçün dərs vəsaiti

BAKI – 2013

Çapa imzalanmışdır 29.03.2013.
Formatı 60x84 1/16.
Şərti çap vərəqi 13,5.
Tirajı 500.

9№-li kiçik müəssisənin
Mətbəəsində çap olunmuşdur.